## Günün sözü

**Prezident İlham Əliyev:**

**Bayraq yandırmaqla onlar ancaq öz çirkin xislətlərini bütün dünyaya nümayiş etdiriblər… Əlbəttə, bu hadisə bizi sarsıda bilməz, bizim iradəmizə heç bir təsir edə bilməz. Ancaq onlar yaxşı fikirləşsinlər. Bir gün gözlərini açıb Azərbaycan Bayrağını öz başları üzərində görə bilərlər.**



Səhifə ⇨ 9

## Azərbaycan – İsrail əməkdaşlığı sülhə və tərəqqiyə xidmət edir

## 14 may seçimləri: Avropanın müəmmalı susqunluğu



Səhifə ⇨ 14


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 81 (30197) 19 aprel 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


# Bölgələrimiz genişmiqyaslı quruculuq yolunda

## Neftçala şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 18-də Neftçala rayonuna səfər ediblər.**

Dövlətimizin başçısı və birinci xanım Neftçala şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla anıb, abidəsi önünə gül dəstələri qoyublar.

*AZƏRTAC*

## Birinci vitse-prezident Mehriban Əliyeva instaqram hesabında Neftçala rayonundan paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva instaqram hesabında Neftçala rayonundan paylaşım edib.**

Mehriban xanım Əliyeva Neftçala rayonunun Yenikənd kəndində yaradılan "Azerbaijan Fish Farm" MMC-nin Nərə Damazlıq Təsərrüfatından foto və videolar paylaşıb.

## Avropa çempionatından 2 qızıl, 1 gümüş

Səhifə ⇨ 5

# Baronessa Koksdan Xocalı soyqırımına növbəti anti-bəşəri yanaşma

Səhifə ⇨ 8

## Qarabağ məsələsi və reallıqla bağlı müəmmalı fikirlər



Səhifə ⇨ 7

## Qərb Rusiyanın çökməsini gözləyirdi, yüksəlişmi başlanır?



Səhifə ⇨ 14



## Xarici dövlət borcunun ÜDM-ə nisbəti 8,6 faizə qədər azalıb

Səhifə ⇨ 11

## Ekoaksiyaçılar: qaçaqmalçılıq yolverilməzdir

Səhifə ⇨ 6

## Hayların bayraq təxribatı əks-effekt verdi

Səhifə ⇨ 8

## Orta Dəhliz çərçivəsində əməkdaşlıq genişlənir

Səhifə ⇨ 11




## Makronun çıxışı Fransanı oda qaladı

Səhifə ⇨ 14

## Paşinyan: "Dağlıq Qarabağ xalqı" anlayışı yoxdur



Səhifə ⇨ 9

## İrəvan xanlığı niyə və necə erməniləşdirildi?



Səhifə ⇨ 13

# Suverenliyini bazara çıxaran ölkə

Səhifə ⇨ 9

# Neftçala Olimpiya İdman Kompleksinin açılışı




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 18-də Neftçala Olimpiya İdman Kompleksinin açılışında iştirak ediblər.**




Gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına və birinci xanıma kompleksdə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, ərazisi 4 hektar olan kompleksin tikintisinə 2013-cü ildə başlanılıb və inşaat işləri mərhələli şəkildə icra edilib. Sahəsi 12 min 848 kvadratmetr olan idman kompleksinin binasında yaradılan 770 tamaşaçı yeri olan universal idman zalında basketbol, voleybol, həndbol, minifutbol, badminton üzrə məşqlərin və yarışların keçirilməsi üçün lazımi şərait yaradılıb. Eyni zamanda, burada gimnastika, güləş, cüdo, ağır atletika, fitnes-trenajor, taekvondo, aerobika, sambo, karate, boks və kikboksinq, rəqs, şahmat və digər idman növləri üzrə yarışların keçirilməsi nəzərdə tutulub.



Kompleksə üzgüçülük hovuzu da daxildir. Burada 220-dən çox tamaşaçının yarışları izləməsi üçün hər cür şərait var.

Ərazidə 56 çarpayılıq üçmərtəbəli mehmanxana binası da fəaliyyət göstərəcək. Burada fiziki imkanları məhdud şəxslər üçün də nömrələr nəzərdə tutulub. Mehmanxana korpusunun foyesində restoran və kafe də fəaliyyət göstərəcək. Eyni zamanda, kompleksdə əlavə olaraq 68 nəfərlik restoran rayon sakinlərinin və qonaqların istifadəsinə veriləcək. Restoranın açıq sahəsi burada yay mövsümündə və əlverişli hava şəraitində müxtəlif idman məşqləri, gənclərin yay düşərgələri ilə bağlı tədbirlərinin keçirilməsinə imkan verir.

Kompleksdə, həmçinin süni ot örtüklü qapalı minifutbol və açıq tipli minifutbol meydançası, açıq hava idman meydançası, iki Bocce idman oyunu meydançası, uzunluğu 280 metr olan xüsusi yumşaq döşəməli dairəvi qaçış zolağı da yaradılıb.

Bir sözlə, kompleksdə idmançıların və qonaqların istirahəti üçün bütün imkanlar var.

***AZƏRTAC***

# Neftçala-Kürkənd-2 nömrəli Mayak avtomobil yolu istifadəyə verildi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Neftçala-Kürkənd-2 nömrəli Mayak avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib.**




Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Neftçala rayonunda Neftçala-Kürkənd-2 nömrəli Mayak avtomobil yolu sakinlərin xahişi ilə yenidən qurulub.

Neftçalanın 3 yaşayış məntəqəsini əhatə edən 19 kilometr uzunluğunda bu yol 4-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Nəticədə 20 mindən çox əhalinin rahat gediş-gəlişi təmin olunub, yük və sərnişin daşıması asanlaşıb. Yolboyu torpaq, qazma, yataq yolun profilə salınması işləri görülüb. Yolun torpaq yatağının eni 10 metr, hərəkət hissəsi isə 6 metrdir.

Yolboyu suların ötürülməsini təmin etmək məqsədilə mövcud borular yenilənib, boru başlıqları tikilib, yola yeni asfalt-beton örtüyü döşənib.

Prezident İlham Əliyevə Neftçalada 4 yaşayış məntəqəsini əlaqələndirən yolların layihəsi də təqdim olundu.

Qeyd edildi ki, Neftçala rayonunun Neftçala–Xol Qaraqaşlı–Şorsulu avtomobil yolunun 7-ci kilometrliyindən ayrılan Həsənabad–Neftçala və Bankə–Beştalı avtomobil yollarının tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq aparılan yenidənqurma işləri yekunlaşıb.

Uzunluğu 10 kilometr olan Həsənabad–Neftçala və Bankə–Beştalı avtomobil yolları 4-cü texniki dərəcəyə uyğun təkmilləşdirilib. Yolun eni 10 metrə qədər genişləndirilib. Buraya 6 metrlik hərəkət hissəsi və 2 metr enində çiyinlər daxildir.

Yolun 8,5 kilometr uzunluğunda Həsənabad–Neftçala hissəsində normativ enin alınması üçün genişləndirmə və kipləşdirmə işləri görülüb, yeni yol əsasının inşası və asfaltlanma işləri aparılıb. Yolun yaşayış məntəqəsindən keçən hissəsində eni 1,5 metr, uzunluğu 900 metr olan piyada səkisi inşa olunub.

Layihə çərçivəsində yolun 1,5 kilometrlik Bankə–Beştalı hissəsində də sadalanan işlər icra olunub. Layihə üzrə yolun bu hissəsində Kür çayı üzərində yerləşən və uzunluğu 286 metr olan körpü təmir edilib. Görülən işlərə paralel olaraq, yolboyu suların ötürülməsi məqsədilə mövcud dəmir-beton boruların bərpası, zəruri olan yerlərdə isə müxtəlif diametrli yeni suötürücü boruların tikintisi işləri yerinə yetirilib.

Layihənin icrası 38 min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsi arasında gediş-gəlişi rahatlaşdıracaq, kənd təsərrüfatının daha da inkişafına töhfə verəcək.

***AZƏRTAC***

# Yenikənddə “Azerbaijan Fish Farm” MMC-nin Nərə Damazlıq Təsərrüfatı ilə tanışlıq







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 18-də Neftçalanın Yenikənd kəndində “Azerbaijan Fish Farm” MMC-nin Nərə Damazlıq Təsərrüfatında yaradılan şəraitlə tanış olublar.**

Dövlətimizin başçısına və birinci xanıma zavodda yaradılan şərait barədə məlumat verildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hazır məhsullara baxdılar.

Bildirildi ki, S.Q.Kərimov adına Kür-təcrübi nərə balıqartırma zavodu 1954-cü ildə istismara verilib və özəlləşdirilənədək Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində fəaliyyət göstərib. Özəlləşdirildikdən sonra müəssisədəki 34 nohur tam yenidən qurulub, qapalı su çevrəsi əsasında fəaliyyət göstərən texnologiya alınıb, hovuzlar təmir olunub və yeni hovuzlar quraşdırılıb. Həmçinin yeni idarə binası, yeməkxana və “Qonaq evi” binası müasir səviyyədə inşa olunub, su təchizatı sistemi yenilənib, ərazi abadlaşdırılıb.

Diqqətə çatdırılıb ki, investisiya proqramının icrası nəticəsində müəssisənin Xəzəryanı dövlətlər arasında ilk dəfə olaraq nohur, açıq su təchizatı sistemi və qapalı su çevrəsi əsasında fəaliyyət göstərən ixtisaslaşmış damazlıq təsərrüfatının yaradılmasına nail olunub.

Müəssisəyə 16 milyon manata yaxın vəsait yatırılıb, 90-dək yeni iş yeri yaradılaraq işçilərin ümumi sayı 115 nəfərə çatdırılıb. Onların orta aylıq əməkhaqqı 600 manat təşkil edir.

Vurğulandı ki, hazırda müəssisə tam özəl sahibkarlıq subyekti olduğundan “Azerbaijan Fish Farm” MMC-nin Yenikənd Nərə Damazlıq Təsərrüfatı adlanır. Müəssisə 1 əsas və 2 yardımçı təsərrüfatdan ibarətdir.

Əsas təsərrüfat Neftçala rayonunun Yenikənd kəndində yerləşir və ümumi sahəsi 58,6 hektar təşkil edir. Təsərrüfat nohurlardan, qapalı su çevrəsi təchizatı sistemindən və müxtəlif hidrotexniki qurğulardan, o cümlədən sudurulducu sistemlərdən ibarətdir.

Niderlandın tanınmış şirkətlərindən biri tərəfindən qurulmuş qapalı su çevrəsi sistemi müxtəlif yaş qruplarına aid balıqların yetişdirilməsi üçün hovuzları, suyun tərkibini nəzarətdə saxlama sistemini və qurğularını özündə birləşdirir. Balıq saxlanılması, artırılması və yetişdirilməsi üçün 34 nohurun ümumi sahəsi 34 hektardır.

Təsərrüfatın “Dəniz sahili bölməsi”nin ümumi sahəsi 8 hektardır və Xəzər dənizinin sahilində, Nord-Ost qoltuq istiqamətində yerləşir. Təbii mühit şəraitinə uyğunluğu təmin etmək məqsədilə bu bölmə dəniz suyu ilə təchiz olunan və diametri 6 metr olan 12, diametri 9 metr olan 16 və diametri 20 metr olan 32 hovuzdan ibarətdir. Hazırda bu hovuzlarda müxtəlif yaş qruplarına aid ümumi kütləsi 61,7 ton olan nərə cinsli 18 min 400 balıq yetişdirilir.

Qeyd edildi ki, təsərrüfatda il ərzində 10 ton nərə cinsli balıq kürüsü, 200 ton nərə cinsli balıq əti, 100 ton əmtəəlik çəkikimi balıqların istehsal edilməsi nəzərdə tutulur. Nərəcinsli balıqların faktiki istehsalı 65 ton, kürü məhsulu isə 1,327 ton təşkil edir.

Bioloji müxtəlifliyin qorunması və nəsli kəsilməkdə olan balıq növlərinin bərpası məqsədilə 1 milyon ədəd nərəcinsli balıq körpəsinin artırılaraq, aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə Xəzər dənizinə buraxılması da layihədə yer alıb.

“Azerbaijan Fish Farm” MMC-nin Yenikənd Nərə Damazlıq Təsərrüfatı ilə bağlı layihənin icrası zamanı sosialyönümlü tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulub və bu tədbirlərin bir hissəsi artıq yerinə yetirilib. Belə ki, Yenikənd kəndi və Bankə qəsəbəsində yollar abadlaşdırılıb, su təchizatı sistemi qurulub, işıq və qaz təminatı bərpa edilib.

Təsərrüfatın yenidən qurulması zamanı bütün texniki-bioloji normativlərə və qaydalara riayət olunub. Mövcud yerli və beynəlxalq qanunvericilik çərçivəsində fəaliyyət göstərməsi üçün Ətraf Mühit və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədi və Texniki-Bioloji Əsaslandırılma hazırlanıb, istehsal və satış üçün Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) “İSO-22000” və “Halallıq” beynəlxalq sertifikatları alınıb.

Eyni zamanda, kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarət konvensiyası (CİTES) katibliyinin icazə kodu alınıb.

Qeyd edək ki, 2022-ci ildə təsərrüfatda ümumilikdə 2 milyon 101 min 468 manat dəyərində 50 min 731 ton balıq və balıq məhsulları istehsal olunub və satılıb.

***AZƏRTAC***

# Bankə qəsəbəsində yeni məktəbin açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 18-də Heydər Əliyev Fondu tərəfindən Neftçala rayonunda inşa olunan 420 şagird yerlik Bankə qəsəbə 2 saylı tam orta məktəbin açılışında iştirak ediblər.**



Dövlətimizin başçısına və birinci xanıma məktəbdə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, məktəbin binası 1960-cı ildə inşa olunub. Ötən müddət ərzində istifadəyə yararsız vəziyyətə düşdüyünə görə bu təhsil ocağı üçün yeni bina tikilib.

Beş korpusdan ibarət üçmərtəbəli məktəb binası zəruri mebel və avadanlıqlar, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib.

Məktəb binasında 18 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb, əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, həmçinin açıq idman meydançası var.

Məktəbin həyətyanı sahəsi abadlaşdırılıb, yaşıllaşdırma işləri aparılıb.

**AZƏRTAC**

# Salyan Doğum Evi və Uşaq Poliklinikası ilə tanışlıq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 18-də Salyan Rayon Mərkəzi Xəstəxanasının 80 çarpayılıq Doğum Evində və Uşaq Poliklinikasında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olublar.**

Səhiyyə naziri Teymur Musayev dövlətimizin başçısına və birinci xanıma Doğum Evində və Uşaq Poliklinikasında yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, xəstəxananın bina və qurğuları 3,94 hektar sahədə inşa edilib, tikililərin ümumi sahəsi 16 min 472 kvadratmetrdir.

Qeyd edildi ki, binada əsaslı təmir işlərinə 2019-cu ildə başlanılıb və 2022-ci ildə başa çatdırılıb.

Xəstəxana Doğum Evi, Uşaq Poliklinikası, Gigiyena və Epidemiologiya Mərkəzi, Yoluxucu xəstəliklər korpusu, Patoloji Anatomiya binası, digər tikili və qurğulardan ibarətdir.

Müalicə ocağı müasir tələblərə cavab verən Rəqəmsal stasionar ultrasəs müayinə cihazı, rentgen (vizioqraf ilə birlikdə) və rəqəmsal stasionar exokardioqraf cihazı ilə təchiz olunub.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə səhiyyə sisteminin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində son illər mühüm işlər görülüb. Bu sahədə aparılan davamlı islahatlar sayəsində ölkəmizdə əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyəti və səviyyəsi də yüksəlib. Bu istiqamətdə görülən işlər vətəndaşlar tərəfindən məmnunluqla qarşılanır.

**AZƏRTAC**

# Salyanda ümummilli liderin abidəsini ziyarət



**Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Salyan rayonuna səfər ediblər.**

Dövlətimizin başçısı və birinci xanım Salyan şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla anıb, abidəsi önünə gül dəstələri qoyublar.

**AZƏRTAC**

# “Azərişıq” ASC-nin Salyan Rəqəmsal İdarəetmə Mərkəzi işə salındı





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də “Azərişıq” ASC-nin Salyan Rəqəmsal İdarəetmə Mərkəzinin açılışını edib.**

“Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Salyan şəhərində yaradılan Rəqəmsal İdarəetmə Mərkəzi vasitəsilə dispetçer idarəetmə sistemi ilə aşağı gərginlikli şəbəkələr tərəfindən elektrik enerjisinin son istehlakçıyadək çatdırılması nəzarətdə saxlanılır. Eyni zamanda, 110, 35, 10-6 və 0,4 kV-luq şəbəkələrin real vaxt rejimində güc imkanlarının qiymətləndirilməsi, zəruri hallarda digər mənbələrə yönləndirilməsi və rəqəmsal hesabat sisteminin qurulması ilə abonent məmnunluğu təmin olunur.

Qeyd edildi ki, rayonun elektrik enerjisinə artan tələbatının qarşılanması, habelə fasiləsiz, dayanıqlı və etibarlı enerji təchizatının təmin edilməsi və həmin prosesin daimi nəzarətdə saxlanılması məqsədilə 110/35/10 kV-luq “Qaraqaşlı” və 110/35/6 kV-luq “Şorsulu”, 35/10 kV-luq 12, 35/6 kV-luq 14 və 35/0.4 kV-luq 12 yarımstansiyanın Rəqəmsal İdarəetmə Mərkəzinə inteqrasiya olunması həyata keçirilir.

Prezident İlham Əliyev “Azərişıq” ASC-nin Salyan Rəqəmsal İdarəetmə Mərkəzini işə saldı.

Diqqətə çatdırıldı ki, şəbəkələrin texniki parametrlərinin mütəmadi monitorinq edilməsi, o cümlədən qeyri-balans, texniki itki və ya qəza hallarında elektron xəritədə dərhal problemin yerinin koordinatları müəyyən edilir, SMS-xəbərdarlıq xidməti ilə “199 Çağrı Mərkəzi” və qəza xidmətlərinə məlumat ötürülür. Bununla da elektrik enerjisinin verilməsində yaranan fasilələrin qısa müddətdə aradan qaldırılması və istehlakçıların məmnunluğu təmin edilir.

Qeyd edək ki, ümumi qoyuluş gücü 40-50 MVt olan Salyan rayonunun paylayıcı şəbəkələri vasitəsilə 33 min 331 abonentə (31 min 182 əhali, 2 min 149 qeyri-əhali) xidmət göstərilir.

Salyan Rəqəmsal İdarəetmə Mərkəzinin dispetçer sistemi həm mərkəzləşdirilmiş, həm də müstəqil funksional rejimlərdə istismar imkanına malikdir.

Diqqətə çatdırılıb ki, gələcəkdə belə Rəqəmsal İdarəetmə mərkəzləri vasitəsilə bərpaolunan enerji mənbələrinin iş rejimlərinin izlənməsi də nəzərdə tutulur.

**AZƏRTAC**

# Salyanda “ASAN xidmət” mərkəzi istifadəyə verildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Salyanda “ASAN xidmət” mərkəzinin açılışını edib.**

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəz barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, Salyan regional “ASAN xidmət” mərkəzi üçün ayrılan 2 hektar ərazidə inzibati bina, iki yerüstü avtomobil dayanacağı, kafe, konsert səhnəsi, dekorativ fəvvarə, istirahət və uşaq əyləncə meydanı yaradılıb. Mərkəzdə mediafasad quraşdırılıb.

Respublika üzrə sayca 25-ci olan Salyan regional “ASAN xidmət” mərkəzində videomüşahidə kameraları, monitorlar, kompüterlər, printerlər, iki lift, iki eskalator, yanğınsöndürmə, mərkəzləşdirilmiş havalandırma və istilik sistemləri, çillər, generator, UPS, 22 ədəd “ASAN ödəniş” terminalı, elektron şikayət köşkü (Skype), iki elektron rəy sorğusu (exit poll) köşkü, Çağrı mərkəzinə zəng köşkü quraşdırılıb.

Əsasən Salyan, Neftçala, Biləsuvar, Şirvan rayonlarında qeydiyyatda olan ümumilikdə 426 min 600 vətəndaşa xidmət edəcək mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək.



Mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 360-dan çox xidmət həyata keçiriləcək.

Burada çalışacaq əməkdaşların ümumi sayı 205, könüllülərin sayı 45 nəfər nəzərdə tutulur.

Mərkəzdə üzərində xüsusi QR kodlar əks olunan məlumat tabloları yerləşdirilib. QR kodları oxudaraq asan.gov.az saytına keçid etməklə “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzlərinin, yashat.gov.az portalına keçid etməklə isə “YAŞAT” Fondunun fəaliyyəti barədə asanlıqla məlumat əldə etmək mümkündür.

*(ardı 5-ci səhifədə)*

# Ermənistan bəyan etməlidir ki, Qarabağ Azərbaycandır!

## Prezident İlham Əliyevin Salyan şəhərində Azərbaycan Televiziyasına müsahibəsi



**Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Salyan şəhərində Azərbaycan Televiziyasına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

**– Xoş gördük, cənab Prezident. Öncə müsahibəyə vaxt ayırdığınız üçün təşəkkürümüzü bildiririk.**

**Cənab Prezident, Siz mütəmadi surətdə Azərbaycanın bütün regionlarında səfərlərdə olursunuz, görülən işlərlə, inkişaf prosesləri ilə yerində şəxsən tanış olursunuz, tövsiyə və tapşırıqlarınızı verirsiniz. Bu gün Neftçala və Salyan rayonlarında oldunuz. Səfərlə bağlı təəssüratlarınızı bölüşməyinizi xahiş edirik.**

– Təəssüratlarım çox müsbətdir. Dediyiniz kimi, mən Azərbaycanın bölgələrinə tez-tez səfərlər edirəm. Bildiyiniz kimi, 2004-cü ildən başlayaraq Azərbaycanda regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları həyata keçirilir. Hazırda 4-cü proqram icra edilir. Bu proqramların icrası nəticəsində bölgələrdə çox böyük genişmiqyaslı quruculuq işləri aparılmışdır. Bu işlər davam etdirilir. Mənim də bölgələrə səfərlərim həm nəzarət üçün bir vasitədir, yəni, verdiyim tapşırıqlar necə yerinə yetirilir, eyni zamanda, növbəti tapşırıqlar, tövsiyələr verilir ki, bizim bəyan etdiyimiz bütün hədəflər - ilk növbədə, insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması bölgələrdə təmin edilsin. Bir sözlə, Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir.

Bugünkü səfər də ənənəvi bir səfərdir. Mən əvvəlki dövrlərdə Salyan və Neftçala rayonlarında bir neçə dəfə olmuşam və bu səfər çərçivəsində iştirak etdiyim tədbirlər özlüyündə bir göstəricidir. Həm gözəl “ASAN xidmət” mərkəzi, bu, sayca 25-ci mərkəzdir. “ASAN xidmət” sistemi bu gün dünyada artıq Azərbaycan brendi kimi tanınır və nəinki ölkə əhalisi tərəfindən yüksək qiymətləndirilir, onu da deməliyəm ki, “ASAN xidmət” mərkəzlərində göstərilən xidmətlər əhali tərəfindən rəğbətlə qarşılanır və bəyənmə əmsalı 99,8 faizdir. Mən bilmirəm, ikinci belə xidmət var ki, bu qədər insanlar tərəfindən bəyənilsin və eyni zamanda, dünyada artıq ASAN modelini bir neçə ölkə tətbiq edir. Biz bu ölkələrə metodik dəstək veririk. Son illər ərzində, yəni, 10 il ərzində 61 milyon müraciət olmuşdur. Yəni, bu xidmətin yaradılması faktiki olaraq ictimai xidmətlər sahəsində bir inqilab idi, bir dönüş nöqtəsi idi və hazırda 300-dən çox xidmət göstərilir. Beləliklə, “ASAN xidmət” bizim, o cümlədən intellektual məhsulumuzun bir nümunəsidir və eyni zamanda, biz artıq intellektual məhsul ixrac edirik.

Digər tədbirlər də çox böyük işlərin görülməsindən xəbər verir. Məsələn, Olimpiya İdman Kompleksi, uşaq xəstəxanası, doğum evi, elektrik təchizatı ilə bağlı rəqəmsal idarəetmə mərkəzi, digər tədbirlər, iş yerlərinin yaradılması ilə bağlı olan addımlar, o cümlədən Neftçala rayonunda böyük balıqçılıq təsərrüfatının açılışı – bütün bunlar onu göstərir ki, ölkəmiz dinamik şəkildə inkişaf edir, sosial siyasət uğurla icra olunur. Eyni zamanda, infrastruktur layihələr – bu gün yolun açılışında iştirak etmişəm və iqtisadiyyatın real sektoru, o cümlədən iş yerləri ilə bağlı olan təşəbbüslərimiz, sənayeləşmə ilə bağlı olan təşəbbüslərimiz, ixracyönümlü məhsulların istehsalı ilə bağlı təşəbbüslərimiz, bütün bunlar yerinə yetirilir və bir daha ölkəmizin gücünü göstərir. Yenə də deyirəm, bugünkü səfər bir çox məqamlara aydınlıq gətirir. Yəni, bu gün səfərimdən və səfərin nəticələrindən, gördüyüm mənzərədən çox məmnunam.

**– İşğaldan azad olunan ərazilərdə - Qarabağda və Şərqi Zəngəzurda da genişmiqyaslı və sürətli bərpa-yenidənqurma işləri həyata keçirilir. Həmin ərazilərdə artıq böyük dirçəliş dövrü başlayıb. Bu işlərlə bağlı nə deyə bilərsiniz?**

– Bu işlər də plan üzrə gedir. Bildiyiniz kimi, hazırda Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsi məsələsi bizim üçün əsas prioritetdir və mənim bölgələrə səfərlərimin əksəriyyəti məhz o bölgələrə olan səfərlərdir. Halbuki mən ölkəmizin digər yerlərinə də müntəzəm olaraq gedirəm. Qarabağ və Şərqi Zəngəzurda görülmüş işlər bir daha onu göstərir ki, biz - bu torpaqların sahibləri öz doğma dədə-baba torpaqlarımıza qayıtmışıq. Otuz il ərzində Ermənistan bu torpaqları viran qoyub, daş-daş üstə qoymayıb, talançılıq və soyğunçuluqla məşğul olub, barbarlıqla məşğul olub. Biz - bu torpaqların sahibləri isə gəlmişik qurmaq üçün, yaratmaq üçün. Ona görə müharibə başa çatan kimi dərhal artıq işə start verilmişdir. Hazırda artıq iki yaşayış məntəqəsində keçmiş köçkünlər yaşayır - Ağalı və Talış kəndlərində. Biz bu kəndlərin timsalında bütövlükdə gələcək Qarabağın və Şərqi Zəngəzurun simasını görürük - abad şəhərlər, abad kəndlər, ağıllı idarəetmə prinsipləri əsasında yaradılan infrastruktur. Yəni, bütün bunlar göz qabağındadır. Yenə də deyirəm, bu iki layihə artıq bütün Azərbaycan əhalisinə və bütün dünyaya göstərir ki, gələcək Qarabağın və Şərqi Zəngəzurun siması necə olacaq.

Hazırda infrastruktur layihələri davam etdirilir. Bu ilin 3 ayında əldə edilmiş nailiyyətlər imkan verir ki, biz büdcəyə əlavələr edək. Artıq hökumətə göstəriş verilmişdir ki, büdcə dürüstləşməsi aparılsın və Milli Məclisə təqdim edilsin. İlk növbədə Vergi Xidməti xətti ilə üç ay ərzində proqnozdan 1,1 milyard manat çox vəsait toplanmışdır. Bu da şəffaflıq nəticəsində olmuşdur, yeni idarəetmə nəticəsində olmuşdur. Gömrük sektorunda isə proqnozdan əlavə toplanan vəsait 400 milyon manatdan çoxdur. Hazırda gömrük sahəsində də aparılan islahatlar, əvvəlki dövrlərdə buraxılan nöqsanların aradan qaldırılması prosesi uğurla gedir. Təkcə 3 ay ərzində proqnozdan əlavə 1,5 milyard manat vəsait yığılıbdır. Əlbəttə ki, biz ilin ancaq üç ayını başa vurmuşuq, ilin sonuna qədər, təbii ki, bu rəqəm artacaq. Ona görə işləri sürətləndirmək və ölkə qarşısında duran digər vəzifələri yerinə yetirmək üçün, hesab edirəm ki, büdcə dürüstləşməsi aparılmalıdır.

Bütövlükdə, hesab edirəm ki, büdcəyə əlavələr ən azı 3 milyard manat səviyyəsində olacaq, ondan da çox ola bilər. Bunun əsas hissəsi Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasında istifadə ediləcək. İkinci yerdə bizim hərbi xərclərimiz olacaq. Çünki buna da böyük ehtiyac var. Dünyada gedən prosesləri hər kəs izləyir. Dünyada təhdidlər artır, təhlükələr artır. Düzdür, biz İkinci Qarabağ müharibəsində düşmənin başını əzərək möhtəşəm Qələbə əldə etmişik. Ancaq Ermənistanda revanşist qüvvələr yenə baş qaldırır, biz istənilən vəziyyətə hazır olmalıyıq və elə bir ordu yaratmalıyıq ki, dünya miqyasında nümunəvi olsun və ən güclü ordulardan biri olsun. Bu gün də Azərbaycan Ordusu güclüdür. Biz gücümüzü döyüş meydanında göstərmişik. Biz döyüş meydanında həm Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərdik, eyni zamanda, hərbçilərimizin peşəkarlığını göstərdik, öz hərbi potensialımızı göstərdik.

Müharibədən sonrakı iki il yarım ərzində də ordu quruculuğu məsələlərinə çox böyük diqqət göstərilib. Tam əminliklə deyə bilərəm ki, bugünkü Azərbaycan Ordusu 2020-ci ildə Zəfər çalmış eyni Azərbaycan Ordusundan qat-qat güclüdür. Ancaq, eyni zamanda, yenə də demək istəyirəm, biz hər bir vəziyyətə hər an hazır olmalıyıq. Ona görə bu sahədə - ordu quruculuğu və müdafiə potensialımızla bağlı olan bütün məsələlər əsas vəzifədir, bu vəzifə və Qarabağın, Şərqi Zəngəzurun bərpası vəzifəsi. Ona görə biz əsas vəsaiti bu istiqamətlərə yönəldəcəyik, lazım olan digər xərclər də aparılacaq. Yəni, bu, bir daha onu göstərir ki, bilirsiniz, indi dünya miqyasında bir çox yerlərdə iqtisadi böhranın, siyasi böhranın, hərbi böhranın hökm sürdüyü bir vaxtda Azərbaycan onsuz da rekord həddə olan öz dövlət büdcəsini daha da artırır və bizim büdcə xərclərimiz bu artımdan sonra, təbii ki, yeni rekord qıracaq və ən azı 36 milyard manata çatacaqdır.

Qarabağda və Şərqi Zəngəzurda gedən işlərlə bağlı müntəzəm olaraq ictimaiyyətə məlumat verilir. Onu bildirməliyəm ki, infrastruktur layihələrinin icrası, dəmir yolları, avtomobil yolları, elektrik enerjisi ilə bağlı olan təchizat, su təchizatı, meliorativ tədbirlərlə bağlı olan bütün layihələr plan üzrə gedir. İki hava limanı artıq fəaliyyətdədir, üçüncü hava limanının inşası davam edir.

Mən bir müddət bundan əvvəl demişdim ki, biz keçmiş köçkünləri bu ilin sonuna qədər Laçın şəhərinə qaytaracağıq. Bax, bu gün tam əminliklə deyə bilərəm ki, biz yay aylarında artıq buna nail olacağıq. Yəni, biz bu işi vaxtından tez görürük və əgər birinci mərhələdə Laçın şəhərində 400-dən bir qədər çox evin inşasını nəzərdə tuturduqsa, son məlumata, son planlarımıza görə, ancaq fərdi evlərin sayı 570 olacaq. Eyni zamanda, 140-dan çox mənzil hazır olacaqdır. Yəni, beləliklə, 700-dən çox ailəni biz bu ilin yay aylarında Laçın şəhərində yerləşdirəcəyik. Eyni zamanda, qanunsuz olaraq məskunlaşma siyasəti aparılan Zabux və Sus kəndlərində işlər gedir. O kəndlərə də biz ilin sonuna qədər keçmiş köçkünləri qaytaracağıq.

Bununla paralel olaraq Şuşa şəhərində birinci yaşayış kompleksi uğurla inşa edilir. Biz ikinci böyük yaşayış kompleksinin, yəni, bir çox evlərdən ibarət layihənin təməlini yaxın zamanlarda qoyacağıq. Ağdam, Füzuli, Zəngilan şəhərlərində yaşayış binalarının inşası plan üzrə gedir, Kəlbəcər və Cəbrayıl şəhərlərində isə buna hazırlıq işləri görülür. Bununla paralel olaraq məktəblər, xəstəxanalar, sosial obyektlər, məscidlər - 10-dan çox məscid yenidən tikilir və ya əsaslı şəkildə təmir edilir. Daha doğrusu, cəmi iki məscid təmir edilir. Çünki qalan məscidlərin hamısı ermənilər tərəfindən yerlə-yeksan edilmişdir. Bax, quruculuq işlərimiz bu istiqamətdə aparılır və bir daha onu göstərir ki, bizim bütün planlarımız, bəyan etdiyimiz bütün məqsədlər həyatda öz əksini tapır və tapacaq.

**– İcazənizlə, növbəti sualımız Ermənistanla sülh danışıqları ilə bağlıdır. Danışıqlar hazırda hansı mərhələdədir?**

– Bildiyiniz kimi, danışıqlarla bağlı, Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər bu gün əsas amildir. Çünki işğala, erməni vəhşiliyinə, barbarlığına baxmayaraq, məhz Azərbaycan təklif etmişdir ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalansın və məhz Azərbaycan məlum beş prinsipi ortaya qoymuşdur. Bu prinsiplər beynəlxalq hüququn norma və prinsiplərinin təməl prinsipləridir. Biz bəri başdan bəyan etmişdik ki, məhz bu prinsiplər üzərində ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və digər prinsiplər əsasında danışıqlar mümkündür və sülh müqaviləsi imzalana bilər.

Ermənistan tərəfinin mövqeyində son iki il ərzində müxtəlif ziqzaqlar olub, yəni müxtəlif dəyişikliklər olub. Nəticə etibarilə bizə belə gəlir ki, Ermənistan da prinsip etibarilə bizim yanaşma ilə razıdır. Çünki başqa variant da yoxdur. Məhz buna görə keçən ilin oktyabr ayında Praqa və Soçi görüşlərində Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul edib. Yəni qəbul edib ki, Azərbaycan ilə Ermənistan arasında sərhədlər - 1991-ci ilin Alma-Ata Bəyannaməsi əsasında həll olunmalıdır. O da nəyi göstərir? O da göstərir ki, müttəfiq respublikalar arasında olan sərhədlər dövlət sərhədləri sayılır. Beləliklə, bax, bu rəsmi addımı atmaqla Ermənistan rəsmən Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb. Vaxtilə “Qarabağ Ermənistandır və nöqtə” deyən Ermənistan bu gün “Qarabağ Azərbaycandır və nida” sözlərimizi təkrar etməlidir. Çünki əgər “A” deyibsə “B” də deməlidir. Alma-Ata Bəyannaməsini əsas götürüb bunun üzərində sülh müqaviləsinə hazır olduğunu göstərən Ermənistan artıq rəsmən bəyan etməlidir ki, Qarabağ Azərbaycandır.

Hesab edirəm ki, işin gedişatı bunu göstərir, çünki başqa yol da yoxdur. Biz dəfələrlə bəyan etmişdik ki, daxili işlərimizi heç bir ölkə ilə müzakirə etməyəcəyik. Qarabağ bizim daxili işimizdir. Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da ki, özləri üçün başqa yaşayış yeri tapmalıdırlar. Burada tam sərbəstlik var, bütün demokratik əsaslar təklif olunur. Bu məsələ insan hüquqları əsasında öz həllini tapmalıdır. Bu gün bizim hərəkətlərimiz onu göstərir və niyyətimiz ondan ibarətdir ki, tezliklə sülh müqaviləsi imzalansın, Azərbaycanla Ermənistan arasında bu qarşıdurmaya son qoyulsun.

Onu da bildirməliyəm ki, İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində Ermənistan, onun havadarları və eyni zamanda, ona dəstək verən ölkələr və qüvvələr bizim iradəmizi, qətiyyətimizi, gücümüzü əyani şəkildə görüblər. Mən indi sadalamaq istəmirəm, bu iki il yarım ərzində bir çox önəmli hadisələr baş vermişdir, həm Azərbaycan-Ermənistan dövlət sərhədi istiqamətində, eyni zamanda, Rusiyanın müvəqqəti qaydada yerləşdirilmiş sülhməramlı qüvvələrinin nəzarətində olan bölgədə. Biz dəfələrlə göstərmişik ki, bu torpaqların sahibləri bizik və heç kimə imkan verməik ki, bizim ərazimizdə kimsə at oynatsın.

Separatçılar da bilməlidirlər ki, onların iki seçimi var: ya Azərbaycan Bayrağı altında yaşayacaqlar, ya da ki, çıxıb gedəcəklər. Biz separatçıların əsas simalarından olan Serjik Sarkisyanı, Robert Koçaryanı, Seyran Ohanyanı Qarabağdan iti qovan kimi qovmuşuq, onları diz çökdürmüşük. Onlar İkinci Qarabağ müharibəsi zamanı Qarabağa gəlmişdilər, guya bizimlə vuruşmağa gəlmişdilər. Üçü də bizim torpağımızdan dovşan kimi qaçdı, indi heç biri heç burnunu da soxa bilmir nə Xankəndiyə, nə başqa bir yerə.

Hazırda özləri üçün qondarma adlar uyduran separatçılar, - biri özünü prezident adlandırır, biri özünü nazir adlandırır, biri nə bilim nə parlament sədri adlandırır, - bu təlxəklər toplusu, nəhayət bilməlidir ki, bizim səbrimizlə oynamaq olmaz. Biz onlara müxtəlif yollarla dəfələrlə izah etməyə çalışmışıq ki, onlar ya bizim sözümüzlə oturub duracaqlar, ya da ki, oradan rədd olacaqlar və orada yaşayan, onların faktiki olaraq girovuna, əsirinə çevrilmiş erməniləri də rahat buraxacaqlar. Mən əminəm ki, hazırda Qarabağda yaşayan erməni əhalisinin əksəriyyəti Azərbaycan vətəndaşlığını qəbul etməyə hazırdır. Sadəcə olaraq, bu zəlilər, bu yırtıcı heyvanlar, separatçılar qoymurlar. Qoymurlar ki, bu insanlar rahat yaşasınlar, 30 il bunları girov kimi saxlayıblar. Ona görə mənim mövqeyim bundan ibarətdir, bunu hər kəs eşitsin, həm Ermənistan rəhbərliyi, həm bu gün onların arxasında dayanan qüvvələr, bizim iradəmizə heç kim təsir edə bilməz. Biz bunu sübut etmişik, müharibə zamanı və müharibədən sonra. Lazım olarsa, bir də sübut edərik istənilən formada.

**– Bir neçə gün əvvəl erməni xislətini növbəti dəfə göstərən bir hadisə baş verdi. Ermənistanda keçirilən ağır atletika üzrə Avropa çempionatında Azərbaycanın Dövlət Bayrağı yandırıldı. Bununla bağlı nə deyə bilərsiniz?**

– Hesab edirəm ki, bu, erməni hökumətinin növbəti çirkin əməlidir. Mən bunu belə qəbul edirəm. Bu, təsadüfən baş vermiş, hansısa bir fərdin əməli deyil. Bu, Ermənistan hökumətinin növbəti çirkin əməlidir. Bunu deməyə əsas verən bir çox səbəblər var. Birincisi, bu hadisəni törədən insanabənzər məxluq Ermənistan hakim dairələrinin yüksəksəviyyəli şəxsləri ilə birbaşa təmasdadır. İkincisi, bu məxluqa heç bir cəza verilmədi, əksinə, Ermənistanda onu qəhrəmanlaşdırırlar. Guya onu saxlayıblar, ondan bir neçə dəqiqə sonra buraxıblar. Orada bir şou düzəldiblər, onu alqışlarla qarşılayıblar və bu adama qarşı heç bir cəza tədbiri, heç cərimə də tətbiq olunmayıb. Yəni, bu, nəyi göstərir?

Ermənistanın siyasi rəhbərliyinin gözü önündə belə bir rəzil hadisə baş verir və buna heç bir reaksiya verilmir. Deməli, Ermənistan hakimiyyəti, hökuməti, dövləti bu çirkin əməlin müəllifidir. Amma onlar unutmamalıdırlar ki, bu gün Azərbaycan Bayrağı harada dalğalanır. Bu gün Azərbaycan Bayrağı Qarabağda dalğalanır. Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Kəlbəcərdə, Laçında, Şuşada, Hadrutda, Talışda, Suqovuşanda və neçə-neçə kənddə, yüzlərlə kənddə Azərbaycan Bayrağı dalğalanır. Bu gün Azərbaycan Bayrağı Zəngəzur dağlarında dalğalanır, onu unutmasınlar. O bayrağa onlar yaxınlaşa bilər? O insanabənzər məxluq və onun kimiləri o bayraqlara yaxınlaşa bilər? O bayrağa uzaqdan baxmağa da qorxarlar. Bayraq yandırmaqla onlar ancaq öz çirkin xislətlərini bütün dünyaya nümayiş etdiriblər. Bir daha demək istəyirəm, bunun arxasında dayanan Ermənistan dövlətidir, Ermənistan hökumətidir, Ermənistanda aparılan, uzun illər aparılan, onilliklər ərzində aparılan anti-Azərbaycan kampaniyasıdır, azərbaycanofobiyadır. Bu hadisə sıradan olan hadisə deyil.

Onu da demək istəyirəm ki, əlbəttə, bu hadisə bizi sarsıda bilməz, bizim iradəmizə heç bir təsir edə bilməz. Ancaq onlar yaxşı fikirləşsinlər. Bir gün gözlərini açıb Azərbaycan Bayrağını öz başları üzərində görə bilərlər.

– **Cənab Prezident, icazənizlə, bu mövzu ilə bağlı daha bir sual ünvanlamaq istəyirik. İrəvanda keçirilən həmin çempionatda Türkiyədən olan qadın idmançılar qızıl və gümüş medallar qazandılar və Azərbaycana həsr etdilər. Siz və Mehriban xanım onları təbrik etdiniz. Bununla bağlı fikirlərinizi bilmək istəyərdik.**

– Bəli, Mehriban xanım və mən əziz qızlarımız Cansu və Qəmzəni təbrik etdik. Birinci, ona görə ki, onlar Ermənistanda - düşmən dövlətdə, həm Azərbaycana, həm də Türkiyəyə əzəli düşmən olan dövlətdə bu böyük qələbəni əldə etdilər, Türk Bayrağını yüksəklərə qaldırdılar. Ermənilər bizim bayrağımızı yandırıblar, amma Türk Bayrağı orada dalğalanıb. Türkiyənin Dövlət Himnini səsləndirdilər. Türkiyənin Dövlət Himni elə səsləndi ki, orada oturan bütün düşmənlərin yəqin ki, qulağı batmışdı. Bu qələbəni onlar Azərbaycana, Azərbaycan xalqına həsr etdilər. Nə qədər gözəl bir hərəkətdir. Ona görə onlar bütün Azərbaycan xalqının sevgisini qazandılar. Mən onları bir daha təbrik etmək istəyirəm.

Bu gün mən Neftçala Olimpiya Kompleksinin açılışında olarkən gənclər və idman nazirinə tapşırdım ki, bizim qızlarımızı mənim adımdan Azərbaycana dəvət etsin və onlar bizim qonağımız olsunlar. Bu, bir daha bizim birliyimizi göstərir, Türkiyə-Azərbaycan birliyi, qardaşlığı sarsılmazdır. Biz birik və onlara ünvanlanan təbrik məktubunda da yazmışıq ki, Türkiyə Bayrağı olan yerdə biz də varıq və bütün Ermənistan onu gördü. Bir yaramaz bizim bayrağımızı yandırır, ertəsi gün qardaş Türkiyə dövlətinin şanlı bayrağı o düşmənlərin başının üzərində ucaldılır və onlar Türkiyənin Dövlət Himninə ayaq üstə qulaq asmağa məcbur olurlar.

Mən bir daha bizim gözəl qızlarımızı təbrik etmək istəyirəm. Biz onlarla fəxr edirik və əslində bu hadisə, hesab edirəm ki, tarixdə qalacaq, təkcə idman tarixində yox, bütövlükdə dünya siyasət tarixində, Türk dünyasının tarixində. Hər birimiz - Türk dünyasının hər bir övladı, bax, Cansu və Qəmzə kimi olmalıdır. Mənim arzum budur.

**– Çox sağ olun, bir daha təşəkkür edirik vaxt ayırıb suallarımızı cavablandırdınız.**

– Sağ ol.

# Salyanda “ASAN xidmət” mərkəzi istifadəyə verildi



*(əvvəli 3-cü səhifədə)*

Dövlətimizin başçısına innovativ yeniliklər - “Metaverse” platforması, “META-SAN xidmət”, “Evə dönüş” layihəsi, “e-ASAN” avadanlığı, “Charge Box” elektrik qidalanma stansiyaları barədə də məlumat verildi.

Sonra Prezident İlham Əliyevə “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)” Azərbaycan Respublikasının ilk yubiley medalı, həmçinin “ASAN xidmət” kollektivi adından qurumun 10 illiyinə həsr olunmuş və ABAD tərəfindən hazırlanmış xatirə hədiyyəsi təqdim olundu.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyev tərəfindən dövlət idarəçiliyinin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar xüsusi vurğulanmalıdır. “ASAN xidmət” mərkəzlərinin yaradılması da bu islahatların tərkib hissəsidir. Bu mərkəzlər dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edir.

Hazırda Azərbaycanda 25 “ASAN xidmət” mərkəzi fəaliyyət göstərir. Onlardan 7-si Bakı şəhərində, 2-si Gəncədə, 2-si Sumqayıtda olmaqla digərləri Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi, Balakən və Salyandadır.

Lənkəran və Naxçıvanda isə ilk “ASAN xidmət” mərkəzləri inşa olunur.

“ASAN xidmət” mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 360-dan çox, “ASAN Kommunal” mərkəzlərində isə “Azərişıq” ASC, “Azərsu” ASC və “Azəriqaz” İB tərəfindən 55 növ xidmət göstərilir.

Bu günədək “ASAN xidmət” mərkəzlərinə 8 milyon 640 mindən çox vətəndaşın 61 milyondan çox müraciəti daxil olub.

Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,8 faiz təşkil edir.

Regionlarda 10 səyyar “ASAN xidmət” avtobusu və səyyar “ASAN qatar” vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü ilin iyun ayından etibarən 2 milyon 783 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib.

Dövlət Agentliyi öz fəaliyyəti çərçivəsində 16 ölkə və 2 beynəlxalq təşkilatla müqavilə imzalayıb.

Həmçinin bir neçə ölkədən “ASAN xidmət” təcrübəsinin öz ölkələrində tətbiqi ilə əlaqədar müraciətlər daxil olub. Hazırda danışıqlar davam etdirilir.

**AZƏRTAC**

# Əməkdaşlıq imkanları müzakirə olunub

**Aprelin 18-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Taha ilə telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, tərəflər əvvəlcə qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ən xoş arzularını və təbriklərini çatdıraraq bütün İslam dünyasına sülh və firavanlıq diləyiblər.

Telefon danışığı zamanı Azərbaycan və İƏT arasında mövcud əməkdaşlıq imkanları, gündəlikdə duran məsələlər və gələcək perspektivlər ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov ölkəmizin Təşkilatla faydalı və səmərəli əməkdaşlığından bəhs edərək bu əməkdaşlığın həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Tərəflər keçirilən birgə tədbirlərin uğurlu təşkilinə istinad edərək, cari ilin mart ayında Mavritaniyada baş tutmuş İƏT Xarici İşlər Nazirləri Şurasının 49-cu sessiyasının nəticələri, qəbul edilmiş qərarlar və növbəti addımlardan söz açıb.

Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*

Aprelin 18-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Körfəz Əməkdaşlıq Şurasının (KƏŞ) Baş katibi Casim Əl-Budeyvi arasında telefon danışığı baş tutub.

Nazir Ceyhun Bayramov, KƏŞ-in Baş katibi vəzifəsinə təyinatı münasibətilə Casim Əl-Budeyvini təbrik edib, ona fəaliyyətində uğurlar arzu edib.

Azərbaycanın KƏŞ-ə üzv dövlətlərlə qarşılıqlı hörmət, dəstək və həmrəyliyə əsaslanan münasibətlərinin mövcudluğundan bəhs edən nazir Ceyhun Bayramov, bu münasibətlərin KƏŞ çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığa təkan verdiyini qeyd edib. “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə KƏŞ Baş Katibliyi arasında Məsləhətləşmələrin Mexanizmi haqqında Anlaşma Memorandumu”nun imzalanmasının Azərbaycan və KƏŞ arasında münasibətlərin inkişafına mühüm töhfə verdiyini bildirən nazir Ceyhun Bayramov, bu xüsusda sözügedən Memorandumdan irəli gələn məsələlərin, habelə növbəti addımların müzakirəsi istiqamətində qarşılıqlı təmaslar və dialoqun əhəmiyyətini vurğulayıb.

Casim Əl-Budeyvi KƏŞ-ə üzv dövlətlər ilə Azərbaycanı birləşdirən bir çox ortaq dəyərlərin mövcudluğundan məmnunluqla bəhs edərək, bu xüsusda baş katibliyi dönəmində münasibətlərin daha da inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

Tərəflər qarşıdan gələn Ramazan bayramı münasibətilə bir-birilərinə qarşılıqlı səmimi təbriklərini çatdırıb, bu müqəddəs bayramın bütün İslam dünyasına əmin-amanlıq gətirməsini arzu ediblər.

***Q.QASIMOV, “Xalq qəzeti”***

# İsrail Azərbaycanla əlaqələrin genişlənməsinə önəm verir

**Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın həmsədrləri - Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və İsrailin xarici işlər naziri Eli Kohen arasında görüş keçirilib.**

İqtisadiyyat Nazirliyindən bildirilib ki, Mikayıl Cabbarov Azərbaycanla İsrail arasında yüksək səviyyəli əlaqələri vurğulayıb. Diqqətə çatdırılıb ki, ölkəmizin İsraildə səfirliyinin açılması ikitərəfli münasibətlərin yeni mərhələyə yüksəldiyini göstərir. Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiya, həmçinin Azərbaycanın İsraildəki Ticarət nümayəndəliyi ölkələrimiz arasında tərəfdaşlığın inkişafı üçün əhəmiyyətli platformalardır. Ölkələrimiz iqtisadi-ticarət əməkdaşlığının gücləndirilməsi istiqamətində işləri davam etdirir. İsrail Azərbaycanın əsas ticarət tərəfdaşları sırasındadır. İsraillə qarşılıqlı investisiya, həmçinin energetika, kənd təsərrüfatı, İT, innovasiya, əczaçılıq, turizm və s. sahələr üzrə səmərəli əməkdaşlıq mövcuddur. Ötən il işgüzar dairələrimiz arasında əlaqələrin genişləndirilməsi istiqamətində fəal iş aparılıb. İsrail şirkətləri ilə birgə investisiya layihələrinin reallaşdırılması üzrə işlər davam edir. Həmçinin sənaye zonaları və aqroparklar, su təsərrüfatı və digər sahələr üzrə də tərəfdaşlıq olunur. İsraillə innovativ inkişaf və rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlıq Azərbaycan üçün xüsusi önəm daşıyır.



İqtisadiyyat naziri Azərbaycanın əlverişli işgüzar mühiti, azad edilmiş ərazilərimizdə həyata keçirilən quruculuq layihələri, sənaye zonalarının fəaliyyəti, Ələt Azad İqtisadi Zonasının imkanları barədə məlumat verib.

İsrail Dövlətinin xarici işlər naziri Eli Kohen ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsinə önəm verdiyini, İsrail şirkətlərinin müxtəlif sahələrdə tərəfdaşlığa maraq göstərdiyini qeyd edib, əməkdaşlığın gücləndirilməsi üçün geniş imkanların olduğunu vurğulayıb.

***“Xalq qəzeti”***

# Avropa çempionatından 2 qızıl, 1 gümüş







**Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən Avropa çempionatında sərbəst güləşçilərimiz böyük uğurla iştirak edirlər. Yarışın ikinci günündə güləşçilərimiz 2 qızıl, 1 gümüş medalla başa vurublar.**

İlk medalı komandamızın aktivinə Əliabbas Rzazadə (57 kq) yazdırıb. Qızıl medal uğrunda Türkiyə təmsilçisi Süleyman Atlıya heç bir şans verməyən 25 yaşlı pəhləvanımız təcrübəli rəqibini vaxtından əvvəl 12:2 hesabı ilə məğlub edərək karyerasında ilk Avropa çempionluğunu qazanıb.

Növbəti uğur Hacı Əliyevdən (70 kq) gəlib. Rəqibi Ramazan Ramazanovu (Bolqarıstan) finalda 10:3 hesabı ilə məğlub edən millimizin kapitanı dördqat Avropa çempionu tituluna sahib olub.

Təmsilçimiz – son Avropa çempionu Maqomedxan Maqomedov (97 kq) həlledici mərhələdə Givi Matçarasvili (Gürcüstan) ilə qarşılaşıb. Azərbaycan təmsilçisi öndə olsa da, son saniyələrdə üstünlüyü əldən verərək, 3:4 hesabı ilə məğlub olub və ikinci yerlə kifayətlənib.

Komandamızın digər üzvləri Səbuhi Əmiraslanovun (79 kq) zədəsi bürünc medal uğrunda serbiyalı Hetik Çabolovla görüşə çıxmağa imkan verməditi üçün 5-ci yerlə kifayətlənib. Əli Rəhimzadə (65 kq) isə bürünc medal uğrunda qarşılaşmada ukraynalı Erik Aruşanyana minimal fərqlə (6:7) uduzub.

***Leyla QURBANOVA, “Xalq qəzeti”***

# Ədliyyə Nazirliyində ulu öndərin zəngin irsini əks etdirən kitab sərgisi

**Dünən Ədliyyə Nazirliyində AMEA Mərkəzi Elmi Kitabxanası ilə birgə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə kitab sərgisi keçirilib.**



Nazirliyin rəhbərliyinin və çoxsaylı kollektivinin, o cümlədən gənc ədliyyə işçilərinin, habelə Bakı Dövlət Universiteti Hüquq fakültəsinin tələbələrinin iştirak etdiyi sərgidə ümummilli lider Heydər Əliyevin mənalı ömür yolu və titanik fəaliyyətindən, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən, respublikamızın hərtərəfli inkişafına hesablanmış müdrik və uzaqgörən siyasətindən bəhs edən 400-dən çox kitab və müxtəlif adda miniatür vəsaitlər nümayiş etdirilib.

Keçirilmiş sərgidə çıxış edən ədliyyə naziri Fikrət Məmmədov tarixi şəxsiyyət Heydər Əliyevin zəngin irsinin indiki və gələcək nəsillərə örnək olduğunu bildirib, sərginin əbədiyaşar liderimizin yüksək amallarının təbliği və öyrənilməsi baxımından mühüm əhəmiyyətini vurğulayıb. Nazir Azərbaycan ədliyyəsinin bir əsrlik tarixinə dair kitabı təqdim edərək, onun böyük hissəsinin məhz müasir məhkəmə-hüquq sistemimizin müəllifi olan ulu öndərin müstəsna roluna həsr olunduğunu diqqətə çatdırıb.

Kitabxananın Heydər Əliyev və Azərbaycan dövlətçiliyi şöbəsinin müdiri Günel Bağırova-Hüseynova dahi Heydər Əliyev haqqında yeni əsərlər, nəşrlər barədə məlumat verib, ədliyyə işçilərinin ümummilli liderin irsinə böyük maraq göstərərək sərgidə fəal iştirakını xüsusi qeyd edib.

Ulu öndərin hər kəsə nümunə ola biləcək həyat və fəaliyyəti barədə geniş təəssürat yaradan sərgi ilə tanışlıq gün ərzində davam edib.

# “Heydər Əliyevin media dərsləri”



**Nəsimi Rayon İcra Hakimiyyətinin “Xalq qəzeti” ilə birgə təşkil etdiyi “Heydər Əliyevin media dərsləri” mövzusunda konfransda müstəqil dövlətimizin banisinin demokratik cəmiyyətdə medianın rolu və vəzifələri ilə bağlı konseptual təlimi diqqət mərkəzində oldu, ulu öndərin milli jurnalistikamızın inkişafındakı xidmətləri qədirbilənliklə yad edildi.**

Yerli ictimaiyyət nümayəndələrinin və mərkəzi media təmsilçilərinin iştirak etdiyi məclisi giriş sözü ilə açan Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov bildirdi ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə milli mətbuatımızın, ölkə teleradiosunun peşəkarlıq baxımından yüksəlişi və maddi-texniki bazasının möhkəmləndirilməsi üçün əsaslı tədbirlər həyata keçirilib.

Konfransın davamında “Xalq qəzeti”nin baş redaktoru, Əməkdar jurnalist Əflatun Amaşov, “İki sahil” qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, fəlsəfə doktoru Alqış Musayev və “Bakı xəbər” qəzetinin baş redaktoru, Əməkdar jurnalist Aydın Quliyev bildirdilər ki, ulu öndər Heydər Əliyev jurnalistikaya kifayət qədər açıq idi və azad, doğru sözün gücünü aydın dəyərləndirirdi. Ümummilli liderin böyük səyləri nəticəsində Azərbaycanda mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması sahəsində ardıcıl tədbirlər həyata keçirildi.

Qeyd edildi ki, ulu öndərin müstəsna səyləri ilə müstəqillik illərində kütləvi informasiya vasitələrinin təsis edilməsi və azad fəaliyyəti üçün ölkəmizdə zəruri qanunvericilik bazası yaradıldı. Mətbuata dövlət nəzarəti olan senzuranın aradan qaldırılmasından sonra beynəlxalq standartlara cavab verən, KİV-in təsis edilməsi və fəaliyyəti üçün qanunvericiliyin təkmilləşdirilməsi, optimal hüquqi mühitin formalaşdırılması istiqamətində zəruri olan sənədlər qəbul edildi. Beləliklə, demokratik cəmiyyətdə medianın yerini ən dəqiq və qeyri-adi bir həssaslıqla dəyərləndirən düşüncə ulu öndərimiz Heydər Əliyevə məxsusdur.

Konfransda çıxış edən natitiqlərin çıxışlarında belə bir mülahizə ortaqlıq təşkil etdi: Ulu öndərin əsasını qoyduğu ənənəni dövlət başçısı cənab Prezident İlham Əliyevin sərəncamları ilə müstəqil dövlətimizdə azad, demokratik medianın inkişafına, jurnalistlərin sosial problemlərinin həllinə dövlət dəstəyini təmin edən təsirli tədbirlər reallaşdırılıb. Bunların nəticəsidir ki, jurnalistika ölkədə ən sürətlə inkişaf edən, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə günü-gündən təkmilləşən fəaliyyət sahələrindən biridir.

***(Konfrans haqqında geniş material qəzetimizin növbəti saylarında təqdim ediləcək.)***

***Tahir AYDINOĞLU, “Xalq qəzeti”***

# “Korrupsiya ilə mübarizədə Heydər Əliyev siyasi irsi”

**Dünən Sabirabad şəhərində “Korrupsiya ilə mübarizədə Heydər Əliyev siyasi irsi” adlı konfrans keçirilib. İştirakçılar əvvəlcə ümummilli liderin şəhərdəki abidəsini ziyarət edib, Heydər Əliyev Mərkəzinin Muzey hissəsində ulu öndərin zəngin dövlətçilik irsini, həyat və fəaliyyətini əks etdirən eksponat və fotostendlərlə tanış olublar.**



Tədbirdə çıxış edən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Asəf Sarıkişiyev ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə korrupsiyaya qarşı aparılmış sistemli mübarizə, həyata keçirilmiş əsaslı islahatlar, görülmüş təşkilati və preventiv tədbirlər, habelə korrupsiyaya qarşı mübarizədə prokurorluq orqanlarının üzərinə düşən vəzifələr barədə ətraflı məlumat verib.

Milli Məclisin deputatı, Baş Prokurorluğun Anti-Korrupsiya Təlim Mərkəzinin rəhbəri Kamal Cəfərov bildirib ki, korrupsiyaya qarşı mübarizə istiqamətində müasir müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin qəti siyasi iradəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilməklə həyata keçirilən mövcud siyasətin əsas istiqamətini təşkil edir.

Sonra digər natiqlər dahi lider Heydər Əliyevin korrupsiyaya qarşı konkret əməli addımlarla müşahidə olunan barışmaz siyasətinin digər fəaliyyət sferalarına müsbət təsirləri barədə çıxış ediblər.

# Polşa–Azərbaycan münasibətləri ilbəil inkişaf edir



**Aprelin 18-də Milli Məclisin Sədri Sahibə Qafarova Polşa Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Andjey Duda ilə görüşüb.**

Prezident Andjey Duda Polşa və Azərbaycan arasında münasibətlərin səviyyəsindən razılığını bildirib. O, ölkərimizin hər zaman dost ölkələr olduğunu, gələcəkdə də belə olacağını, münasibətlərimizin ilbəil daha da inkişaf etdiyini bildirib. Dövlət başçısı Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ildə bu ölkəyə, özünün isə 2019-cu ildə Azərbaycana səfərini xatırladaraq, bu təmasların ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəyə qalxmasında mühüm rolunu qeyd edib.

Prezident, həmçinin Bakıya səfəri zamanı aldığı xoş təəssüratlarını bölüşüb, Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etdiyini vurğulayaraq, bu inkişafın yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Ölkə başçısı onun salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib.

Milli Məclisin Sədri Sahibə Qafarova Prezident İlham Əliyevin salamlarını Polşanın dövlət başçısına çatdırıb. Azərbaycan Milli Məclisinin Sədri kimi Polşaya ilk səfəri olduğunu bildirən. S.Qafarova bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin daha da möhkəmlənməsinə və genişlənməsinə kömək edəcəyinə inamını ifadə edib.

S.Qafarova Azərbaycan və Polşanın dost və strateji tərəfdaş ölkələr olduğunu bildirib. Diqqətə çatdırıb ki, dövlət başçılarımızın qarşılıqlı səfərləri ikitərəfli münasibətlərin daha da inkişafında müstəsna rol oynayır.

Parlamentin Sədri deyib ki, Azərbaycan Polşa ilə Avropa İttifaqı çərçivəsində də əməkdaşlıq edir: “Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlıq da böyük əhəmiyyət kəsb edir. Azərbaycan neftlə yanaşı, Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya etibarlı qaz təchizatçısına çevrilib. Bu, Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfədir. Bundan başqa, Azərbaycan və Polşa arasında qarşılıqlı investisiya və nəqliyyat-logistika əməkdaşlığının gücləndirilməsi Polşanın Orta Asiyaya və yeni bazarlara çıxışı baxımından vacibdir”.

İki ölkə arasında parlamentlərarası əlaqələrin yüksək səviyyədə olduğu diqqətə çatdırılıb. Qeyd edilib ki, ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri də parlamentlərimizin qarşılıqlı fəaliyyətidir. Hər iki ölkənin parlamentində fəaliyyət göstərən qarşılıqlı dostluq qrupları, həyata keçirilən qarşılıqlı səfərlər parlament diplomatiyasının güclənməsinə xidmət edir.

Milli Məclisin Sədri Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirdiyi genişmiqyaslı quruculuq və bərpa işləri, Ermənistanın regionda davamlı sülhün təmin olunmasına qarşı yönəlmiş təxribatçı hərəkətləri barədə də geniş məlumat verib. S. Qafarova deyib ki, Ermənistan üçtərəfli Bəyanatın müddəalarını kobud şəkildə pozaraq, hələ də öz qoşunlarını Azərbaycan ərazilərindən çıxarmayıb. O cümlədən, Laçın yolundan hərbi məqsədlər və qeyri-qanuni istismar etdiyi təbii sərvətlərimizin daşınması üçün istifadə edir. Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələrinin Laçın yolunda dinc aksiyası Ermənistanın bu qeyri-qanuni əməllərinə etiraz olaraq keçirilir. Lakin Ermənistan, guya, Laçın yolunun bağlanmasına dair yalan iddialarla beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. İndiyədək Laçın yolundan 6 mindən çox avtomobilin keçidi sübut edir ki, bu yol humanitar məqsədlər üçün açıqdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

*Əliqismət BƏDƏLOV,*
*“Xalq qəzeti”*

# Akademik Zərifə xanım Əliyeva Naxçıvanda anıldı



**Dünən Naxçıvan Dövlət Milli Dram Teatrında görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi ilə əlaqədar “Elmdə qadınlar” adlı konfrans keçirilib.**

Muxtar Respublikada Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli deyib ki, ölkənin hər yerində olduğu kimi Naxçıvanda da Zərifə Əliyevanın 100 illik yubileyi ilə bağlı silsilə tədbirlər həyata keçirilir, görkəmli alimin ömür yoluna və çoxşaxəli fəaliyyətinə ətraflı nəzər salınır. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Naxçıvan şəhərində keçirilən “Elmdə qadınlar” konfransı da yubiley tədbirləri silsiləsində mühüm əhəmiyyət kəsb edir.

Konfransın təşkilatçılarına minnətdarlığını bildirən səlahiyyətli nümayəndə qeyd edib ki, mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır. Zərifə xanım Əliyeva da məhz belə seçilmiş insanlardan olub. Bu parlaq vergi sahibi yüksək mədəniyyət, daxili zənginlik simvoludur. Onun Azərbaycanda oftalmologiya elminin inkişafında xidmətləri göz önündədir. Görkəmli alim 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifi kimi tarixə düşüb. Zərifə xanım Əliyeva yüksəkixtisaslı kadrların hazırlanmasına da böyük əmək sərf edib. Onun birbaşa rəhbərliyi ilə gənc alimlər və həkim-oftalmoloqlar nəsli yetişib. Görkəmli alim tələbələrinə zəngin həyat təcrübəsi öyrədib, onlara diqqət və qayğı ilə yanaşıb. Apardığı elmi tədqiqatların sosial əhəmiyyəti, özünün ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətləri layiqincə qiymətləndirilərək 1983-cü ildə Zərifə xanım Əliyeva Azərbaycan Elmlər Akademiyasının akademiki seçilib. Oftalmoloq-alim xidmətlərinə görə orden və medallarla təltif olunub, Azərbaycanın “Əməkdar elm xadimi” fəxri adına layiq görülüb. Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı dərin və mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və ölkə üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Onun elmi, tibbi və pedaqoji fəaliyyəti, hər kəs üçün nümunə olan yüksək mənəvi keyfiyyətləri haqqında çoxsaylı məqalə, kitab və əsərlər yazılıb, bundan sonra da yazılacaqdır. Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Bildirilib ki, ülvi keyfiyyətlərə malik olan akademik Zərifə xanım Əliyeva öz elmi fəaliyyətində etika və tibbi deontologiya məsələlərinə xüsusi yer verib. Onun bu mövzuya dair baxışları “Həkimin yüksək vəzifəsi” və “Oftalmologiyanın aktual problemləri” monoqrafiyalarında ətraflı işıqlandırılıb. Zərifə Əliyevanın mənəvi zənginliyi, vəzifə borcuna, tibbi etika və deontologiyaya dair baxışları onun “Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri” əsərində daha ətraflı şəkildə əks olunub. Alim həkim və xəstənin qarşılıqlı münasibətlərinin əsas qaydalarını tərtib edib, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərib, bütün tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkib.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova konfransın keçirilməsinə şərait yaradıldığı üçün minnətdarlıq edib, tədbirin muxtar respublikada keçirilməsinə böyük əhəmiyyət verildiyini qeyd edərək bildirib ki, Zərifə xanım Əliyeva o şəxsiyyətlərdəndir ki, bu dünyaya gəlişinin və missiyasının məqsədini çox gözəl bilirdi. Hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq məsuliyyətli şəxs hər zaman təmsil etdiyi xalqın, üzvü olduğu cəmiyyətin, vətəndaşı olduğu dövlətin problemlərini, onun yaşantılarını öz daxilindən keçirir və özünün həyata baxışı da bu konteksdə formalaşır və onun fəaliyyəti mütləq şəkildə özünün fərdi çərçivələrini aşaraq xalqın, dövlətin və millətin maraqlarına uyğunlaşır. Məhz dövlətləri, xalqları, millətləri dünyada tanıdan da belə şəxsiyyətlərdir. Biz çox xoşbəxt xalqıq ki, bir ailənin 3 üzvündə belə dəyərlər mövcuddur. Zərifə xanım Əliyeva hər şeydən əvvəl Azərbaycan dövlətinə, xalqına xidmət edən gözəl bir nəslin nümayəndəsidir.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Azərbaycan Respublikası Elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin, akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının baş həkimi Səadət İbrahimova və başqaları akademik Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafındakı xidmətlərindən, bu sahədəki tədqiqatlarından, keçdiyi şərəfli ömür yolundan, sədaqətli həyat yoldaşı və qayğıkeş, ölkəmizin sürətli inkişafını təmin edən, zəfərlərdən-zəfərlərə aparan oğul yetişdirən ana olmasından danışılıb.

Sonra “Azərbaycan qadını, anası, həkimi - Akademik Zərifə xanım Əliyeva” mövzusunda keçirilən esse müsabiqəsi qaliblərinin və Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi üzrə yüksək təhsil göstəricisi olan tələbələrin mükafatlandırılması mərasimi olub.

Konfrans bədii hissə ilə davam edib.

# Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının 14-cü iclası

**Aprelin 18-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədovun rəhbərliyi ilə Şuranın 14-cü iclası keçirilib.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, iclasda cari il martın 2-də Bakıda keçirilmiş Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüş minatəmizləmə fəaliyyətinin 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi BMT-nin 2030 Gündəliyinə əlavə edilməsi təşəbbüsü ilə bağlı hazırlanmış layihə müzakirə olunub.

İclasda çıxış edən Şuranın sədri Əli Əhmədov ötən dövrdə ölkəmizdə Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunması istiqamətində görülmüş işlər barədə məlumat verib. Şura sədri Dayanıqlı İnkişaf Məqsədləri və minatəmizləmə fəaliyyəti arasında birbaşa əlaqənin mövcud olduğunu, mina təhlükəsi ilə mübarizənin BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədinin 12-si ilə birbaşa, digər 5 məqsədlə dolayısı ilə uzlaşdığını bildirib. Əli Əhmədov Azərbaycanın mina və digər partlayıcı sursatlardan ən çox çirklənmiş ölkələrdən biri olduğunu, ilkin tədqiqatlara əsasən, ölkəmizin ərazisinin 8235 kvadratkilometrdən çox hissəsinin mina və digər partlayıcı sursatlarla çirkləndiyini diqqətə çatdırıb. Ölkəmizin üzləşdiyi bu problemdən bu gün dünyanın 60-dan artıq ölkəsinin əziyyət çəkdiyi nəzərə alınaraq, bu istiqamətdə həm yerli səviyyədə, həm də qlobal miqyasda təşviqat işlərinin aparılmasının vacibliyi vurğulanıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə üzrə həyata keçirilmiş fəaliyyətlər və qarşıdakı hədəflər barədə məlumat verib. Agentliyin rəhbəri bu istiqamətdə fəaliyyətin səmərəliliyinin təşkil olunması məqsədilə ANAMA-nın kadr və texnoloji potensialının dörd dəfədən çox artırıldığını qeyd edib.

Sonra İqtisadiyyat Nazirliyinin Dayanıqlı İnkişaf və sosial siyasət şöbəsinin müdiri, Şuranın katibi Hüseyn Hüseynov tərəfindən Milliləşdirilmiş “Dayanıqlı İnkişaf Məqsədləri”nə (DİM) əlavə edilməsi nəzərdə tutulan 18-ci DİM (minatəmizləmə ilə bağlı fəaliyyətlər) layihəsinin təqdimatı” edilib. O, həmin tapşırığın icrası məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən 5 hədəf və 14 göstəricidən ibarət milli 18-ci DİM layihəsinin hazırlandığını, habelə 2023-cü il üzrə DİM-lərin maarifləndirilməsi istiqamətində həyata keçiriləcək tədbirlər üzrə Fəaliyyət Planına Minatəmizləmə ilə bağlı fəaliyyətləri özündə ehtiva edən 18-ci Dayanıqlı İnkişaf Məqsədinin milli və qlobal səviyyədə təşviqi ilə bağlı iki tədbirin daxil edildiyini bildirib.

İclasın yekununda Milliləşdirilmiş Dayanıqlı İnkişaf Məqsədlərinə əlavə edilməsi nəzərdə tutulan 18-ci DİM layihəsi müzakirə edilib. Layihə üzrə müəyyənləşdirilmiş 14 göstəricinin metodologiyasının hazırlanması və göstəricilərinin hesablanması, o cümlədən ölkədaxili və qlobal səviyyədə təşviqatın aparılması ilə bağlı müvafiq tapşırıqlar verilib.

*Qəzənfər QASIMOV,*
*“Xalq qəzeti”*

*Ekoaksiyanın gündəliyi*

# Ekoaksiyaçılar: qaçaqmalçılıq yolverilməzdir



**Azərbaycanlı könüllü gənclər və ekofəalların Laçın-Xankəndi yolunda dinc etiraz aksiyası 128 gündür davam edir. Tədbir iştirakçılarının tələbi qarşı tərəfə, eləcə də bütün dünyaya yaxşı bəllidir: aksiyaçılar ölkəmizin faydalı qazıntı yataqlarının qanunsuz istismarına son qoyulmasını tələb edirlər.**

Ekofəalların digər bir tələbi isə “Qızılbulaq” və “Dəmirli” yataqlarında monitorinqin keçirilməsi üçün uyğun şəraitin yaradılmasıdır. Bu yataqların qeyri-leqal istismarı mövcud qanunlara ziddir və buna görə də yolverilməzdir. Bəli, reallıq budur ki, ekoaksiyaçıların tələbləri ədalətli və qanunidir.

İrəli sürülən tələblər müstəqil Azərbaycanda formalaşmış azad, sivil və demokratik vətəndaş cəmiyyətinin sosial və siyasi sifarişidir və beynəlxalq hüquqa əsaslanır. Rusiya sülhməramlıları 10 noyabrda imzalanmış üçtərəfli Bəyanata uyğun olaraq bu tələbləri yerinə yetirməyə borcludurlar.

Lakin hələlik onlar bundan min bir bəhanə ilə imtina edirlər. Bəzi xarici qüvvələr də bölgədə vəziyyəti qarışdırmağa çalışırlar. Ancaq unudurlar ki, Azərbaycan dövləti və xalqı ölkə ərazisində qanunun pozulmasına heç bir halda imkan verməyəcək.

Ərazidə məskunlaşan bəzi erməni təşkilatları Laçın-Xankəndi yolundakı kütləvi aksiyaların guya dinc əhaliyə qarşı təşkil olunduğunu iddia edirlər və hətta bu barədə yerli və qlobal mediada saxta, qərəzli məlumatlar yerləşdirməyə cəhd edirlər. Onların əsassız iddialarına indi çox az adam inanır. Hər kəs yaxşı bilir ki, aksiya iştirakçıları qanunazidd heç bir hərəkətə yol vermir, üstəlik bəşəri, humanist prinsiplərdən çıxış edərək humanitar məqsədlərlə hərəkət edən nəqliyyat vasitələrinə maneəçilik törətmirlər. Bunu aprelin 18-də gün ərzində yoldan ötən maşınların sayı da bir daha təsdiq edir. Dünən gecə saat 22.00 radələrinə qədər hər iki istiqamətdə 77 avtomobil və yük maşını keçib.

İki gün qabaq könüllü olaraq ekofəalların sıralarında olmuş həmkarım, “Xocalının səsi” qəzetinin baş redaktoru Qalib Bəyməmmədoğlu bizimlə telefon söhbətində dedi ki, tədbir iştirakçıları ilk günlərdə olduğu kimi, hələ də yüksək fəallıq nümayiş etdirirlər. Onlar qəti surətdə tələb edirlər ki, doğma Qarabağın bütün guşələrində Azərbaycan dövlətinin qanunlarına zidd əməllərə yol verilməsin. Azərbaycanın təbii sərvətləri xalqımıza məxsusdur.

**Qalib müəllim sonra bunları bildirdi:**

– Mən artıq bir neçə dəfə könüllü olaraq kütləvi aksiyaların iştirakçısı olmuşam. Burada çox təsirli hadisələrin şahidi olmuşam. Lakin hər dəfə ən çox sübh tezdən Azərbaycanın Dövlət Himni səsləndiriləndə təsirlənmişəm.

Yeri gəlmişkən, ekoaksiyaçılar dünən də öz yeni “iş günləri”nə Azərbaycan himninin möhtəşəm sədaları altında başlayıblar. Bu gözəl və ecazkar musiqi ürəkləri riqqətə gətirir, gənc və alovlu qəlblərdə Vətən və torpaq sevgisini daha da gücləndirir.

Aksiya iştirakçıları sonra ekoloji terrorun dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində plakatlar qaldırıblar, “Azərbaycan milləti qoruyacaq sərvəti!”, “Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!”, “Azərbaycan vahiddir, sərvətinə sahibdir!”, “Ekocinayətə son!” kimi şüarlar səsləndiriblər.

Bəzi ermənipərəst qüvvələrə xidmət edən informasiya saytlarının yazdığının tam əksinə olaraq, həmişəki kimi, ekoaksiyanın keçirildiyi ərazidə humanitar məqsədlərlə istifadə olunan avtomobillərin sərbəst keçidi üçün heç bir maneə yoxdur.

*M.HACIXANLI,*
*“Xalq qəzeti”*

# Pakistanda ümummilli liderin 100 illiyinə 100 ağac



**Azərbaycanın Pakistandakı səfirliyi İslamabad şəhəri icra hakimiyyəti ilə birgə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə paytaxt parkında ağacəkmə aksiyası keçirib.**

Tədbirdə Pakistanın dövlətlər və sərhəd regionları üzrə federal naziri Məhəmməd Talha Mahmud, şəhər icra hakimiyyətinin başçısı Nur Ul Amin Menqal, xarici ölkələrin səfirləri, ictimaiyyət nümayəndələri və Azərbaycanın Pakistandakı səfirliyinin kollektivi iştirak ediblər.

Səfir Xəzər Fərhadov müasir Azərbaycan Respublikasının banisi Heydər Əliyevin zəngin həyat yolu, böyük siyasi iradəsi və Azərbaycanın müstəqilliyi və inkişafı naminə gördüyü böyük işlər barədə məlumatları iştirakçıların diqqətinə çatdırıb.

Aksiyada ümummilli liderin 100 illik yubileyi münasibətilə 100 ağac əkilib.

*Qulu KƏNGƏRLİ*

**İslamabad**

# Paşinyanın anti-Azərbaycan ritorikası davam edir

## İrəvan sülh istəmədiyini bir daha təsdiqləyir

**Ermənistan Azərbaycana qarşı qərəzindən, Qarabağ avantürasından əl çəkmir, ümumən, sülhə gəlmək istəmir. Ölkə hökuməti hesabatının ayrı-ayrı müddəaları da bunu təsdiqləməkdədir.**

Baş nazir Nikol Paşinyan hökumətinin 2022-ci il üçün proqramının icrasına dair hesabatında Azərbaycanla danışıqlar prosesinin istiqamətləri sadalanır ki, burada gündəmi təşkil edən normallaşma, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, humanitar məsələlər kimi artıq şablona çevrilmiş məqamlarla yanaşı, Qarabağ münaqişəsinin həllinin vacibliyi vurğulanıb. Sual olunur: məgər münaqişə həllini tapmayıb?

Azərbaycanın mövqeyi belədir ki, Qarabağ münaqişəsi ölkəmizin 44 günlük müharibədəki Zəfəri ilə həll olunub. Yəni, ölkəmiz güc yolu ilə problemin aradan qalxmasına nail olub. Ancaq İrəvan Qarabağ erməniləri ilə bağlı məsələni qabartmaqla, sanki, reallığı inkar yolu tutur, ən pisi isə budur ki, Xankəndi-Bakı dialoqu kimi səfeh məntiqi ortaya atır.

Məlumdur ki, Qarabağ ermənilərinin hüquq və azadlığı məsələsi Azərbaycanın daxili işidir və dövlətimiz respublikamızda yaşayan digər azsaylı xalqlar kimi, erməni əhalisinin də hüquq və azadlıqlarına təminat verir. Bakı dəfələrlə bununla bağlı niyyətini ortaya qoyub. Ancaq fakt budur ki, Qarabağ ermənilərinin reinteqrasiyasına əngəl törədən, mövcud istiqamətlərdəki təkliflərə reaksiya verməyən, çağırışlara məhəl qoymayan rəsmi İrəvan və onun dəstəklədiyi Qarabağdakı separatçı rejimdir.

Azərbaycan və Ermənistan liderlərinin, eləcə də müxtəlif səviyyəli rəsmilərin təmaslarının statistikasının əksini tapdığı hesabatda Bakı ilə Xankəndi arasında beynəlxalq müzakirə mexanizminin formalaşmasının zəruriliyi kimi avantürist baxışa söykənilir, mövcud xüsusda Qarabağ ermənilərinin təhlükəsizliyi və hüquqlarının həlli üçün xaricdən veriləcək zəmanətdən danışılır. Bu isə ölkəmiz üçün qəbuledilməzdir. Heç bir halda Qarabağ erməniləri ilə bağlı məqam Azərbaycanla Ermənistan arasındakı sülh müqaviləsində yer ala bilməz. Habelə hansısa digər tərəfin mövcud istiqamətdə zəmanət tərəfi kimi çıxış etməsi mümkünsüzdür. Hər halda dövlətimizin mövqeyi bundan ibarətdir və dəfələrlə də açıqlanıb.

Azərbaycan və Ermənistanın BMT Nizamnaməsinin müddəalarına və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq, bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıdıqlarının vurğulandığı hesabatda qeyd olunur ki, Bakı, guya, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 8-ci bəndinə zidd olaraq, Ermənistan vətəndaşlarını əsirlikdə saxlayıb. Ancaq belə deyil. Çünki həmin şəxslər sərhədi qeyri-qanuni keçiblər, ən əsası isə Azərbaycan ərazisində təxribat törətmək niyyəti güdüblər, faktiki olaraq, cinayətkar fəaliyyət gerçəkləşdirməyə cəhd göstəriblər. Yəni Azərbaycan hərbçiləri kimi, yolu azıb Ermənistan tərəfə keçməyiblər. Halbuki, İrəvanın əsgərlərimizi cinayətkar kimi qələmə verdiyi göz önündədir. Nəzərə alaq ki, hesabatda istinad edilən üçtərəfli Bəyanatın müddəaları məhz İrəvan tərəfindən yerinə yetirilmir. Qarabağda qeyri-qanuni erməni hərbi birləşmələri qalır.

Ermənistanın Avropa İnsan Hüquqları Məhkəməsinə Azərbaycana qarşı dörd iddiasından söz açılmış hesabatda, konkret olaraq, irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı Beynəlxalq Ədalət Məhkəməsinə ünvanlanmış şikayət üzərində dayanılıb. Təsəvvür edin ki, Paşinyan administrasiyası ermənilərin azərbaycanlılara qarşı bəslədikləri bütün qəzəb hislərini kağıza köçürərək, azərbaycanlıların ermənilərə nifrəti adı ilə məhkəmə müstəvisinə daşıyıb. Həyasızlıq olar, ta bu qədəri yox!

Guya, Azərbaycanda ermənifobiya mövcuddur. Tarix boyu türklərdən qorxan və qorxduqları üçün də mənfur xislətlərinin diktə etdiyi hər cür yaramazlıqlara yol verən ermənilər olublar. İndi də qorxduqları üçün yer qalmayıb üz tutmasınlar, durub Azərbaycanı ittiham edirlər! Tarixi saxtalaşdıran bunlardır, iddialarına bax ki, öz əməllərini üstümüzə yıxırlar. Etnik təmizləmə, deportasiya siyasəti yeridənlər ermənilər ola-ola, Paşinyanın hüquqşünasları ölkəmizin, guya, bunu reallaşdırdığını car çəkirlər.

Hesabatda Azərbaycan-Ermənistan münaqişəsinin nizamlanması fonunda Ermənistanın üzvü olduğu Kollektiv Təhlükəzilik Müqaviləsi Təşkilatından da narazılıq ifadə olunub. Bildirilib ki, qurum ötən ilin sentyabrında Azərbaycanın təcavüzünə göz yumub. "2022-ci il sentyabrın 13-də KTMT Kollektiv Təhlükəsizlik Şurasının növbədənkənar iclası keçirilib. Bundan sonra qurumun Birgə Qərargahının əməliyyat qrupu monitorinq aparmaq üçün Ermənistana gəlib. 2022-ci il noyabrın 23-də İrəvanda KTMT Kollektiv Təhlükəsizlik Şurasının iclası keçirilib və bu iclasda Ermənistan tərəfi Azərbaycanın Ermənistanın suveren ərazisinə təcavüzü ilə bağlı təşkilatdan proporsional reaksiyasının olmadığını vurğulayıb.

Ermənistan tərəfi qeyd edib ki, sessiya zamanı imzalanmaq üçün təqdim olunmuş "KTMT-nin Kollektiv Təhlükəsizlik Şurasının Bəyannaməsi" və "Ermənistana yardım göstərilməsi üzrə birgə tədbirlər haqqında" layihələrində Ermənistana qarşı təcavüzə aydın siyasi qiymət verilmir və təcavüzün nəticələrini aradan qaldırmaq üçün fəaliyyət göstərilmir" kimi fikirlərin yer aldığı hesabatda bir sıra KTMT üzvlərinin mövqelərinin qeyri-müəyyənliyi səbəbindən qurumun məsuliyyət sahəsinin aydınlaşdırılması zərurətinin yarandığı önə çəkilib.

Göründüyü kimi, Ermənistan hökumətinin hesabatı ölkənin anti-Azərbaycan mahiyyətini, mövcud xüsusda sülhdən yayınmaq cəhdlərini tamamilə vurğulamağa söykənmiş sənəddir. Bu yanaşma, heç şübhəsiz, konstruktiv deyil və problemlər yaradacaq.

*Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"*

Baxış bucağı

# Qarabağ məsələsi və reallıqla bağlı müəmmalı fikirlər

## Ermənistan baş nazirinin "Azərbaycan eyforiyadadır" mesajı nə deməkdir?

**"44 günlük Qarabağ müharibəsindən sonra Azərbaycan eyforiya içindədir və bundan da artığını əldə etməyə çalışır". Bunu dünən Ermənistan baş naziri Nikol Paşinyan ölkə parlamentindəki çıxışı zamanı deyib. Əlbəttə, Nikol yenə anti-Azərbaycan ritorikasını işə salıb. Yəni, həm də ilk baxışdan görünən budur. Görünən həm də odur ki, Paşinyan Ermənistanın, haqqında söz açdığı 44 günlük müharibənin yekunlarına əsasən, üzərinə götürdüyü öhdəlikləri unudur və onlara riayət edilməsinin vacibliyini bir kənara qoyur, yeni reallıqlar formalaşdırmağa çalışır.**

Ancaq, gəlin, onun söylədiklərinə başqa rakursdan yanaşaq. Paşinyan çıxışında, bütövlükdə, erməni cəmiyyətinin xəstə təxəyyülünə qarşı alternativ yol irəli sürür və müəyyən mənada subliminal mesaj verməklə, ölkənin ayrı-ayrı revanşist dairələrini ayıltmaq yolunu tutur. Nikolun təbirincə desək, Azərbaycan artığına nail olmaq istəyirsə, deməli, onun bu gün istədiyini verib məsələni bağlamaq lazımdır.

Qeyd edək ki, Nikol oxşar taktikadan əvvəllər də istifadə edib, lakin xəstə cəmiyyət adekvat reaksiya verməyib, onu satqınlıqda, xəyanətdə günahlandırıb. Paşinyan isə təpkidən qorxaraq, cəmiyyətdən gələn ambisioz çağırışları hansısa formada reallığa çevirməyə çalışıb. Buna nail olmağı bacarmayıb. Nəticə isə göz önündədir. İrəvan Azərbaycanla sülh prosesini dalana dirəmiş ampluadadır.

Bəli, Nikol çıxışında subliminal mesaj verir. Onun sözlərinə görə, beynəlxalq vəziyyət Azərbaycanın daha artığına nail olmasına imkan yaradır: "Çünki Azərbaycan enerji və ya logistika kəsişməsinə çevrilib və onun həm Rusiya, həm də Qərb ölkələri üçün əhəmiyyəti artıb".

Öz aramızdır, Paşinyan ölkəsindəki əbləhləri yola gətirmək üçün başqa nə deməlidir ki? Hər şeyi açıqlayır. Bir daha bildirək ki, belə görünür. O, dildə anti-Azərbaycan motivə köklənən şablonları ilə, başlıca olaraq, daxili ictimai rəyi yumşaltmaq yolunu tutur. Bunu Bakı ilə rəqabətin mənasızlığı eyhamını da vurmaqla edir.

Paşinyan onu da bildirir ki, ölkəsi Azərbaycanla tezliklə sülhə gəlməyə, ürəkdən çalışır. Onun sözlərinə görə, hər iki dövlət qarşılıqlı olaraq ərazi bütövlüyünü tanıyarsa və bir-birinə ərazi iddiaları irəli sürməməyi öhdəsinə götürərsə, sülh müqaviləsinin imzalanması reallaşacaq. Nikol bu baxımdan Soçidə və Praqada Azərbaycan Prezidenti ilə əldə etdiyi razılaşmaları da yada salır: "Mən təsdiq etmək istəyirəm ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır və biz Ermənistan SSR-in bütün ərazisini Ermənistan Respublikası kimi tanımaqla, Azərbaycanın da eyni addımı atmasını gözləyirik".

Bu yerdə Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin martında Novruz bayramı münasibətilə xalqa müraciətindəki bir məqamı xatırlayaq: "Ermənistanın 29 min kvadratkilometr ərazidə rahat yaşaması üçün bir şərt var – bizim şərtlərimizi qəbul etməlidir, rəsmən Qarabağı Azərbaycan ərazisi kimi tanımalıdır, bizimlə sülh müqaviləsi imzalamalıdır, bizim şərtlərə əsasən, delimitasiya işlərini aparmalıdır".

Göründüyü kimi, Azərbaycan Prezidentinin söylədikləri kifayət qədər sadə məntiqə əsaslanır. Ancaq Ermənistan hökumətinin bir neçə gün öncə açıqlanmış hesabatında Qarabağ ermənilərinin hüquq və azadlıqları, Xankəndi-Bakı dialoqunun beynəlxalq mexanizmləri kimi sərsəm fikirlər yer almaqdadır. Belə olan halda sual yaranır: Paşinyanın Ermənistan hökumətinə dəxli yoxdur?

Var! Nikol dünənki çıxışında münasibətlərdəki ziddiyyətli məqamların üzərinə gəlməsi ilə də diqqət çəkməkdədir. Nəzərə alaq ki, çətinlik, eyni zamanda, dövlətimizin başçısının Qarabağın Azərbaycan ərazisi kimi rəsmən tanınmasının vacibliyini bildirməsinin qarşı tərəfdə yetərincə dərk edilməməsi ilə əlaqədardır. Paşinyanın sözlərinə görə, İrəvan təklif edir ki, Ermənistan və Azərbaycan SSR-in Sovet İttifaqında tərtib edilmiş xəritələri ölkələrin ərazi bütövlüyünün əsası kimi gələcək sülh müqaviləsinə əlavə olunsun: "Lakin burada ən çətin məsələ Dağlıq Qarabağdır", – deyən Nikol bildirir ki, Qarabağ münaqişəsinin bütün dövrü ərzində öz müqəddəratını təyinetmə hüququ və ərazi bütövlüyü prinsipləri "yan-yana dayanıb".

Ermənistan baş naziri, əslində, agah edir ki, hazırkı şəraitdə Qarabağ ermənilərinin öz müqəddəratını təyinetmə hüququndan danışmaq mənasızdır. Həm də ona görə ki, dünya Ermənistanı 29 min kvadratkilometr ərazidə tanıyır. "Əgər siz öz müqəddəratını təyinetmə məsələsini qaldırırsınızsa, bu, "ərazinin bir hissəsini" nəzərdə tutur", –deyən Paşinyan vaxtilə "qəbuledilməz fəlsəfə" ortaya qoyulduğunu, nəticədə həm erməni cəmiyyətinin və dövlətinin, həm də Qarabağ ermənilərinin aldadıldığına diqqət çəkir. Təsadüfi deyil ki, o, Ermənistana və regiona sülhün 29 min kvadratkilometr ərazi ilə kifayətləniləcəyi təqdirdə gələcəyini vurğulayır. Nikolun sözlərinə görə, məhz bu ərazi Ermənistanındır və bunun qəbul edilməsi ölkənin heç bir ölkəyə ərazi iddiasının olmadığının təsdiqidir. Əgər bu olmasa, Paşinyan hesab edir ki, o zaman Ermənistanın inkişafına heç kim imkan verməyəcək. Çünki sülhə nail olmaq dörd qonşu dövlətlə normal münasibət qurmaq lazımdır. Erməni baş nazir qeyd edib ki, Gürcüstan və İran məsələsində problem yoxdur. Əgər söhbət əməkdaşlığın daha da dərinləşdirilməsindən gedirsə, Türkiyə və Azərbaycanla münasibətlər də normallaşdırılmalıdır.

Deməli, başlıca məqam Ermənistanın Türkiyə və Azərbaycanla münasibətlərinin normallaşmasıdır. Ancaq belə təəssürat yaranır ki, bunu Ermənistan cəmiyyətində Paşinyandan başqa heç kəs anlamaq istəmir. Digər tərəfdən, Nikolun özünün də sabit xarakteri yoxdur. O, reallıqları kifayət qədər görsə də, kənar təsirlərin nəticəsində qətiyyətli mövqe tuta bilmir. Elə bunun özü də Ermənistan üçün növbəti iflas perspektivini doğuran kifayət qədər ciddi səbəbdir.

*Əvəz CAHANGİROĞLU, "Xalq qəzeti"*



# Qərbi Azərbaycandakı anklavlarımız: Tarixi xəyanətin izi ilə...

**44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan işğaldakı bütün torpaqlarını azad etsə də, bu gün Ermənistanda bizə məxsus anklavların olduğu heç kimə sirr deyil. Söhbət hazırda Ermənistanın nəzarəti altında olan 8 kənddən gedir. Bunlar: Bağanis-Ayrım, Xeyrimli, Aşağı Əskipara, Yuxarı Əskipara, Barxudarlı, Sofulu, Qızılhacılı və Kərki kəndləridir.**

Bəs bu kəndlər Ermənistanın nəzarətinə necə, hansı tarixi şəraitdə keçib? Necə olub ki, bütün sakinləri azərbaycanlılardan ibarət olan kəndlərin taleyi hələ də müzakirə mövzusudur?

### Sovet hakimiyyətinin Azərbaycana xəyanəti

Qeyd edək ki, sözügedən kəndlərin əksəriyyəti hələ sovet dönəmində Azərbaycandan alınaraq, Ermənistanın idarəçiliyinə verilib. Lakin maraqlıdır ki, tarixi Azərbaycan torpaqlarının Ermənistana verilməsi ilə bağlı heç bir rəsmi sənəd tərtib olunmayıb. Başqa sözlə desək, bu kəndlər sovet hakimiyyəti tərəfindən Ermənistana şifahi olaraq, yersiz arqumentlər əsasında verilib. Sovet hakimiyyəti Azərbaycan xalqına xəyanət edib. Nəticədə, azərbaycanlıların hələ sovet dönəmində bu kəndlərdən sıxışdırılıb çıxarılması prosesi başlanıb. Ancaq ermənilərin bütün səylərinə baxmayaraq, sovet rəhbərliyi ilə Ermənistan hakimiyyəti arasındakı gizli razılaşmalar əsasında İrəvana verilən bu kəndlərdən soydaşlarımızın çıxarılması elə də asan olmayıb. Ermənilərin bütün təzyiqlərinə rəğmən xalqımız öz tarixi yurdlarında yaşamaqda, bu torpaqlarda öz mövcudluğunu qorumaqda davam ediblər.

Azərbaycanlıların öz doğma torpaqlarını tərk etmədiyini görən ermənilər məqsədlərinə çatmaq üçün bu dəfə də soyqırımına və cinayətə əl atıblar. 1990-cı il martın 24-də haylar Bağanis-Ayrım kəndində dəhşətli soyqırımlardan birini törədib. Kəndə hücum zamanı insanları diri-diri alovların içinə atan ermənilər beşikdəki körpələri belə xüsusi amansızlıqla qətlə yetiriblər. 1990-cı il yanvar 15-də – Bağanis-Ayrım qırğınından iki ay öncə isə Kərki kəndi ermənilər tərəfindən zəbt olunub.

Xalqımıza qarşı işğal siyasətini davam etdirən ermənilər 1992-ci il martın 8-də Xeyrimli, martın 12-də Aşağı Əskipara, aprelin 27-də Barxudarlı və Sofulu, mayın 11-də Qızılhacılı, iyunun 8-də isə Yuxarı Əskipara kəndlərini işğal edib. Bu kəndlərin hər biri hərbi güc Ermənistana ilhaq edilib.

### İnsan səsinə həsrət kəndlər...

Səkkiz kəndi silah yolu ilə ələ keçirən və burada yaşayan azərbaycanlılara divan tutan ermənilər, sonrakı dönəmdə bu kəndlərdə heç bir məskunlaşma aparmayıb. Heç kimin yaşamadığı, heç bir abadlıq işinin görülmədiyi yaşayış məskənlərinin hər biri bəlli müddətdən sonra sıradan çıxmağa, baxımsızlıqdan dağılmağa başlayıb. Bu gün də Ermənistanın faktiki nəzarətində olmasına baxmayaraq, həmin kəndlərdə bir nəfər də olsun erməni yaşamır. Bu faktın özü, Ermənistanı həmin kəndlərlə tarixi-mənəvi və ruhi baxımdan heç nəyin bağlamadığını, İrəvanın onları nəzarətdə saxlamaqla işğalçılıq siyasətini davam etdirdiyini göstərir.

Xatırladaq ki, Ermənistan 30 il ərzində işğalda saxladığı Qarabağ və ətraf ərazilərdə də heç bir məskunlaşma aparmayıb, əksinə, bu yerlərdəki bütün obyektləri qarət edərək yaşayış üçün mümkünsüz hala gətirib.

### Kəndləri qaytarmamaq üçün səslənən bəhanələr

Azərbaycan Ermənistandakı anklavlarının qaytarılması məsələsini dəfələrlə gündəmə gətirsə də, İrəvan müxtəlif bəhanələrlə bu kəndləri azad etməkdən boyun qaçırmağa çalışır.

Bu, məsələyə yanaşmada Ermənistanda iki fərqli qütb mövcuddur. Bunlardan biri həmin kəndlərin tarixi Ermənistan ərazisi olduğunu iddia edən kəsimdir ki, onların Azərbaycana qaytarılmasını tamamilə yolverilməz hesab edir. Digər qütb isə məlum kəndləri Azərbaycana qaytarmağın Ermənistan üçün ciddi təhlükəsizlik problemi yarada biləcəyini iddia edir, bununla yanaşı, onların qaytarılmasını ümumilikdə mümkünsüz hesab etmirlər. Mövcud kəsimin təmsilçiləri iddia edirlər ki, əgər Ermənistandakı Azərbaycan anklavları Bakıya qaytarılarsa, o zaman bir sıra erməni yaşayış məntəqələri Azərbaycan Ordusunun tam nəzarətinə düşəcək. Bundan başqa, anklavlar qaytarılacağı təqdirdə bu gün ermənilərin istifadəsində olan nəhəng örüş sahələri, habelə kənd təsərrüfatına yararlı torpaqların da itiriləcəyi iddia olunur.

Başqa sözlə desək, Ermənistandakı Azərbaycan anklavlarının qaytarılmasının ermənilər üçün həm təhlükəsizlik, həm də sosial baxımdan ciddi problemlərə yol açacağı bildirilir. Məhz bu iki amildən çıxış edən erməni siyasətçiləri həmin anklavların Azərbaycana qaytarılmasının "riskli" olduğu qənaətindədir: "Bu kəndlər Azərbaycana yalnız o halda verilə bilər ki, "Azərbaycandakı erməni anklavı" da İrəvana qaytarılmış olsun. "Azərbaycandakı erməni anklavı" dedikdə erməni politolqoları öz dillərində Artsvaşen adlandırdıqları kəndi nəzərdə tutur ki, ölkəmizdə bu kənd Başkənd adı ilə məlumdur və Gədəbəy rayonu ərazisindədir. Ermənistanın məsələni bu şəkildə qoyması müharibəni uduzmuş terror dövlətinin bu gün də ölkəmizə qarşı ərazi iddiasında olduğunu, xam xəyalların arxasınca düşdüyünü göstərir.




### Ən böyük anklav Ermənistanın özüdür

2020-ci ilin 44 günlük Vətən müharibəsindən sonra anklavlar məsələsi yenidən, daha əhatəli şəkildə gündəmə gəlib ki, bu da rəsmi Bakının prinsipal mövqeyi ilə bağlıdır. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, bir qarış torpağının belə Ermənistan işğalı altında qalması ilə barışmayacaq və həmin ərazilərin geri qaytarılmasına nail olacaq.

44 günlük Vətən müharibəsindən sonra "dəmir yumruğun" nəyə qadir olduğunu yaxşı anlayan ermənilər Azərbaycanın gec-tez anklavlar məsələsində də istəyinə nail olacağını yaxşı başa düşür. Məhz elə bu səbədən də öncədən "Azərbaycanda erməni anklavı" kimi süni əngəllər yaratmağa, problemin həllini uzatmağa çalışırlar. Halbuki, Azərbaycanda heç bir erməni anklavının mövcud olmadığı tarixçilərə də, siyasətçilərə də yaxşı məlumdur.

Əslində, Azərbaycanın Hayastandakı ən böyük anklavı elə Ermənistanın özüdür. Çünki bu dövlət paytaxt İrəvan şəhəri daxil, bütövlükdə tarixi Azərbaycan torpaqları üzərində yaradılıb. Bu isə o deməkdir ki, Azərbaycan İrəvandan anklavlarını tam şəkildə tələb etsə, o zaman dünyadakı bütün ermənilər əvvəlki əsrlərdə olduğu kimi yenə vətənsiz qalacaqlar.

*Seymur ƏLİYEV, "Xalq qəzeti"*

# Baronessa Koksdan Xocalı soyqırımına növbəti anti-bəşəri yanaşma

## Britaniyalı parlamentari yenidən sərsəmləyib

**Qatı ermənipərəst mövqeyi ilə seçilən, Qarabağ işğalda olarkən ora səfərləri ilə diqqət çəkən, bununla da ölkəmizdə özünə münasibətdə böyük hiddət və qəzəb qazanmış Britaniya parlamentinin Lordlar Palatasının üzvü Baronesa Kerolayn Koks yenidən sərsəmləyib. Onun haqqında söz açdığı mövzu həssas olduğundan, azərbaycanlılar üçün ağrılı məsələyə qəddarcasına yanaşmanı ifadə etdiyindən, üzərində dayanmağı zəruri sayırıq. Beləliklə, Koks deyib ki, ermənilər 1992-ci ildə Xocalıya hücum barədə azərbaycanlıları xəbərdar edib, əhalinin təxliyəsinin vacibliyini bildiriblər. Yəni, təxminən belə: ərazini tərk edəydilər, qırılmayaydılar!**



Haşiyə çıxaq ki, aprelin 17-də Britaniya Parlamentinin Lordlar Palatasında Lord Flaytın Xocalı soyqırımı haqqında hökumətə ünvanlanmış şifahi müraciəti ilə bağlı qısa debat keçirilib. K.Koks ermənipərəst mövqeyini, məhz bu debat əsnasında ortaya qoyub.

Qeyd edək ki, Lord Flayt Britaniya hökumətinin Xocalı faciəsinə münasibətdə mövqeyini sorğu edib, başsağlığı mesajının verilməsindən əlavə də addımlar atmağa çağırıb. Debatda sualları hökumət adından Xarici işlər nazirinin müavini Lord Ahmad cavablandırıb.

Lord Ahmad 1992-ci ildə Xocalıda baş verənləri Azərbaycan tarixinin faciəvi epizodu kimi qəbul etdiklərini və Britaniya hökuməti tərəfindən baş verənlərin haqlı olaraq qınandığını vurğulayıb. O, ölkənin Bakıdakı səfirinin Xocalı qurbanlarının xatirəsinə ucaldılmış "Ana harayı" abidəsinə əklil qoymasını hökumətin başsağlığı mesajı kimi dəyərləndirib. Təbii, bunlar məqbul qiymətləndirilsə də, yetərli deyil.

***

B.Koks üçün Azərbaycanın ərazi bütövlüyü məsələsi heç nədir. Onun yarımçıq məntiqində Xocalı sakinlərinin nəyə görə öz dədə-baba yurdlarını tərk etməli olduqları sualı yoxdur. Ancaq onu da deyək ki, işğala haqq qazandıran britaniyalı parlamentarinin söylədiklərində həqiqət payı var. O anlamda ki, ümumən, Xocalı da daxil olmaqla, digər torpaqlarımızın işğalı öz təqsirimiz idi. Bu, konkret olaraq, ötən əsrin 90-cı illərinin əvvəllərində mövcud olmuş Azərbaycan hakimiyyətinin son dərəcə böyük təqsiri sayılmalıdır və sayılır. Həmin vaxt o hökumət ərazilərimizin müdafiəsinə laqeyd yanaşmışdı. Torpaqlarımız hakimiyyət uğrunda mübarizənin qurbanı olmuşdu. O cümlədən, qaçqın və məcburi köçkün həyatı yaşamaq məcburiyyətində qalmış bir milyona yaxın azərbaycanlı da daxili çəkişmələrin qurbanı kimi uzun illər məhrumiyyətlər içərisində ömür sürmüşdü.

Amma bütün bunlar B.Koksun Xocalıdakı qətliama haqq qazandırmaq, ona leqal don geyindirmək cəhdindəki dəhşəti, anti-bəşəri yanaşmanı ikinci plana keçirmir. Heyrət edirsən: necə ola bilər ki, Britaniya kimi qabaqcıl ölkənin parlamentində təmsil olunan şəxs, vəhşiliyə, insanların kütləvi şəkildə qətlinə soyuq münasibət göstərə bilir? Görünür, ermənipərəstlik erməni xislətinə xas vandalizmə bəraət qazandırmaq kimi murdar təbiətə də malikdir. O da görünür ki, Koks Xocalı cəlladları Serj Sarkisyanın, Zori Balayanın dinc azərbaycanlıların başına gətirdikləri olmazın işgəncə faktlarını etiraf etmələrini təbii sayır. Yəni, onun məntiqi ilə ermənilər Xocalıdan çıxmaq barədə xəbərdarlıq etmişdilərsə, çıxa bilməyənləri amansızlıqla qətlə yetirmək düzgün imiş. K.Koks məlum çıxışında həqiqətləri təhrif etmək yolu da tutur.

**Əvvəla,** Xocalıya hücumun baş verə biləcəyi kəşfiyyat materiallarına əsasən ehtimal olunsa da, burada ermənilər tərəfindən hər hansı xəbərdarlıq mahiyyəti daşıyan çağırış səslənməmişdi, vaxt verilməmişdi. Ermənistan, sonradan ölkə prezidenti olmuş Serj Sarkisyanın təbirincə desək, azərbaycanlılara göstərmək istəyib ki, zarafat etmirlər, qəddar davranmağı bacarırlar.

**İkincisi,** Xocalının işğalı suveren Azərbaycanın ərazisinə qəsddir. Əlbəttə, insanlarda qorxu və vahimə yaratmaq lazım idi ki, növbəti işğallar asan olsun. **Üçüncüsü,** dinc azərbaycanlılar, məhz, Xocalını tərk edərkən qətlə yetirilmişdilər. Onlar pusquya salınmışdılar. Ən əsası, erməni silahlıları əhalini qətlə yetirmək bir yana, onlara - uşaqlara, qocalara, qadınlara qarşı amansız davranmış, insanlıq tarixində rast gəlinməyən zülmlər yaşatmış, hətta meyitləri belə təhqir etmişdilər.

**Dördüncüsü,** 1990-cı illərdəki müharibə zamanı dəfələrlə Qarabağa səfər gerçəkləşdirdiyini, hadisələrə şahidlik etdiyini deyən Koks həqiqətləri təhrif edir. Bildirir ki, guya, həmin dövrdə azərbaycanlılar Xocalını qondarma rejimin paytaxtı kimi qələmə verdiyi Stepanakertə (Xankəndiyə - red.) raket atmaq üçün istifadə edirmişlər, şəhər ələ keçirilməsəydi, Xankəndi dağılardı.

K.Koksun çıxışındakı daha bir məqam da diqqətdən yayınmır. O, həm Xocalını tərk etmək üçün ermənilərin xəbərdarlıq etdiklərini bildirməklə, bir növ, dinc azərbaycanlılara qarşı qətliama haqq qazandırır, həm də ermənilərin qətliam kimi qiymətləndirdikləri Marağa hadisəsini yada salır. Yəni, "ermənilər qətl törədiblərsə, azərbaycanlılar da törədib" məntiqini işə salır. Deməli, Lord Flaydın qaldırdığı məsələyə "müxalifliyini" ortaya bu cür qoyur. Britaniya parlamentinin Lordlar Palatasındakı erməni sipəri "missiyasına" sadiqliyini göstərir.

***

Xatırladaq ki, Marağa hazırkı Tərtər rayonunun Şıxarx kəndindəki yerdir. Adın mənşəyi İranın Marağa şəhərindən götürülüb. Vaxtilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ağdərə rayonunun ərazisinə daxil olan bu kənd 1991-ci ildə rayonun ləğvindən sonra Tərtərin tərkibinə qatılıb.

Yeri gəlmişkən, ermənilər 1978-ci ildə Marağada abidə də ucaltmışdılar ki, həmin abidə onların İrandan əraziyə gəlmələrinin 150 illiyini vurğulayırdı və bu, Ermənistanın ermənilərin bölgənin qədim sakinləri olduğuna dair iddialarını puça çıxaran növbəti nümunədir. Hər halda, 150 il qədimlik göstəricisi sayıla bilməz. Tarixdən də yaxşı məlumdur ki, ermənilər İrandan və Suriyadan Azərbaycan ərazisinə 1828-ci ildə Rusiya-İran müharibəsinin yekunlarını təsdiqləyən Türkmənçay müqaviləsindən sonra köçürülüblər.

Beləliklə, Azərbaycan ordusunun bölmələri Şıxarxdan Tərtər şəhərinin mütəmadi atəşə tutulduğunu nəzərə alaraq, ora hücum etmişdilər. Hadisə 1992-ci il aprelin 10-da səhər saatlarında baş vermişdi. Günortaya yaxın kənd işğaldan azad edilmişdir. Ancaq ertəsi gün işğala məruz qalmışdır. Sözlərinə inansaq, görünür, Koks da məhz bu zaman Şıxarxda olub.

Lakin Azərbaycan qoşunları bir həftə sonra yenidən hücum edərək kəndi geri qaytarmışdılar, özü də birdəfəlik. Ermənistan tərəfinin iddialarına görə, guya, Şıxarx əməliyyatı əsnasında mülki şəxslər öldürülmüşdür ki, bu, Marağa qətliamıdır və azərbaycanlıların Xocalı soyqırımının qisasını aldıqlarının təsdiqidir. Halbuki yalnız miqyas baxımından da bunu doğru saymaq mümkünsüzdür. Xocalıda 613 dinc azərbaycanlı qətlə yetirilmişdi. Hələ yaralananlar və əsir götürülənlər də var. Marağada isə söhbət cəmi 50 nəfərdən gedir.

***

Bəli, indi B.Koks da erməni təbliğatından çıxış edərək, Xocalı ilə Marağanı eyniləşdirir. Halbuki, belə yanaşma yolverilməzdir. Ona görə ki, birincisi, əgər həqiqətən də həmin vaxt dinc ermənilər həlak olmuşdularsa, bu, hərbi əməliyyat gedişində yaşanmışdı. Yəni, Marağadan fərqli olaraq, Xocalı məqsədli şəkildə törədilmiş qəddarlıq aktı, soyqırımı idi. Digər tərəfdən, elə Koksun məntiqinə söykənsək, Marağada yaşananlara görə də günahkar qarşı tərəfdir, çünki erməni əhalisinin təxliyəsini düşünməyib. Üçüncüsü, Azərbaycan ərazisi olan Qarabağda erməni qoşunları nə gəzirdilər? Ölkəmizdə yaşayan mülki ermənilər tələf olublarsa, burada erməni avantürizminin rolu var. Necə ki, 1988-ci ildə həmin avantürizm Sumqayıtda işə salındı və dinc ermənilər qətlə yetirildilər.

Sonda onu da deyək ki, Koks kimi qatı ermənipərəstlərin nə çərənləməsindən asılı olmayaraq, Britaniya dövlətinin Xocalı faciəsinə yanaşması məlumdur. Lord Flaytın ölkə hökumətinə, əvvəldə haqqında söz açdığımız, şifahi müraciəti də onu deməyə əsas verir ki, Britaniyada vaxtilə azərbaycanlılara qarşı törədilmiş vandalizm aktına münasibətin daha dərin götürülməsini istəyən qüvvələr var və heç şübhəsiz, onların zamanla aktivləşəcəyini gözləmək mümkündür. Müvafiq olaraq, Koks kimi ermənipərəstlərin aktivliyi, necə deyərlər, süngü ilə qarşılamaları da proqnozlaşdırılandır. Ancaq bunun heç bir faydası yoxdur.

***Ə.RÜSTƏMOV,***
***"Xalq qəzeti"***

# Hayların bayraq təxribatı əks-effekt verdi

**Üçrəngli bayrağın kölgəsində mən**
**Qaraca torpağı Vətən görmüşəm.**
**Zəfər güllərini dövri-qədimdən**
**Bayraq işığında bitən görmüşəm.**
**Bayraq mənliyimdir, bayraq kimliyim,**
**Bayraq – öz yurduma öz hakimliyim.**



Yazımız üçün epiqraf kimi istifadə etdiyimiz bu misralar görkəmli şairimiz Bəxtiyar Vahabzadənin "Bayraq" şeirindəndir. Ölkəmiz XX əsrin sonlarında ikinci dəfə dövlət müstəqilliyini bərpa etdikdən sonra üçrəngli, ay-ulduzlu bayraq milli kimliyimizin simvollarından biri kimi, hər birimiz üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir. Xalqımızın tükənməz duyğularından biri, heç şübhəsiz, bayraq sevgisidir. Bu sevgi tarix boyunca Azərbaycan xalqının əziz tutduğu müqəddəs duyğu olub, böyük dəyərə çevrilib. Vətənin bütövlüyünü, xalqın müstəqilliyini ifadə edən bayraq əsrlər boyu azərbaycanlıların milli kimliyinin, dilinin, mədəniyyətinin, dini-mənəvi əxlaqının daşıyıcısı kimi dəyərləndirilib.

Üçrəngli bayrağımız 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Qələbənin əsas amillərindən biri idi. Həmin günlərdə ölkəmizin hər yerində mənzillər, dövlət binaları, ictimai iaşə obyektləri, avtomobillər bayrağımızla bəzədilmişdi. Qəhrəman hərbçilərimiz şəhər və kəndləri azad etdikdən sonra Ali Baş Komandana məruzələrini məhz üçrəngli bayrağımızın ucaldılması ilə, onun fonunda edirdilər.

Onu da qeyd edək ki, bayraq Azərbaycan xalqı üçün müstəsna dəyərə malikdir. Xalqımızda bayraq sevgisi əlahiddə bir hiss, duyğudur. Azərbaycan Bayrağı azərbaycanlılar üçün hər şeyin fövqündə dayanır. Ölkəmizin ən yüksək ordenlərindən birinin "Azərbaycan Bayrağı" adlandırılması da məhz bu sevginin təcəssümüdür. Azərbaycanlılar bağışlamağı bacaran xalqdır. Bir azərbaycanlı özünün təhqir olunmasını bağışlayar, ancaq bayrağın təhqir olunmasını bağışlamaz. Necə ki, 2004-cü ilin fevralında Azərbaycan Ordusunun zabiti Ramil Səfərov Budapeştdə Ermənistan silahlı qüvvələrinin zabiti Qurgen Markaryana bayrağımızı təhqir etməsini bağışlamadı.

***

Bugünlərdə bayrağımıza növbəti dəfə xain əllər uzandı. Aprelin 14-də İrəvandakı idman-konsert kompleksində ağır atletika üzrə Avropa çempionatının təntənəli açılış mərasimində Azərbaycan Bayrağı bayraqdarın əlindən alınaraq yandırıldı. Bayrağımızı Aram Nikolyan yandırdı, sonra onunla birlikdə səhnədən qaçdı. O, tədbirin təşkili ilə məşğul olub. Bu hadisədən sonra atletlərimizin yarışda iştirakdan imtina edərək Vətənə qayıtması bayrağımızın azərbaycanlılar üçün daşıdığı mənəvi önəmin daha bir ifadəsi oldu. Dünyanın idman ictimaiyyəti, idman federasiyaları, ayrı-ayrı ölkələrin ictimai-siyasi xadimləri, rəsmi şəxsləri baş vermiş hadisəni pisləyən bəyanatlarla çıxış etdilər.

***

Təbii ki, ən önəmli reaksiya Türkiyədən gəldi. Qardaş ölkə Prezidentinin baş müşaviri Yalçın Topçu İrəvanda Azərbaycan Bayrağının yandırılmasının bütün dünya qarşısında Ermənistanın əsl simasını bir daha ortaya çıxardığını bildirdi. "TurkicWorld"a açıqlama verən Yalçın Topçu dedi: "Ermənistan baş nazirinin və bir çox dövlət rəsmilərinin iştirak etdiyi idman yarışında qonaq ölkənin bayrağına qarşı bu cür iyrənc irqçi hərəkəti izləyən İrəvan hakimiyyətini şiddətlə qınayıram. Bu vəziyyət onu göstərdi ki, beynəlxalq idman yarışlarında iştirakçı ölkələrin təhlükəsizliyini təmin etməyən Ermənistan kimi ölkələrdə yarışların keçirilməsi qadağan edilməli və bu çirkin əmələ görə, təşkilatçı ölkənin dövlət məmurları cavab verməlidirlər".

Azərbaycanın haqlı davasına səssiz qalmayan rusiyalı jurnalist və hərbi ekspert, "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko da İrəvanda Azərbaycan Bayrağının yandırılmasına münasibət bildirib. Bu barədə o "Teleqram" kanalında paylaşım edib. "Ermənistan, həmişə olduğu kimi, öz amplualsındadır. Azərbaycandan ağır atletlərin də iştirak etdiyi Avropa çempionatının rəsmi açılış mərasimində Aram Nikolyan çirkin və alçaq hərəkət edib", – deyə o vurğulayıb.

İqor Korotçenko əlavə edib ki, İrəvanda baş verənlər milli nifrət və düşmənçiliyi qızışdırır.

***

Avropa Ağır Atletika Federasiyası İrəvanda Azərbaycan Bayrağının yandırılmasını qəti şəkildə pisləyib. Bu barədə federasiya bəyanat yayıb. Bəyanatda deyilib: "Avropa Ağır Atletika Federasiyası son dərəcə ciddi və təəssüf doğuran bu jesti idman dəyərlərinin bütövlüyünə və ədalətli oyunun universal prinsiplərinə dair hücum kimi nəzərdən keçirir. Avropa Ağır Atletika Federasiyası bu hadisəyə dərhal reaksiya verib, təşkilat komitəsinə mövqeyini bildirib. Federasiya daim Azərbaycan Respublikasından olan nümayəndə heyətinə, idmançılara, məşqçilərə və vəzifəli şəxslərə tam həmrəylik və dəstək ifadə edir".

***

Beynəlxalq İdman Mətbuatı Assosiasiyası (AIPS) öz qitə seksiyaları ilə birlikdə Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının (AİJA) yaydığı kəskin bəyanatı öz rəsmi saytlarının manşetinə çıxararaq dünyaya yayıb. Eyni zamanda, 167 ölkənin milli idman jurnalistləri təşkilatına və 20 minə yaxın AIPS üzvünün elektron ünvanına göndərib.

AİJA-dan bildiriblər ki, bəyanatda İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimi zamanı bayrağımıza qarşı törədilmiş barbarlıq aktı kəskin şəkildə pislənib.

Avropa İdman Mətbuatı İttifaqı (AIPS Europe) AİJA-nın bəyanatına sosial şəbəkələrdəki rəsmi səhifələrində geniş yer verməklə özü də bu hadisəni pisləyən bəyanatla çıxış edib.

***

Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı beynəlxalq idman yarışının açılışında Azərbaycan Bayrağına edilən hücumun qəbuledilməz olduğunu, olayı qınadıqlarını vurğulayıb. Həmçinin Benilüks Azərbaycanlıları Konqresinin və Niderland Krallığında fəaliyyət göstərən digər təşkilat və icma üzvləri aidiyyəti qurumlara bəyanat göndəriblər. Almaniyada fəaliyyət göstərən Heydər Əliyev adına Dünya Boks Komitəsi və Diaspor Boks Liqası Azərbaycan Bayrağının yandırılmasını kəskin şəkildə pisləyiblər.

Dünyanın aparıcı media orqanları da hadisəyə etinasız qalmayıb. Xarici mediada yer alan xəbərlərdə bu çirkin hadisə idman dəyərlərinin bütövlüyünə və ədalətli oyunun universal prinsiplərinə hücum kimi dəyərləndirilib.

***

Göründüyü kimi, Azərbaycan Bayrağının yandırılması kimi təxribatçı hərəkət hayların etnik dözümsüzlüyünün nümunəsi olmaqla onların özünə qarşı çevrilmiş oldu. Onlar bununla Azərbaycana nifrət hissi ilə yanaşdıqlarını ortaya qoydular. Düzdür, hayların arasında bu hadisəyə qarşı çıxanlar da tapılıb. Ancaq, bütövlükdə, erməni cəmiyyəti olaya haqq qazandırıb. Azərbaycan Bayrağının bütün dünyanın gözü önündə yandırılması hadisəsi ilə Ermənistanın siyasi və dövlət imicinə bundan böyük zərbə vurmaq mümkün deyildi. Bunu başqası yox, Ermənistanın öz vətəndaşı etdi. Bir təxribatla beynəlxalq qurumlar, xüsusən də siyasi institutlar bu ölkənin hansı xislətə malik olduğuna bir daha şahidlik etdilər.

***Səxavət HƏMİD, "Xalq qəzeti"***

*Ekspert rəyi*



**Fərhad MƏMMƏDOV,**
**politoloq**

– Görünən odur ki, ermənilər Azərbaycan Bayrağının yandırılması ilə nəticələnən insidentə görə üzr istəməyəcəklər. Əvvəla, bu təxribatı törədən şəxs saxlanıldıqdan sonra sərbəst buraxılıb. Çox maraqlıdır ki, onun hərəkətlərində cinayət tərkibi müəyyən etməyiblər.

İkincisi isə demək olar ki, sülh sazişi imzalanmadan, qarşılıqlı öhdəliklər götürülmədən ermənilərə və Ermənistana görə azərbaycanlılar, azərbaycanlılara və Azərbaycana görə isə ermənilər heç vaxt bir-birini ittiham etməyəcək. Biz bunu nəzərə almalıyıq. Yalnız sülh sazişi imzalandıqdan sonra bir-birinə qarşı edilən hörmətsizlik qınaq obyektinə çevriləcək. Çünki sülh sazişi elə böyük bir məfhumdur ki, onu şübhə altına almaq və qarşılıqlı təhqiramiz hərəkətlər etmək yenidən hər iki ölkəni münaqişə ilə üz-üzə qoya bilər.

# Azərbaycan – İsrail əməkdaşlığı sülhə və tərəqqiyə xidmət edir



***İsraildə səfirlik və Fələstində nümayəndəlik açılması haqqında qərar bizim milli maraqlarımıza əsaslanıb. Əminəm ki, bu qərar sülhün möhkəmlənməsi işinə xidmət edəcək və faktiki olaraq bu dövlətlərlə bizim uzunmüddətli, çox səmərəli əməkdaşlığımızın formallaşması deməkdir.***

**Prezident İlham Əliyevin "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən beynəlxalq konfransdakı çıxışından**

**Bakı, 25 noyabr 2022-ci il**

**Dost ölkənin kütləvi informasiya vasitələri xəbər verirlər ki, İsrail Xarici işlər naziri Eli Kohen aprelin 18-də Bakıya səfərə gəlib. Əlavə olunur ki, nazir Azərbaycan –İsrail hökumətlərarası komissiyasının iclasında iştirak edəcək. Elə həmin məlumatda o da bildirilir ki, bu ölkənin Prezidenti İshaq Hersoqun da may ayında Azərbaycana səfəri gözlənilir. Yəni otuz il davam edən siyasi-diplomatik münasibətlərimiz özünün ən yüksək səviyyəsinə çatmaqdadır.**

Xatırladaq ki, cənab Eli Kohenin Azərbaycan səfəri İsrail–Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin Turizm naziri Yoel Razvozovun ölkəmizə səfərinin tam bir illiyinə təsadüf edir. Belə ki, ötən ilin bu günlərində israilli naziri qəbul edən dövlət başçımız vurğulamışdı ki, İsraildə Azərbaycan ticarət nümayəndəliyinin fəaliyyət göstərməsinin və Turizm Mərkəzinin açılmasının bizim üçün böyük önəmi var. Prezident həyata keçirilən qarşılıqlı səfərlərin də əlaqələrimizin inkişafına töhfə verdiyini bildirmişdi.

Məlum olduğu kimi, ölkələrarası əməkdaşlığın artmasına iqtisadi sferadakı əlaqələr daha böyük töhfələr verir. Üstəlik, İsrail şirkətləri işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində fəal iştirak edirlər və bu bizdə məmnunluq yaradır. Elə hərbi-texniki sahədə də ölkələrimiz arasında uzun illərdir uğurlu əməkdaşlıq davam etdirilir. Bu əməkdaşlığın inkişafında həm Azərbaycanda, həm də İsraildə fəaliyyət göstərən diaspor təşkilatlarının rolu böyükdür. Xalqlarımızın nümayəndələri əsrlər boyu birgə dostluq şəraitində yaşamışlar. Yəhudi icması üzvlərinin birinci və ikinci Ermənistan –Azərbaycan müharibələrində iştirak etmələri, şücaət göstərmələri ölkəmizdə ehtiramla qeyd olunur.

Xatırladaq ki, Azərbaycanla İsrail Dövləti arasında ikitərəfli münasibətlər 1991-ci il dekabrın 25-də yaranıb. Həmin tarixdə İsrail Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımışdır. İki ölkə arasındakı diplomatik münasibətlər isə 1992-ci il aprelin 7-də qurulmuşdur. Dövlət başçımızın 2016-cı il yanvarın 21-də İsveçrədə keçirilən Davos İqtisadi Forumu çərçivəsində İsrail Dövlətinin Baş naziri cənab Benyamin Netanyahu ilə keçirdiyi görüş əməkdaşlığın genişləndirilməsinə stimul olmuşdur. Həmin il dekabrın 13-də isə İsrail Dövlətinin Baş naziri cənab Benyamin Netanyahu Azərbaycan Respublikasında işgüzar səfərdə olmuşdur.

Təmaslar sonrakı dövrdə daha da intensivləşmiş və əlaqələr tərəflərin arzuladığı səviyyəyə qaldırılmışdır. Nəticədə ölkəmizdə yəhudilərin iyirmiyə yaxın ictimai-mədəni və xeyriyyə təşkilatı fəaliyyət göstərir. Respublika səviyyəsində "Yəhudi evi", "Azərbaycan-İsrail" Cəmiyyəti, Azərbaycan Yəhudi Qadınlar Assosiasiyası, "Yəhudi Mədəniyyət Mərkəzi", "Soxnut" Beynəlxalq Yəhudi Təşkilatının Azərbaycan bölməsi və digərlərini buna misal göstərmək olar.

Əməkdaşlığın müqavilə-hüquq bazasına gəlincə isə xatırlatmalıyıq ki, Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında iyirmiyə yaxın sənəd imzalanmışdır.

Ekspertlərin fikrincə, Azərbaycanın İsraillə olan yaxın münasibəti yalnız Azərbaycan –İsrail arasında yox, regiondakı digər ölkələrlə də siyasi-iqtisadi əlaqələrin genişləndirilməsinə və inkişaf etdirilməsinə rəvac verəcək. Azərbaycanla İsrail arasında münasibətlərin genişləndirilməsi məsələsində isə Təl-Əvivdə açılan səfirliyimizin xüsusi rolu olacaq.

Mətbuat yazır ki, Azərbaycanın İsraillə hərbi əməkdaşlığı 44 günlük müharibədə Qələbə qazanmağımızın mühüm səbəblərindən biridir. Məlum olduğu kimi, Azərbaycan tolerant ölkədir. Burada yəhudilər azərbaycanlılarla eyni hüquqlara malikdirlər. Hazırda Bakı şəhərində yəhudilərin 3 sinaqoqu mövcuddur. Azərbaycanda yəhudilərə həmişə yaxşı münasibət bəslənib və burada heç zaman antisemitizm halları olmayıb.

Hər iki ölkəni yaxınlaşdıran daha bir amil isə Azərbaycanda yəhudi diasporunun və İsraildə Azərbaycandan getmiş 80 mindən artıq yəhudinin yaşamasıdır. Buna görə də İsrail dövlətinin Azərbaycanla əməkdaşlıqda maraqlı olmasını təkcə bu ölkənin zəngin enerji resursları, strateji geosiyasi vəziyyəti, sırf iqtisadi-siyasi amillərlə bağlamaq düzgün deyil. İki ölkə arasında əməkdaşlıq, tarixən mövcud olmuş, bu əlaqələrin kökündə insani dəyərlər, milli-dini tolerantlıq, qarşılıqlı anlaşma olub.

Xüsusilə vurğulanmalı məqamlardan biri də budur ki, tərəflərin hər ikisi bu əməkdaşlığın qorunmasında və inkişaf etdirilməsində maraqlıdır. Təbii ki, münasibətlərin bu səviyyəyə çatması təkcə Azərbaycanın cəhdləri nəticəsində mümkün olmazdı. Necə ki, regiondakı bəzi dövlətlərlə səmimi əməkdaşlıq və dostluq etmək səylərimiz cavabsız qalır. İsrail rəhbərliyi isə öz xalqının və dövlətinin maraqlarına cavab verən heç bir təklifi cavabsız qoymur.

Biz inanırıq ki, Təl-Əvivdən gələn növbəti rəsmi nümayəndənin səfəri əməkdaşlığımızın daha da dərinləşdirilməsinə öz töhfəsini verəcəkdir.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Paşinyan: "Dağlıq Qarabağ xalqı" anlayışı yoxdur

**Hayastanın baş naziri bu sözləri hökumətin 2021-2026-cı illər üzrə proqramının 2022-ci ildə icrası və nəticələri barədə parlamentin növbədənkənar iclasında hesabat məruzəsində deyib.**

Ermənistan hökumətinə yaxınlığı ilə seçilən "armenpress" agentliyinin yaydığı məlumata görə, baş nazir Nikol Paşinyan Milli Assambleyanın növbədənkənar iclasında çıxışı zamanı ötən ilin iqtisadi yekunları ilə yanaşı, Azərbaycanla aparılan sülh danışıqları prosesinə, Qarabağın erməni sakinlərinin problemlərinə və mövcud reallıqla bağlı maraqlı açıqlamaları və etirafları ilə yadda qalıb. Madrid prinsiplərini qəbul etməklə Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdıqlarını bildirən hayların baş naziri əsas problemin onun 2018-ci ildə təhvil aldığı danışıqlar qovluğunda olduğunu deyib: "Bu qovluqda "Dağlıq Qarabağ xalqı" məhfumu yoxdur, "Dağlıq Qarabağın əhalisi" anlayışı var. Bu, çox vacib aspektdir, çünki "xalq" – konstitusiya subyektidir, "əhali" isə deyil. Yəni, "əhali" özünütəyinetmə subyekti sayılmır".



Deyəsən, Paşinyan, gec də olsa, beynəlxalq hüquq sahəsində savadını artırmaqla məşğul olub. Yoxsa, xalqla əhalinin fərqini belə peşəkarcasına izah edə bilməzdi.

* * *

Hesabat mərizəsindən sonra deputatların suallarını cavablandıran Nikol Paşinyan Bakı ilə davam etdirəcəkləri sülh danışıqları prosesinə də toxunub: "Bizim problemimiz ondadır ki, rəsmi bəyanatlarımız aparılan danışıqların məzmunu ilə üst-üstə düşmürdü. Hərbi qarşıdurma və müharibənin özü məhz bununla bağlı yaranıb". Yəni, hayların baş naziri 44 günlük müharibənin əsas səbəbini sələflərinin yanlış siyasi ritorikadan istifadə etməsində görür. Əlbətə, bu, yalnız daxili auditoriyaya ünvanlamış, heyrət doğuracaq qədər gülünc versiyadır.

Ermənistanın Azərbaycanla müqayisədə pozulmuş hərbi balansını bərpa etmək sahəsində ciddi proqramlar üzərində işlərin getdiyini deyən Paşinyan belə məsələləri açıq müzakirəyə çıxarmağın əleyhinə olduğunu əlavə edib. Deputat Artur Xaçatryanın "Dağlıq Qarabağ gələcək statusu" ilə bağlı sualını cavablandıran baş nazir bildirib ki, bu gün öz müqəddaratını təyinetmə hüququ ilə onların bugünki statusu müəyyən edilməyib, ona görə gələcək statusdan söhbət gedə bilməz.

* * *

Paşinyan xüsusi olaraq müxalifət düşərgəsindən olan deputatlar üçün bir həftə əvvəl "hökumət saatı"nda dediyi sözləri təkrarlayıb: "Azərbaycan bütün danışıqlar prosesinin gedişində eyni sözləri deyirdi. Onlar özü müqəddaratını təyinetmənin heç də müstəqil dövlət demək olmadığını söyləyirdilər. Həm də diqqətə çatdırırdılar ki, öz müqəddaratı təyinetmənin subyekti yalnız ermənilər deyil, həm də azərbaycanlılar olmalıdır. Yəni, bu məsələni azərbaycanlılar da həll etməlidir. Məhz buna görə mən xalq-əhali terminologiyası barədə danışıram. Hələ 2019-cu ildə demişdim ki, Dağlıq Qarabağ məsələsi üzrə danışıqlarda Dağlıq Qarabağın nümayəndəsi iştirak etməlidir. Çünki Dağlıq Qarabağ icması bizim parlament seçkilərində iştirak etməyib, ona görə də mənim mandatım yoxdur. Bu mövqeyimi həmişə ifadə etmişəm".

...Uzun müddət Ermənistan hakimiyyətində kök salmış "Qarabağ klanı"na qarşı siyasi mübarizə aparan Nikol Paşinyanın parlamentdəki çıxışında açıqladığı fikirlərin bir çoxunda sağlam məntiqə rast gəlmək mümkündür. Onun deputatların suallarına cavablarından hiss olunur ki, əgər ixtiyarı öz əlində olsaydı, sülh sazişinə dərhal imzasını qoyardı.

***İ.HƏSƏNQALA, "Xalq qəzeti"***

# Suverenliyini bazara çıxaran ölkə

**"Moskvaya qarşı açıq diplomatik demarşı özünə rəva bilən İrəvan artıq Rusiya üçün ciddi dəyər kəsb eləmir. Əksinə, diplomatik cəhətdən riskli və beynəlxalq hüquqa zidd hərəkətləri ilə, sadəcə, özünün siyasi qəbrini qazır".**

**Bu fikirlər tanınmış siyasi ekspert Aleksey Naumova məxsusdur.**



**Hayastan rəhbərliyi son vaxtlar Rusiya Federasiyasının ünvanına səsləndirdiyi təxribatçı açıqlamaları ilə, şübhəsiz, Kremlin səbrini sınağa çəkməkdədir. Ermənistan rəsmilərinin, eləcə də siyasi ekspertlərinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) və Roma Statusu, NATO-nun hərbi təlimləri və Avropa İttifaqının (Aİ) mülki missiyası ilə bağlı Rusiyaya yönəlik əvvəlcə kəskin, daha sonra "köpü bir qədər alınmış" bəyanat və müraciətləri onsuz da neqativ çalara boyanmış Moskva-İrəvan arasındakı münasibətlərin dinamikasını dərin siyasi böhranla daha da gərginləşdirir, onu yeni strateji məzmunla doldurur. Bu barədə "Caliber.Az" saytına danışan Beynəlxalq İşlər üzrə Rusiya Şurasının aparıcı eksperti Aleksey Naumov qeyd edir ki, Rusiya və Ermənistanın müttəfiqlik münasibətlərinin böhran həddinə çatdığı indiki dönəmdə Moskva ilə Bakının qarşılıqlı əlaqələri yalnız möhkəmlənir.**

## KTMT missiyası bölgəyə gələrsə...

Bakı ilə Moskva arasında bir çox sahələrdə əməkdaşlıqla bağlı, xüsusilə regional və transmilli layihələrin icrası məsələsində fikir ayrılığı yoxdur. Buna misal olaraq, Şimal-Cənub nəqliyyat dəhlizini göstərmək olar. Qarabağ münaqişəsinin son nizamlanma mərhələsində ən müxtəlif bəhanələrlə sülh prosesini ləngidən Ermənistan öz təqsiri ucbatından bu kimi layihələrdən kənarda qalır və İrəvan iqtisadi dividend qazanmaq əvəzinə, özünün siyasi gələcəyini məhv etməklə məşğuldur. Məhz bu səbəbdən İrəvan yaxın və ya uzaq perspektivdə Rusiyanın imtiyazlı müttəfiqi kimi qeyri-rəsmi statusunu da itirmiş olacaq. Bunu Ermənistanı gözləyən qaçılmaz aqibət kimi şərh edən A.Naumovun sözlərinə görə, KTMT-nin sülhməramlı missiyasının Ermənistan-Azərbaycan sərhədində yerləşdirilməsini mümkün variant saymaq olar. Və belə bir qərarın qəbul edilməsi zamanı təşkilatın üzvü olan digər ölkələrin mövqeyi nəzərə alınacaq, İrəvanın ehtimal edilən etirazı isə heç bir rol oynamayacaq. Əlbəttə ki, Hayastan rəhbərliyi KTMT-nin sülhməramlı hərbi kontingentini sərhədində görmək istəmir, çünki bu halda missiya regionda sülhü arzulamayan, özlərinin çirkin maraqlarını güdən Ermənistanın revanşist-destruktiv dəstələrinin, "DQR"-ın "özünümüdafiə qüvvələrinin" pozuculuq fəaliyyətini qeydə ala biləcək. Axı, hər şeydən göründüyü kimi, haylar hərbi təxribatlardan imtina etmək barədə düşünmürlər. Bu düşüncənin, belə zəhərli zehniyyətin sahibi olan erməni-daşnak "elitası" üçün barışıq və Qarabağın erməni icmasının sakinlərinin Azərbaycana reinteqrasiyası sərfəli deyil. Cənubi Qafqazda və MDB məkanında özünütəcrid vəziyyətində qalan Ermənistanın yeni hami axtarışları isə vaxt itkisindən qeyri heç nə deyil.

## Haylara verilən möhlət daralır

Ermənilərin aprel 11-də Gorusun Dığ kəndində əvvəlcədən planlayıb həyata keçirdikləri silahlı təxribatına bənzər hadisələrin yaxın gələcəkdə baş verməyəcəyi ehtimalı çox azdır. Amma hayların istər şərti sərhəd zolağında, istərsə də Qarabağ iqtisadi zonamızda bundan sonra davam etdirəcəkləri təxribatların, pozuculuq fəaliyyətinin qarşısı, Dığda olduğu kimi, Azərbaycan Ordusu tərəfindən ən qəti şəkildə və bütün mümkün üsullardan istifadə olunmaqla alınacaq. Bu məqamda Ermənistanın başbilənləri unutmasınlar ki, Azərbaycan öz ərazisinin bütövlüyünü tam təmin edənə qədər bu mübarizə səngiməyəcək. Hələlik hayların Azərbaycan və Rusiyanın birgə xeyir-duası ilə əldə etdikləri "müvəqqəti nəfəslik" iki il yeddi aydan sonra bağlanacaq. Əgər İrəvan bu müddət tükənəndən sonra beynəlxalq münasibətlərin sülhməramlı subyekti və iştirakçısı olduğunu sübuta yetirməsə, rəsmi Bakı daha onun nazı ilə oynamayacaq. 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla müəyyən edilən müddətin "əqrəbləri" daralmağa doğru hərlənir. Yəqin İrəvan bunun fərqindədir və onun reallığa barışması, üzünü okeanın o tayındakı psevdohimayədarlarına deyil, Azərbaycana və Türkiyəyə sarı çevirməsi üçün vaxtı və imkanı hələ tükənməyib. Son üç ildə özünə müttəfiq, arxa-dayaq bildiyi şərqli-qərbli dayılarından yağlı vədlərdən başqa heç nə görməyən, eşitməyən Paşinyan iqtidarı bu gün nəinki dövləti və cəmiyyəti idarəetmə rıçaqlarını, hətta dövlətçiliyini, suverenitetini onların ayaqları altına sərib.

## 2023 – Paşinyan üçün son şans

Daxildə dalana dirənmiş, xaricdə dəstəksiz qalmış baş nazir Paşinyan üçün 2023-cü il, bəlkə də hakimiyyətdə olduğu müddət ərzində, ən həlledici mərhələ olacaq. Onun ölkəsini nəzarət altında saxlamağı və özünün siyasi kursunu davam etdirməyi bacaracağını məhz bu il görəcəyik. Əgər o, sələfləri ilə müqayisədə, doğrudan da, ölkəsinin gələcəyi barədə düşünürsə, onda Azərbaycanla sülh sazişini imzalamağa tələsməlidir. İlin əvvəlində Azərbaycan Prezidenti İlham Əliyev yeni sülh təşəbbüslərini danışıqlar masası üzərinə qoyulduğunu İrəvanın diqqətinə çatdırıb. İndi Paşinyan hökuməti həmin təşəbbüsləri heç də sonsuzluğa qədər o masanın üzərində qalmayacağını anlamalı və bunu onlara verilən son şans kimi dəyərləndirmədilir.

Hayastan baş nazirinin iki seçim variantı qalıb: ya qətiyyət nümayiş etdirib Azərbaycanla sülhə gəlməli, ya da daşnakların, lobbiçilərin, erməni diasporunun təzyiqlərindən və qisasından qorxub istefaya getməlidir. İkinci variantda onun kürsüsünə yiyələnəcək yeni baş nazir üçün miras kimi qəbul edəcəyi və indikindən daha çeşidli problemlərin öhdəsindən necə gəlməli sualına cavab tapması çətin olacaq. O zaman xələfinin aqibətinə heç Nikol Paşinyanın özü də qibtə etməyəcək. Hayların bu acı həqiqəti, başlarının üstünü kəsdirmiş reallığı qəbul etməkdən savayı çarələri yoxdur. Reallıqla barışıb, üzlərinə dirənən həqiqəti nə qədər tez qəbul etsələr, itirdiklərinin sayını bir o qədər azalda bilərlər. Onların qazancı isə Bakının xoşməramlı rəftarı və təqsirlərinin qalan qismini bağışlaması olacaq...

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

### *Ekspert rəyi*



**Rasim MUSABƏYOV,**
**politoloq**

Moskva ilə İrəvan arasındakı mövcud gərginlik Nikol Paşinyan hakimiyyəti ilə Putin hökuməti arasındadır. Kreml artıq Paşinyana etimad etmir, onu da gözəl alnayır ki, o, hakimiyyətə gələndən MDB, KTMT və Avrasiya İttifaqına qarşı çıxışlar edirdi. Rusiyanın İrəvandakı səfirliyinin qarşısında Putinin, Moskvanın əleyhinə təhqiramiz şüarlar səsləndirirdi. Düzdür, baş nazir olandan sonra Rusiyaya loyallıq göstərirdi, amma Qərbə meyili olduğunu da gizlətmirdi. İrəvan gözləyirdi ki, Moskva Qarabağda onun əvəzinə Azərbaycanla vuruşacaq, Türkiyəyə qarşı çıxacaq, fəqət, bu baş vermədi. Çünki, artıq Türkiyə də, Azərbaycan da güclənmişdi. Axı, Kreml Ermənistanın beynəlxalq hüquqa zidd, cılız maraqlarını, işğalı qəbul etmədi. Üzbəüz döyüşdə isə darmadağın oldu. Nəticədə Ermənistan cəmiyyətində Rusiyaya olan əvvəlki münasibət korlandı.

Ortalıqdakı reallıq ondan ibarətdir ki, bu gün Rusiyada yaşayan ermənilərin sayı Ermənistandakı hayların sayından az deyil. Təbii ki, bu, İrəvanı Moskvaya bağlayan amildir. Keçən il Rusiyadan Ermənistana üç milyard yarım dollar pul köçürülüb. Bu məbləğ az qala Ermənistanın büdcəsinə bərabərdir və daxili məhsulun iyirmi beş faizini təşkil edir. Bu vəsait olmadan Ermənistan yaşaya bilməz. Qazın min kubmetrini 120 dollara alır, amma Avropada bu qiymət 500-600 dollardan yuxarıdır. Ermənistanın işıq, qaz xətləri, dəmir yolu rabitəsi Rusiya ilə bağlıdır. Bu ölkədə Rusiyanın hərbi bazası var, sərhədlərini rusiyalı sərhədçilər qoruyur. Bütün bunları kənara qatmaq qeyri-mümkündür. Dövlət olaraq Ermənistanın Rusiyanın girovluğundan qurtulması mümkün deyil. Hesab edirəm ki, İrəvan-Moskva münasibətlərinin bu sınaqdan çıxmaq ehtimalı azdır.

*Heydər Əliyev – 100*

# Pekində ümummilli liderin yubileyinə həsr edilən sərgi və konsert








**Aprelin 17-də Pekində Diaoyutay dövlət iqamətgahında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr edilən sərgi və konsert təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun, Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının və ölkəmizin Çindəki səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Lin Sontien, Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Can Min, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin xarici əlaqələr şöbəsinin, bu ölkənin Xarici İşlər Nazirliyinin, Mədəniyyət Nazirliyinin, Çin Xarici Dillər Nəşriyyatı Administrasiyasının və digər dövlət qurumlarının nümayəndələri, Çində akkreditə olunmuş 50-yə yaxın xarici diplomatik korpus rəhbərləri iştirak ediblər.

Sərgidə Ulu Öndər Heydər Əliyevin həyatının müxtəlif dövrlərini, xidməti fəaliyyətini, sovet dövründə və müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi illərdə gördüyü işləri, keçirdiyi görüşləri, ölkəmizin regionlarına və xaricə səfərlərini, o cümlədən 1994-cü ildə Çin Xalq Respublikasına səfərini əks etdirən fotoşəkillər və məlumatlar nümayiş olunur. Bu, Heydər Əliyev Fondunun xaricdə ümummilli liderinin 100 illiyinə həsr olunan mədəni tədbirlərinin ilkidir.

Sərginin açılış mərasimində Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Lin Sontien Çin və Azərbaycan arasında dostluğun tarixinin qədim İpək Yolu dövrünə gedib çıxdığını qeyd edərək, bu dostluq sayəsində əsrlərdir xalqlarımızın bir-birindən öyrəndiyini deyib. Azərbaycanın gözəl və zəngin torpağının zəhmətkeş və istedadlı nəsillər yetişdirdiyini bildirən Lin Sontien görkəmli dövlət xadimi Heydər Əliyevin böyük nüfuz sahibi olduğunu deyib. O, Azərbaycanın müstəqilliyinin ilk illərində bir çox çətinliklə üzləşdiyi vaxtda Heydər Əliyevin tarixi məsuliyyəti öz üzərinə götürərək, uzaqgörən siyasi və böyük cəsarəti ilə Azərbaycanın tarixində yeni səhifə açmağa nail olduğunu bildirib. Qeyd edib ki, siyasi sabitliyin təmin olunduğu Azərbaycan sürətli inkişaf yoluna qədəm qoydu, əhalinin rifahı yaxşılaşmağa başladı.

Lin Sontien ümummilli lider Heydər Əliyevin Çinin yaxın dostu olduğunu, Prezident vəzifəsində Çinə uğurlu səfər edərək, iki ölkə arasında münasibətlərin inkişafına tarixi töhfələr verdiyini diqqətə çatdırıb. Bildirib ki, Çin xalqı köhnə və yaxşı dostlarını heç vaxt unutmur. Məhz bunun nəticəsidir ki, Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası Heydər Əliyevin anadan olmasının 90-cı ildönümündə görkəmli dövlət xadiminə həsr olunan kitabın Çin dilində nəşrinin təqdimatını təşkil edib. O, dahi insanların xatırlanması istiqamətində onların irsinin öyrənilməsinin vacibliyini vurğulayıb.

İki ölkə arasında münasibətlərin hazırkı vəziyyətinə toxunan Lin Sontien qarşılıqlı siyasi etimadın getdikcə möhkəmləndiyini, birgə səylər sayəsində müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdiyini diqqətə çatdırıb, Azərbaycanın və Çinin dövlət başçıları İlham Əliyevin və Si Cinpinin strateji rəhbərliyi ilə son illər əlaqələrimizdə böyük sıçrayışın müşahidə olunduğunu deyib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov görkəmli dövlət xadimi Heydər Əliyevin ümummilli lider kimi Azərbaycanı çətin vəziyyətdən çıxararaq, inkişaf yoluna yönəltdiyini, ulu öndərin müasir Azərbaycanın qurucusu olduğunu deyib.

Heydər Əliyev Fondunun "Heydər Əliyev İli" çərçivəsində ölkəmizdə və xaricdə bir sıra mədəni tədbirlər keçirəcəyini diqqətə çatdıran A.Ələkbərov bu çərçivədə ilk tədbirin Çində keçirilməsini iki xalq arasında dostluğun bariz nümunəsi olduğunu deyib. Ümummilli lider Heydər Əliyevin Azərbaycan-Çin münasibətlərinin möhkəmlənməsində əhəmiyyətli rol oynadığını vurğulayan A.Ələkbərov dahi siyasətçinin 1994-cü ildə Çinə səfərinin müasir dövrdə iki ölkə arasında münasibətlərin başlanğıcı kimi qiymətləndirildiyini deyib. O, Çinin böyük dostu kimi Heydər Əliyevin Azərbaycanın Çin ilə münasibətlərinin inkişafına böyük diqqət yetirdiyini, bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini bildirib.

A.Ələkbərov iki ölkə arasında müxtəlif sahələrdə davamlı inkişaf edən münasibətlərdən söz açıb, bu əlaqələrin dostluğa əsaslanan strateji tərəfdaşlıq münasibətləri olduğunu vurğulayıb. O, Çin ilə münasibətlərin möhkəmləndirilməsinin ölkəmizin xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu diqqətə çatdırıb, dövlət başçılarının qarşılıqlı hörmət və etimadı sayəsində ölkələrimiz arasında fəal siyasi dialoqun mövcud olduğunu deyib.

Mərasim ziyafət və Azərbaycan incəsənət ustalarının ifasında maraqlı konsert proqramı ilə davam edib.

# "Ömür bir dəfə yaşanır" şeirlər kitabı Çin dilində

**Aprelin 17-də Pekində "Ömür bir dəfə yaşanır" şeirlər kitabının Çin dilində nəşrinin təqdimatı olub.**





Təqdimat Heydər Əliyev Fondunun, Çin Xarici Dillər Nəşriyyatı Administrasiyasının və Azərbaycanın Çindəki səfirliyinin birgə təşkilatçılığı ilə keçirilib.

Çin Xarici Dillər Nəşriyyatı Administrasiyasının baş redaktorunun müavini xanım Çen Şiya bu nəşrin Çin ilə Azərbaycan arasında humanitar sahələrdə əməkdaşlığın gözəl nümunəsi kimi dəyərləndirib.

Azərbaycanın Çindəki səfiri Əkrəm Zeynallı mədəni-humanitar layihələrin xalqlarımızı bir-birinə daha da yaxınlaşdırdığını, ölkələrimiz arasında əməkdaşlığı möhkəmləndirdiyini deyib. O, nəşrin oxuculara Azərbaycan mədəniyyəti haqqında məlumat əldə etməyə imkan verəcəyini, gələcəkdə bu istiqamətdə yeni layihələrin icrasına yol açacağına əminliyini bildirib.

Qeyd edək ki, "Ömür bir dəfə yaşanır" nəşrinin müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevadır.

Çin Yazıçılar Birliyi poeziya şurasının sədri, tanınmış şair Cidi Macia çıxışında bildirib ki, Leyla Əliyevanın poeziyası lirikdir, eyni zamanda dərin fəlsəfi məna daşıyır. Onun şeirlərini oxuyarkən müxtəlif dövrlərdə yaşamış şairlərin yaratdığı lirik ənənələrin müasir zamanımıza necə axıcı bir şəkildə süzülüb gəldiyinin şahidi oluruq.

Fondun dəstəyi ilə nəşr edilən kitabın ilk simvolik nüsxəsi Azərbaycanın mədəniyyət nazirinin müavini Murad Hüseynova təqdim olunub.

Sonra Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili ixtisası üzrə məzunları Leyla Əliyevanın şeirlərini Çin dilində səsləndirib.

Qeyd edək ki, Heydər Əliyev Fondu ilk dəfədir azərbaycanlı şair və ədiblərinin kitablarının Çin dilində tərcüməsini edib.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovun Çin Xarici Dillər Nəşriyyatı Administrasiyasının baş redaktorunun müavini xanım Çen Şiya ilə keçirilən görüşündə gələcəkdə digər Azərbaycan şair və ədiblərinin əsərlərinin Çin dilinə tərcümə edilməsi ilə bağlı müzakirələr aparılıb.

# Lənkəranda yaz qaçışı




**"Heydər Əliyev İli" çərçivəsində Lənkəran şəhərində Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Atletika Federasiyasının təşkilatçılığı, Lənkəran Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə kross qaçışı üzrə Azərbaycan yaz çempionatı keçirilib.**



Şəhər Olimpiya İdman Kompleksində baş tutan tədbirin rəsmi hissəsində Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov çıxış edərək bildirib ki, ulu öndərin əsasını qoyduğu uğurlu idman siyasəti bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən laiqincə davam etdirilir və bu sahəyə xüsusi diqqət göstərilməsi dövlətin prioiritet istiqamətlərindəndir. O, həmçinin federasiyanın yeni rəhbərliyinə fəaliyyətində uğurlar arzulayıb, bölgələrdə kütləvi idman yarışlarının keçirilməsi gənc nəslin sağlam ruhda böyüməsi baxımından xüsusi önəmi olduğunu söyləyib.

Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini, Atletika Federasiyasının prezidenti Cavid Qurbanov çıxışında bildirib ki, baş tutan kütləvi idman tədbiri gənclərin idmana olan maraqlarının daha da stimullaşdırmasına xidmət edəcək. O qeyd edib ki, keçirilən yarışlar idmançıların dərəcələrini daha da artırması, beynəlxalq yarışlara vəsiqə qazanması və bütövlükdə bölgələrdə idmanın təşviqi və inkişafı baxımından böyük əhəmiyyət kəsb edir.

Gənclər və İdman Nazirliyinin sektor müdiri Sevda Mirzəyeva yarış iştirakçılarına uğurlar diləyib. Dövlət Himninin səslənməsindən sonra çempionata start verilib. Yarışda 11 komanda (Bakı, Naxçıvan, Gəncə, Bərdə, İsmayıllı, Xızı, Lənkəran, Astara, Təhsil - RİM, Təhsil 1 və Təhsil 5), ümumilikdə 170 idmançı iştirak edib. Qaliblər medal, hədiyyə və pul mükafatları ilə təltif olunublar.

***Ə.ƏLİYEV,***
***"Xalq qəzeti"***

# Naxçıvanda respublika yubiley konfransı

**AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Ümummilli lider Heydər Əliyev ideyaları və müasir dövr" mövzusunda respublika konfransı keçirilib.**



İştirakçılar əvvəlcə Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində dünya şöhrətli siyasətçi və dövlət xadiminin xalqımıza xidmətdə keçmiş həyatını, geniş ictimai-siyasi fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar. Sonra AMEA Naxçıvan Bölməsində təşkil olunan "Ümummilli lider Heydər Əliyev – 100" mövzusunda sərgiyə baxış olub.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev konfransda "Azərbaycanla adı qoşa çəkilən ümummilli lider" mövzusunda məruzə edib. Alim bildirib ki, nadir tarixi şəxsiyyət Heydər Əliyevin parlaq obrazı dünyanın ən tanınmış siyasi xadimləri sırasında bənzərsizliyi və mükəmməlliyi ilə seçilir. Təsadüfi deyil ki, dünya siyasətində həlledici rol oynamış dövlət xadimləri Azərbaycan liderinin dərin zəkasına, universal idarəçilik bacarığına, öz xalqının taleyində oynadığı misilsiz rola heyranlıqlarını bildiriblər. Akademik bəzi dövlət xadimlərinin bu dahi şəxsiyyət barədə söylədikləri fikirlərdən sitatlar gətirərək qeyd edib ki, ölkəmizin dünya siyasət meydanında tanınması dahi rəhbərin yorulmaz və uzaqgörən fəaliyyətinin nəticəsidir.

Konfransda AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun icraçı direktoru, tarix elmləri doktoru Eynulla Mədətlinin "Ümummilli lider Heydər Əliyevin bir millət – iki dövlət düsturu Azərbaycan – Türkiyə birliyinin yol xəritəsidir", Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayevin "Ümummilli lider Heydər Əliyevin İpək yolu strategiyası və Azərbaycan", AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin "Ümummilli lider Heydər Əliyev və Türk dünyası", AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin "Heydər Əliyevin milli irsimizin tədqiqinə qayğısı" mövzularında çıxışları dinlənilib.

Sonra konfrans öz işini bölmə iclasları üzrə davam etdirib.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"***

***Naxçıvan***

# Xarici dövlət borcunun ÜDM-ə nisbəti 8,6 faizə qədər azalıb

**Maliyyə Nazirliyinin yaydığı məlumata əsasən, ölkəmizin birbaşa xarici dövlət borcunun səviyyəsi ilin əvvəli ilə müqayisədə 13,5 milyon ABŞ dolları həcmində azalaraq aprelin 1-nə 6 milyard 679,7 milyon ABŞ dolları təşkil edib.**

Daxili dövlət borcalmasının həcminin artırılması, dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi, dövlət borcunun orta və uzunmüddətli gəlirlik əyrisinin formalaşdırılması və “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”sına uyğun olaraq xarici borcun daxili borcla əvəzlənməsi istiqamətində



məqsədyönlü borclanma siyasətinin həyata keçirilməsi nəticəsində 2022-ci ilin sonu ilə müqayisədə birbaşa daxili dövlət borcunun səviyyəsi mütləq ifadədə 180,5 milyon manat məbləğində artmaqla aprelin 1-nə 4 milyard 368,7 milyon manat təşkil edib.

Göründüyü kimi, Azərbaycan xarici dövlət borcu sahəsində davamlı şəkildə müsbət göstəricilər əldə edir. Bu, vurğulandığı kimi, xarici dövlət borcunun daxili dövlət borcu ilə əvəzlənməsinin, dövlət borcunun idarəsi üzrə strategiyanın uğurla gerçəkləşdirilməsinin nəticəsidir.

Xatırladaq ki, ötən il xarici borcun əhəmiyyətli şəkildə azaldılması və daxili borc bazarının inkişaf etdirilməsi ilə diqqət çəkib. Bu məsələdə yuxarıda xatırlatdığımız “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya” sənədi əhəmiyyətli rol oynayıb.

Həmin strategiyada qeyd olunan strateji məqsədlər üzrə müəyyənləşdirilən hədəflərə nail olunub, həm ortamüddətli, həm də uzunmüddətli dövrdə dövlət büdcəsinin maliyyə ehtiyacları nəzərə alınmaqla dövlət borcunun dayanıqlılığı gerçəkləşdirilib. 2018-2025-ci illər üzrə ümumi dövlət borcunun ÜDM-ə nisbətinin yuxarı həddinin 30 faizdən çox olmaması və 2025-ci ilədək 20 faizdən aşağı salınması qarşıya mühüm vəzifə kimi qoyulub.

Növbəti strateji məqsəd kimi daxili borcalmanın artırılmasına üstünlük verilməklə, xarici borcalmanın tədricən azaldılması hesabına məzənnə riskinin aşağı salınması, faiz dərəcələrinin artım riskinin qarşısının alınması məqsədilə dəyişkən faizli borcların sabit faizli borclarla əvəzlənməsi nəzərdə tutulur. Yuxarıda adıçəkilən strategiyanın təsdiqləndiyi 2018-ci il iyulun 1-dən etibarən ümumi dövlət borc portfelində xarici valyutada olan borcun payı 94 faizdən 20 faiz bəndi azaldılaraq cari ilin əvvəlinə 74 faiz təşkil edib, müvafiq olaraq daxili valyutada olan borcun payı isə 6 faizdən 26 faizə qədər yüksəlib.

Sonda mühüm bir məqamı da qeyd edək. Bloomberg agentliyinin yaydığı məlumata əsasən, Beynəlxalq Valyuta Fondu (BVF) bu günlərdə xəbərdarlıq edib ki, qlobal dövlət borcu görünməmiş səviyyələrə çatmaq üzrədir. BVF-nin maliyyə məsələləri departamentinin rəhbəri Vitor Qaspar jurnalistlərə müsahibəsində Çin və ABŞ-ın qarşıdakı beş il ərzində gözlənilən borc artımına görə, məsuliyyət daşıdığını bildirib.

V.Qaspar BVF-nin “Fiskal Monitor” hesabatının qısa şərhini də verib: “2023-cü ildə dövlət borcunun pandemiyadan əvvəl gözləniləndən daha yüksək olduğu bir vəziyyətdəyik”. O əlavə edib ki, Birləşmiş Ştatlarda iqtisadi məhsulun faizi kimi dövlət borcunun - borcun ÜDM-ə nisbətinin - 2027-ci ilə qədər pandemiya dövründəki pik həddini keçəcəyi gözlənilir. Bu arada, Çinin borcunun ÜDM-ə nisbətinin hər il artacağı ehtimal olunur. BVF-nin məlumatına görə, Pekinin borc yükünün 2028-ci ilə qədər pandemiyadan əvvəlki səviyyədən iki dəfə çox olacağı proqnozlaşdırılır.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

*Ekspert rəyi*

**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**



“Fitch Ratings” beynəlxalq agentliyi Azərbaycanın xarici valyutada uzunmüddətli emitent defolt reytinqini (EDR) müsbət proqnozla “BB+” səviyyəsində təsdiqləyib. Reytinq ölkəmizin çox güclü xarici balansı, müvafiq ölkələr qrupunda ən aşağı dövlət borcu və suveren fond aktivlərindən maliyyələşmə çevikliyi ilə dəstəklənib.

Beynəlxalq agentliyin məlumatına əsasən Azərbaycanın strateji valyuta ehtiyatları 2022-ci ildə 5,9 milyard ABŞ dolları artaraq, 58 milyard dollara çatıb. “Fitch Ratings” Azərbaycanın suveren aktivlər üzrə xalis mövqeyinin 2023-2024-cü illərdə 10,9 faiz bənd artaraq, ÜDM-in 68,7 faizinə çatacağını proqnozlaşdırıb, ki bu da reytinq qrupunda ən yüksək göstərici hesab edilib.

Azərbaycanın xarici dövlət borcu keçən ilin əvvəlində ümumi daxili məhsulun 17 faizini təşkil edirdisə, ilin yekunlarına görə bu, 9,5 faizədək azalıb. Bu azalma dövlətin beynəlxalq maliyyə institutlarından asılılığının minimuma enməsinə səbəb olub. Xarici dövlət borcu Maliyyə Nazirliyinin dövlət istiqraz emissiyası vasitəsilə azaldılıb. Son bir ildə dövlət istiqrazlarının həcmi 1,87 dəfə, yəni 1 milyard 184 milyon manat artıb. 2021-ci ildə Maliyyə Nazirliyi 1 milyard 356 milyon manat həcmində istiqraz emissiya edib. Ötən il isə bu emissiyanın həcmi 2 milyard 540 milyon manat olub. Bunun vasitəsilə xarici dövlət borcu son 1 ildə 13 faiz azalaraq 8,1 milyard dollardan, 7,1 milyard dollaradək enib.

Qeyd edim ki, istiqraz bazarı Azərbaycanda son illər inkişaf etməkdədir və dövlətin bazarı stimullaşdırmaq üçün atdığı son addımlar əhalinin vəsaitlərini bu yöndə investisiya etməsinə imkan yaradacaq. Xarici dövlət borcunun Maliyyə Nazirliyinin istiqrazları vasitəsilə azaldılması dövlət istiqrazları bazarına müsbət təsir edib. Həmçinin fevralın 1-dən fiziki şəxslərin bank depozitlərinin faiz gəlirlərinin vergiyə cəlb olunması əmanətçiləri bu bazara yatırım etməyə həvəsləndirəcək. Çünki dövlət istiqrazlarının faiz gəlirləri vergidən azaddır. Bank əmanətinə alternativ maliyyə aləti olan istiqrazların bir çox üstün cəhətləri da var. Bank əmanətini vaxtından əvvəl götürdüyünüz zaman yığılmış faizlər əmanətçiyə verilmir, lakin dövlət istiqrazlarına vəsaitini yerləşdirən əmanətçilər pulları istədikləri vaxt yığılmış vəsaitlə birlikdə geri götürə bilirlər.

## Ölkəmizin valyuta ehtiyatları 62 milyard dolları ötdü

**2023-cü il aprelin 1-nə Azərbaycanın strateji valyuta ehtiyatları 62 milyard 570,6 milyon ABŞ dollarına yüksəlib. Cari ilin birinci rübündə ölkənin valyuta ehtiyatları 4 milyard 541,3 milyon ABŞ dolları və yaxud 7,8 faiz artıb.**

Bütövlükdə isə, son bir ildə ölkənin strateji valyuta ehtiyatları 10 milyard 170,1 milyon ABŞ dolları və yaxud 19,4 faiz artıb.

***“Xalq qəzeti”***

## Sahibkarlığın İnkişafı Fondu gəlirlə işləyir

**İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondunun (SİF) 2022-ci ilin yekunlarına dair maliyyə hesabatı açıqlanıb.**



Fondun məlumatında ötən il SİF-in əməliyyat gəlirlərinin 14 375 min manat təşkil etdiyi bildirilib. Eyni zamanda, əməliyyat və vergi xərclərinin 7811 min manat olmaqla, fondun 2022-ci ili 15 509 min manat mənfəətlə başa vurduğu qeyd edilib.

Qeyd edək ki, SİF-in illik maliyyə hesabatlarının beynəlxalq mühasibat uçotu standartlarına uyğunluğu indiyədək müstəqil audit şirkətləri tərəfindən hər il yoxlanılıb. 2022-ci ilin maliyyə hesabatları “Baker Tilly Azərbaycan” audit şirkəti tərəfindən audit olunub və hesabatlara müsbət auditor rəyi verilib.

Audit rəyinə əsasən, maliyyə hesabatları SİF-in 2022-ci il dekabrın 31-nə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini maliyyə hesabatlarının beynəlxalq standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

***“Xalq qəzeti”***

## BMT-nin Xüsusi Proqramında iştirak edən dövlətlərin nazirlərinin görüşü

**İsveçrənin Cenevrə şəhərində SPECA-nın iştirakçı dövlətlərinin nazirlərinin BMT-nin ixtisaslaşmış qurumlarının rəhbərləri və qeyri-hökumət təşkilatlarının təmsilçiləri ilə dialoqu çərçivəsində regional əməkdaşlıq üzrə çoxtərəfli məsləhətləşmələr və ikitərəfli görüşlər təşkil edilib.**

İqtisadiyyat Nazirliyindən bildirilib ki, tədbirlərdə iştirak edən Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov SPECA ilə ölkəmiz arasında uzunmüddətli əməkdaşlıq əlaqələrini, üzv dövlətlərlə iqtisadiyyatın bir çox sahələrində həm hökumətlərarası səviyyədə, həm də Proqram çərçivəsində geniş əməkdaşlıq edildiyini vurğulayıb. Regional nəqliyyat-tranzit marşrutlarının potensialından istifadənin önəmini vurğulayan nazir deyib: “SPECA-ya üzv ölkələrin əksəriyyətinin açıq dənizə çıxışı olmadığına görə, iqtisadiyyatlarımızın səmərəliliyini artırmaq üçün beynəlxalq və regional nəqliyyat dəhlizlərinə cəlb olunma mühüm əhəmiyyət kəsb edir. Tarixi İpək Yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının tərəfdarı olan ölkələrimiz müxtəlif istiqamətlərdə tranzit daşımalarının səmərəli təşkilinə təminat verir”. Diqqətə çatdırılıb ki, son illərdə Azərbaycan yol-nəqliyyat infrastrukturunun inkişafına, o cümlədən müasir dəmir yolu şəbəkəsinin, dəniz limanlarının, geniş avtomobil yolları şəbəkəsinin tikintisinə iri həcmli sərmayələr yatırıb. Ölkəmizin işğal altında olan ərazilərinin azad edilməsi regional nəqliyyat və logistika marşrutlarının inkişafına yeni təkan verib.

Keçirilmiş görüşlərdə SPECA çərçivəsində çoxtərəfli əməkdaşlıq imkanları ilə bağlı məsləhətləşmələr, ölkələrimiz arasında tərəfdaşlığın inkişafı, inteqrasiyanın dərinləşdirilməsi, dünya iqtisadiyyatına qoşulma prosesinin asanlaşdırılması ilə bağlı müzakirələr aparılıb. Bundan başqa, SPECA regionunda tranzit marşrutlarının şaxələndirilməsi, ticarət və nəqliyyatın asanlaşdırılması, rəqəmsallaşma və “yaşıl” transformasiya, SPECA Etimad Fondunun yaradılması, bu il quruma üzv dövlətlərin Zirvə görüşünün Bakıda keçirilməsi və “BMT-nin Mərkəzi Asiya iqtisadiyyatları üçün Xüsusi Proqramının 25-ci ildönümünün qeyd edilməsi haqqında” BMT Baş Assambleyasının 78-ci sessiyası zamanı irəli sürüləcək qətnamə layihəsi ilə bağlı geniş müzakirələr aparılıb, iştirakçı dövlətlərin nazirlərinin Birgə Bəyanatı qəbul edilib.

***“Xalq qəzeti”***

# Orta Dəhliz çərçivəsində əməkdaşlıq genişlənir

**Prezident İlham Əliyev bu il yanvarın 18-də Davosda Çinin CGTN televiziya kanalına müsahibəsi zamanı Azərbaycanda investisiya mühitinin çox müsbət olduğunu, xarici və yerli investisiyaların lazımınca qorunduğunu vurğulayaraq bildirmişdi ki, qeyri-enerji sektoruna, infrastruktura, xüsusilə nəqliyyat infrastrukturuna, bərpaolunan enerji mənbələrinə yönəlmiş investisiyalar ölkəmiz üçün əsas prioritetlərdən biridir. Həmçinin ölkəmizin Bakı yaxınlığında yerləşən Ələt bölgəsində azad iqtisadi zonasının açılmasının sonuncu mərhələsində olduğunu diqqətə çatdıran dövlət başçımız Çin şirkətlərinin bu fürsətlərə diqqət yetirəcəklərinə ümidvar olduğunu söyləmişdi.**



Azərbaycan–Çin iqtisadi əməkdaşlığının nəticəsi olaraq bugünlərdə Çin Xalq Respublikasının “Shandong Port Group”un idarə heyətinin sədri və baş direktoru Li Fenqlinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfər edib. Səfərin məqsədi Şandonq Port Qrupu ilə Azərbaycanın bir sıra dövlət orqanları və qurumları, o cümlədən Bakı Limanı arasında əməkdaşlığı inkişaf etdirmək, mövcud biznes və ticarət imkanlarının daha da genişləndirilməsi barədə müzakirələr aparmaqdır. Səfər çərçivəsində aprelin 17-də “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC ilə Çinin ən böyük limanlarından biri olan Qinqdao Limanı arasında anlaşma memorandumu imzalanıb. Bakı Limanından verilən məlumata görə, memorandumun əsas məqsədi Azərbaycandan keçən Orta Dəhliz vasitəsilə daha böyük həcmdə tranzit yük axınını cəlb etmək, adıçəkilən limanlar arasında qarşılıqlı faydalı əməkdaşlığı formalaşdırmaq və inkişaf etdirməkdir.

Bakı və Qinqdao limanları arasında imzalanmış memorandum şərtlərinə əsasən, tərəflər liman işinin təşkili və biznes tərəfdaşları ilə əlaqələr sahəsində müasir həllərdən istifadə edərək ən yaxşı təcrübə, rəqəmsal həllər, davamlılıq və texnologiyaların tətbiqi sahəsində əməkdaşlıq edəcəklər. Eyni zamanda, limanlar arasında müasir bilik və bacarıqların öyrənilməsi məqsədilə qarşılıqlı səfərlər və təcrübə mübadilələrinin həyata keçirilməsi nəzərdə tutulur. Anlaşma memorandumuna görə, həm də Yaponiya, Cənubi Koreya və digər Şərq ölkələrindən gələn yüklərin Qinqdao Limanından Orta Dəhliz vasitəsilə Azərbaycandan daşınması mümkün olacaq. Bütövlükdə isə anlaşma memorandumu tərəflər arasında əməkdaşlığı genişləndirməklə yanaşı, Azərbaycan–Çin ticarət-iqtisadi əlaqələrinin inkişafına mühüm töhfə verəcək.

Məlumat üçün bildiririk ki, Qinqdao limanının daxil olduğu “Shandong Port Group” Çin daxilində və ölkə xaricində son dərəcə sürətlə inkişaf edən beynəlxalq şirkətdir. Tərkibinə 5 liman ərazisi daxil olan Qinqdao isə Çinin 3-cü ən böyük limanıdır. Çin, Mərkəzi Asiya və Avropaya yük nəqlində xüsusi paya sahib olan bu limanlar qrupu 2022-ci ildə dünya üzrə rekord həcmdə, 1,6 milyard tondan çox yük aşırıb. Üstəlik, adıçəkilən limanlar qrupu ötən il TEU ekvivalentində 37 milyondan çox konteyner aşıraraq dünya üzrə 3-cü yeri tutub.

Yeri gəlmişkən, Prezident İlham Əliyev Davosda çinli jurnalistin suallarını cavablandırarkən Azərbaycan hökumətinin mövcud olmayan infrastruktura investisiya yatırmağa başladığını vurğulayaraq demişdi: “Son 10 il ərzində biz Xəzər dənizində ən böyük ticarət limanlarından birini, bəlkə də ən böyüyünü inşa etdik. Onun yükaşırma qabiliyyəti 15 milyon tondur və biz onu 25 milyon tona qədər artıracağıq. Biz Xəzər dənizi ilə yükləri daşımaq üçün gəmiqayırma zavodunu inşa etdik”.

Hazırda isə Bakı Limanının tikintisinin 2-ci mərhələsinin layihələndirilməsi üzrə işlər davam etdirilir. Bakı Limanının baş direktoru Taleh Ziyadov bildirib ki, bu işlərin 2023-cü ilin sonunadək yekunlaşdırılması planlaşdırılır. Onun sözlərinə görə, layihə hazırlandıqdan sonra model təqdim olunacaq və Bakı Limanının inkişafı məhz bu modelə əsasən davam etdiriləcək. “Burada söhbət dövlət-özəl sektorun tərəfdaşlığından, yaxud 2-ci mərhələnin tamamilə dövlətimizin hesabına reallaşdırılmasından gedir”, – deyə o əlavə edib.

T. Ziyadov 2-ci mərhələ çərçivəsində konteyner daşımalarına xüsusi diqqət ayrılacağını vurğulayaraq deyib ki, Çinlə Avropa arasında böyük sayda konteynerlər aşırılır və Azərbaycan bu prosesdə hab (qovşaq) rolunu oynayır. Məlum olduğu kimi, ötən il Bakı Limanı 52,3 min konteyner aşırıb. Xatırladaq ki, birinci mərhələ çərçivəsində il ərzində 100 min konteyner aşırmaq mümkündür. İkinci mərhələ reallaşdırıldıqdan sonra bu göstərici 500 min konteynerə çatdırılacaq. Bakı Limanının olduqca strateji bir məkanda yerləşdiyini bildirən T. Ziyadov qeyd edib ki, limanın min kilometrlik radiusunda 140 milyon əhali yaşayır. Bu isə o deməkdir ki, qovşaq olaraq bütün bu əhalinin logistik xidmətləri məhz Bakı Limanı vasitəsilə həyata keçiriləcək.

Yeri gəlmişkən, 2022-ci ilin yekunlarına əsasən, Bakı limanı vasitəsilə 6,3 milyon tondan artıq yük aşırılıb ki, bu da 2021-ci illə müqayisədə 14 faiz çoxdur. Bütövlükdə isə, ikinci mərhələ üzrə genişləndirmə işləri tamamlandıqdan sonra Bakı Limanı vasitəsilə il ərzində 25 milyon ton yük aşırmaq mümkün olacaq. Bu da böyük konteyner terminalının tikintisinin ortamüddətli və uzunmüddətli perspektivinin zəruriliyindən xəbər verir.

Yaxın zamanlarda isə Bakı limanında taxıl yük terminalının inşasına başlanılması planlaşdırılır. Limandan verilən məlumata görə, artıq investorların cəlb olunması üzrə danışıqlar və layihə işləri tamamlanıb. Gələn ayın sonunadək isə Bakı Limanında mineral gübrə terminalının tikintisinin tamamlanması nəzərdə tutulur. Terminalın işə salınması iyun–iyul aylarında gözlənilir. Limandan verilən məlumata görə, yeni terminalın illik gücü 1-1,5 milyon ton təşkil edəcək. Bununla da, mineral gübrələrin aşırılmasında limanın ümumi potensialı ildə 2,5 milyon tona çatdırılacaq. Hazırda Mərkəzi Asiyadan Qərbə böyük həcmdə mineral gübrələrin aşırıldığını nəzərə alsaq, yeni terminalın böyük əhəmiyyət daşıyacağı bir daha aydın olar.

***Mirbağır YAQUBZADƏ,***
***“Xalq qəzeti”***

**Bu ilin yanvar-mart aylarında respublika üzrə elektrik enerjisinin istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 551,7 milyon kVt/st, yəni 7,7 faiz artaraq 7 756,2 milyon kVt/st olub.**

## Birinci rübdə elektrik enerjisi istehsalı 7,7 faiz artıb



Energetika Nazirliyindən bildirilib ki, hesabat dövründə elektrik enerjisinin istehsalı keçən ilin yanvar-mart aylarına nisbətən İES-lərdə 527,3 milyon kVt/st artaraq 7 387,4 milyon kVt/st, SES-lərdə 24,7 milyon kVt/st artaraq 277,9 milyon kVt/st təşkil edib.

Bu dövrdə külək elektrik stansiyalarında 15,5 milyon kVt/st, günəş elektrik stansiyalarında 13,4 milyon kVt/st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 62 milyon kVt/st elektrik enerjisi istehsal edilib.

Üç ay ərzində elektrik enerjisinin istehsalı “Azərenerji” ASC üzrə 7 043,4 milyon kVt/st (İES-lərdə 6 781,1 milyon kVt/st, SES-lərdə 262,3 milyon kVt/st), Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə 87,3 milyon kVt/st (İES-lərdə 61,5 milyon kVt/st, SES-lərdə 13,6 milyon kVt/st, Günəş ES-də 12,2 milyon kVt/st), “Azərişıq” ASC üzrə külək elektrik stansiyalarında 11,8 milyon kVt/st, müstəqil elektrik stansiyaları üzrə 613,7 milyon kVt/st təşkil edib.

2023-cü ilin yanvar-mart ayları ərzində elektrik enerjisinin ixdalı 31,3 milyon kVt/st, ixracı isə 1 238,9 milyon kVt/st olub.

***“Xalq qəzeti”***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 108** **Bakı şəhəri, 14 aprel 2023-cü il**

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 18 nömrəli Qərarının ləğv edilməsi haqqında**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 fevral tarixli 2495 nömrəli Sərəncamının 2-ci hissəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 67, № 10, maddə 1321; 2016, № 3, maddə 584, № 5, maddə 957, № 8, maddə 1428, № 11, maddə 1978; 2018, № 7 (II kitab), maddə 1620; 2019, № 2, maddə 346, № 4, maddə 756; 2020, № 5, maddə 653, № 9, maddə 1213; 2021, № 7, maddə 865) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 109** **Bakı şəhəri, 14 aprel 2023-cü il**

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 may tarixli 187 nömrəli Qərarının ləğv edilməsi haqqında**

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 1047 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2514 nömrəli Sərəncamının 2-ci hissəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 may tarixli 187 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 947; 2019, № 4, maddə 756, № 5, maddə 965, № 12, maddə 2060; 2020, № 4, maddə 499, № 5, maddə 653, № 11, maddə 1400, № 12 (V kitab), maddə 1599) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 112** **Bakı şəhəri, 14 aprel 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İnzibati-orqanların Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2007-ci il 28 avqust tarixli 136 nömrəli, "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adlarının təsdiq edilməsi barədə" 2008-ci il 19 dekabr tarixli 277 nömrəli, "Gömrük orqanlarının vəzifəli şəxslərinin attestasiyasının keçirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2017-ci il 28 noyabr tarixli 517 nömrəli və "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı"nın, "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Siyahısı"nın və "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və komitənin strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 1891 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861, № 9, maddə 923, № 10, maddə 1021, № 12, maddə 1331; 2009, № 1, maddələr 22, 32, № 2, maddə 150, № 4, maddələr 282, 293, № 8, maddələr 674, 675, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 2, maddələr 146, 161, № 11, maddə 1040; 2011, № 1, maddə 54, № 5, maddə 447, № 9, maddə 855; 2012, № 5, maddə 475, № 8, maddə 817, № 10, maddə 1028, № 11, maddə 1204, № 12, maddələr 1363, 1388; 2013, № 1, maddə 73, № 8, maddələr 1015, 1038, № 10, maddə 1219; 2014, № 1, maddə 69, № 3, maddə 312, № 6, maddə 736, № 7, maddə 918, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 612, № 6, maddə 799, № 11, maddə 1413; 2016, № 2 (II kitab), maddə 381, № 4, maddələr 781, 831, № 5, maddə 955, № 7, maddə 1342, № 8, maddələr 1439, 1450, № 9, maddələr 1583, 1585, 1588, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 283, 295, 310, № 5, maddə 972, № 8, maddə 1610, № 10, maddə 1920; 2018, № 2, maddə 335, № 3, maddələr 577, 626, № 7 (II kitab), maddə 1654, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 159, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068; 2020, № 2, maddə 204, № 5, maddə 652, № 7, maddə 1005, № 10, maddə 1311, № 11, maddə 1413; 2021, № 2, maddə 203, № 3, maddə 280, № 8, maddə 965, № 11, maddə 1280; 2022, № 4, maddələr 375, 379, 384, 412, № 6, maddə 686, № 7, maddə 810, № 8, maddələr 974, 1024, № 12, maddə 1552; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 24 yanvar tarixli 20 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın II bölməsinin 21-ci hissəsində aşağıdakı dəyişiklikdər edilsin:

1.1. birinci abzasdan "Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi" sözləri çıxarılsın;

1.2. aşağıdakı məzmunda 21.1.1.1-1-ci yarımbənd əlavə edilsin:

| | |
|---|---|
| 21.1.1.1-1. | Naxçıvan Baş Gömrük İdarəsi |

1.3. 21.2-ci bənd ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115; 2009, № 2, maddə 153, № 4, maddə 282, № 7, maddələr 605, 610, № 8, maddələr 674, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 1, maddə 60, № 2, maddələr 146, 161, № 10, maddələr 906, 912, № 11, maddə 1040; 2011, № 1, maddə 66, № 5, maddə 446, № 9, maddələr 856, 862; 2012, № 5, maddə 479, № 8, maddə 818, № 10, maddə 1027, № 11, maddə 1205; 2013, № 1, maddə 74, № 8, maddələr 1014, 1037; 2014, № 1, maddə 69, № 3, maddə 313, № 6, maddə 736, № 7, maddə 919, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 611, № 6, maddə 800, № 11, maddə 1414; 2016, № 1, maddə 171, № 2 (II kitab), maddə 382, № 3, maddə 608, № 4, maddələr 782, 831, № 5, maddə 955, № 7, maddə 1343, № 8, maddələr 1440, 1450, № 9, maddələr 1584, 1585, 1587, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 282, 296, 311, № 5, maddə 972, № 8, maddə 1611, № 10, maddələr 1921, 1922, № 11, maddə 2186; 2018, № 2, maddə 336, № 3, maddələr 578, 625, 631, № 7 (II kitab), maddə 1655, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 160, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068, 2106; 2020, № 2, maddə 204, № 5, maddə 652, № 10, maddə 1306, № 11, maddə 1413; 2021, № 2, maddə 203, № 3, maddə 276, № 4, maddə 420, № 6 (IV kitab), maddə 695, № 11, maddə 1280, № 12, maddə 1508; 2022, № 4, maddələr 375, 379, 384, 412, № 5, maddə 577, № 6, maddə 686, № 7, maddə 811, № 8, maddə 1023, № 9, maddə 1083, № 12, maddə 1552; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 24 yanvar tarixli 20 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"nın "Naxçıvan Muxtar Respublikası üzrə:" hissəsindən "Dövlət Gömrük Komitəsinin Aparatı" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 28 noyabr tarixli 517 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2179) ilə təsdiq edilmiş "Gömrük orqanlarının vəzifəli şəxslərinin attestasiyasının keçirilməsi Qaydası"nın 1.8-ci bəndi ləğv edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189; 2022, № 7, maddə 811) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları"nın 1.4-cü və 1.6-cı bəndlərində "Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi" sözləri "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 113** **Bakı şəhəri, 14 aprel 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət büdcəsindən maliyyələşdirilən gömrük orqanları və təşkilatlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşlarının məbləğləri"nin təsdiq edilməsi, "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşlarının xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələr üzrə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" 2008-ci il 23 oktyabr tarixli 252-31 nömrəli və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 oktyabr tarixli 315-15 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 may tarixli 224-18 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında" 2019-cu il 11 aprel tarixli 156-6 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 393 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 dekabr tarixli 470 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2022-ci il 16 fevral tarixli 41 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və komitənin strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 1891 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət büdcəsindən maliyyələşdirilən gömrük orqanları və təşkilatlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşlarının məbləğləri"nin təsdiq edilməsi, "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşlarının xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələr üzrə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" 2008-ci il 23 oktyabr tarixli 252-31 nömrəli və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 oktyabr tarixli 315-15 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 may tarixli 224-18 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında" 2019-cu il 11 aprel tarixli 156-6 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 393 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 dekabr tarixli 470 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 16 fevral tarixli 41 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 165) 4-cü hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 114** **Bakı şəhəri, 14 aprel 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşlarının xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələr üzrə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" 2008-ci il 23 oktyabr tarixli 252-31 nömrəli və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 oktyabr tarixli 315-15 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 may tarixli 224-18 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında" 2019-cu il 11 aprel tarixli 156-6 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə" 2019-cu il 6 sentyabr tarixli 393 nömrəli və "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşlarının məbləğlərinin təsdiq edilməsi, "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşlarının xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələr üzrə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" 2008-ci il 23 oktyabr tarixli 252-31 nömrəli və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 oktyabr tarixli 315-15 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 may tarixli 224-18 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında" 2019-cu il 11 aprel tarixli 156-6 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 393 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" 2019-cu il 10 dekabr tarixli 470 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və komitənin strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 1891 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşlarının xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələr üzrə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" 2008-ci il 23 oktyabr tarixli 252-31 nömrəli və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 oktyabr tarixli 315-15 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 may tarixli 224-18 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında" 2019-cu il 11 aprel tarixli 156-6 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 393 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1547, № 12, maddə 2054) 6-cı hissəsi ləğv edilsin.

**2.** "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşlarının məbləğlərinin təsdiq edilməsi, "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitə-sinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşlarının xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələr üzrə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" 2008-ci il 23 oktyabr tarixli 252-31 nömrəli və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 oktyabr tarixli 315-15 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 may tarixli 224-18 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında" 2019-cu il 11 aprel tarixli 156-6 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 393 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 dekabr tarixli 470 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2054; 2022, № 2, maddə 165) 5-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# İrəvan xanlığı niyə və necə erməniləşdirildi?

**Azərbaycanın zəngin dövlətçilik tarixinin çox mühüm və həlledici mərhələlərindən birini xanlıqlar dövrü təşkil edir. 1747-ci ildən Azərbaycan ərazisində yaranmış 18 feodal dövlətdən biri olan, Çuxursəd bəylərbəyliyinin ərazisində yaradılan İrəvan xanlığı Ağrıdağ düzənliyini, Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə doğru uzanan ərazini əhatə edib. Xanlığın mərkəzi əsası eramızdan əvvəl 782-ci ildə qoyulmuş İrəvan şəhəri olub.**

Xanlıqlar dövründə ermənilər hələ Cənubi Qafqazda məskunlaşmamışdı və onların burada heç bir dövləti olmamışdır Tarixin bütün dövrlərində isə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutub. Azərbaycanın şimal-qərbində yerləşən bu xanlıq Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd, Saatlı, Talin, Seyidli-axsaxlı, Sərdərabad, Karpibasar, Abaran, Dərəçiçək, Göyçə kimi 15 mahalı əhatə edib. İrəvan xanlığını ayrı-ayrı vaxtlarda Mehdi xan, Həsənəli xan, Hüseynqulu xan və başqa hökmdarlar idarə ediblər. İrəvan şəhəri müxtəlif vaxtlarda Sasanilər xanədanının, ərəb xilafətinin, Naxçıvan şahlığı, Eldənizlər, Hülakülər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövlətinin tərkibinə daxil olub.





1826–1828-ci illərdə Rusiya–İran müharibəsi zamanı general Paskeviçin komandanlığı altında rus qoşunları şəhəri işğal edib və Türkmənçay müqaviləsi ilə İrəvan zorla Rusiyaya birləşdirilib. Çarizm Şimali Azərbaycan torpaqlarını işğal etdikcə bu torpaqlarda möhkəmlənmək üçün ərazidə əhalinin erməniləşdirilməsi siyasətini həyata keçirməyə başlayıb. 1828-ci il Türkmənçay müqaviləsindən sonra bu iş müntəzəm və məqsədyönlü xarakter alıb.

Ermənilərin İrandan Şimali Azərbaycana köçürülməsi Türkmənçay müqaviləsinin 15-ci maddəsi ilə təsdiq olunub. 1829-cu il Ədirnə müqaviləsi ilə Osmanlı imperiyasından da ermənilərin yenicə işğal olunmuş Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilməyə başlayıb. Köçürmənin əsas istiqamətləri Qarabağ, Naxçıvan və İrəvan əraziləri olub.

Həmin vaxt Rusiyanın İran səfiri Qriboyedov narahatlıqla Paskeviçə yazdığı geniş məktubda bildirib: "Türkmənçay müqaviləsindən sonra ermənilərin Naxçıvan vilayətinə köçürülməsi düşünülməmiş bir siyasətdir. Çünki rus hökumətinin belə bir köçə razılıq verməsi Naxçıvanda yerli və köklü əhalinin haqlı etirazına səbəb olur. Bu köçəcən Naxçıvanda əvvəllər çox az miqdarda – barmaqla sayılacaq qədər erməni yaşayıb. Türkmənçaydan sonra İrandan köçürülən ermənilərin sayı süni surətdə Naxçıvanda yaşayan köklü müsəlman əhalisinin sayına çatdırılır". Bu siyasət artıq dərəcədə İrəvan və Qarabağda yeridilirdi.

Xatırladaq ki, Qriboyedovun Paskeviçə göndərdiyi məktub kimi, İrəvan şəhərinin hakimi, Çuxursəd bəylərbəyi Rəvanqulu xanın 1519-cu ildə Şah İsmayıl Xətaiyə yazdığı məktub da tarixən ermənilərin Qafqaza hansı şəraitdə gəlib məskən salmalarını sübut edən rəsmi dövlət sənədi və tarixi fakt kimi müstəsna əhəmiyyət daşıyır.

Ermənilərin tarixi Azərbaycan torpaqlarında məskunlaşdırılmalarını təsdiq edən mühüm sənədlərdən biri də onların İrandan Azərbaycana köçürülmələrinin 150 illiyi münasibəti ilə 1978-ci ildə Ağdərə rayonu ərazisində ucaltdıqları abidədir. Sonralar bu abidə erməni şovinistləri tərəfindən bilərəkdən dağıdılsa da, tarix və faktlar Cənubi Qafqaza erməni köçürülməsini təkzibedilməz şəkildə təsdiq edir.

Onu da vurğulamaq lazımdır ki, bu köçürmə siyasətində çar Rusiyasının əsas məqsədi müstəmləkəçilik idarə sistemini daha da möhkəmləndirmək, əzəli Azərbaycan torpaqlarında Ermənistan dövləti yaratmaqla gələcək hərbi yürüşlərə, işğalçılıq planlarına zəmin hazırlamaq idi. Qarabağ, İrəvan, o cümlədən Naxçıvan torpaqlarında yerləşdirilən ermənilər sonrakı illərdə iddiaları ilə çoxsaylı qırğınlar törədəcək, azərbaycanlıları soyqırıma məruz qoyacaqdılar.

Bütün bunları gerçəkləşdirmək üçün 1828-ci ilin mart ayının 21-də İrəvanda erməni vilayəti yaradılıb. Beləliklə, Rusiya Qafqazda möhkəmlənmək məqsədilə Qərbi Azərbaycan ərazisində xristian erməni idarəetmə qurumunun əsasını qoyub. Həmin tarixdən etibarən qədim oğuz türklərinin alınmaz qalası olan İrəvanın məqsədli şəkildə erməniləşdirilməsi planı həyata keçirilib. 1849-cu ilin iyunun 9-da İrəvan quberniyası yaradıldıqdan sonra quberniyanın mərkəzi olan İrəvan şəhəri yeni inzibati əhəmiyyət kəsb edib.

Arxitektura baxımından Şərqin, Türk dünyasının mühüm mədəniyyət mərkəzlərindən biri olan İrəvan qalasında 60 bürc mövcud olub. İrəvandakı Sərdar sarayı, Sərdar məscidi, 17-ci əsrin nadir memarlıq abidəsi olan Göy məscid xalqımızın yaratdığı zəngin maddi-mədəniyyət nümunələrindəndir. Ümumilikdə, İrəvan xanlığı ərazisində xalqımıza məxsus 310 məscid, çoxlu sayda karvansaraylar mövcud olub. Bu nadir nümunələr zamanla işğalçı ermənilər tərəfindən mədəni terrorun qurbanına çevrilib.

Azərbaycan torpaqlarında yerləşdirilən ermənilər XIX əsrin axırlarından, xüsusən, 1905-ci ildən başlayaraq müxtəlif illərdə Azərbaycan xalqına qarşı kütləvi soyqırımlar törədirlər. Əsas məqsəd isə tarixi şəraitdən istifadə edərək Azərbaycan torpaqlarında "Böyük Ermənistan" dövləti yaratmaq idi.

Xanlıqlar dövrü ilə müstəqilliyimizin ilk illəri arasında mövcud olan kədərli oxşarlıqlardan daha biri isə torpaqlarımızın itirilməsi ilə bağlıdır. Əgər xanlıqlar dövründə Şimali Azərbaycanın çarizm tərəfindən işğalı və 1828-ci il Türkmənçay sazişinin müddəalarına əsasən ermənilərin Qarabağa, Naxçıvana və İrəvana köçürülməsi ilə yekunlaşmışdısa, ötən əsrin 90-cı illərinin əvvəlində üzləşdiyimiz vəziyyət Ermənistanın öz havadarlarının birbaşa dəstəyi sayəsində Dağlıq Qarabağı, həmçinin onun ətrafındakı 7 rayonu qəsb etməsi ilə nəticələndi.

Ancaq günü-gündən güclənən, ulu öndər Heydər Əliyevin yaratdığı tarixi əsaslar üzərində öz döyüş qüdrətini artıran Azərbaycan Ordusu 30 ildən sonra Prezident, Ali Baş Komandan ilham Əliyevin rəhbərliyi altında işğalçı quldurları darmadağın edib ölkəmizdən qovdu, tarixi ədaləti bərpa etdi. 27 sentyabr 2020-ci il tarixdən başlanan əks-hücum əməliyyatı ilə itirilmiş torpaqlarımız düşmən tapdağından azad edildi. İndi üçrəngli ay-ulduzlu bayrağımız işğaldan azad olunmuş torpaqlarımızda, doğma Qarabağımızda, Şuşa qalasında dalğalanır.

Son 30 ildə Naxçıvan da Qarabağın taleyini yaşamış, Azərbaycanın əsas ərazisindən ayrı düşərək blokadaya alınmışdı. Tezliklə blokada ağrıları da aradan qalxacaq. Qədim türk yurdu olan Qərbi Azərbaycana qayıdışın gerçəkləşəcəyi gün uzaqda deyil.

***Vaqif AĞALAROV***

**Hər bir azərbaycanlınının qəsdinə durmuş, tarixi abidələrimizi imkan düşən kimi yer üzündən silən erməni vandalları Qərbi Azərbaycanda qalmış mədəni irsimizin qiymətli obyektlərindən birini – Aşıq Ələsgərin abidəsini də dağıdıb. Qərbi Azərbaycan İcmasının bununla bağlı UNESCO-ya ünvanladığı və hələ cavabsız qalmış bəyanatda deyilir:**

# Ermənilər Aşıq Ələsgərin məzarına da divan tutublar

–1821-ci ildə İrəvan xanlığının Göyçə mahalının Ağkilsə kəndində anadan olmuş Aşıq Ələsgərin poeziyası Azərbaycan aşıq sənətinin qorunan dünya qeyri-maddi mədəni irs siyahısında yer almasında böyük rol oynayıb. Aşıq Ələsgərin zəngin ədəbi irsi ümummillil lider Heydər Əliyevin təşəbbüsü ilə sənətkarın 150 illik yubileyi sovet dövründə Azərbaycanda və Ermənistanda ən yüksək səviyyələrdə qeyd olunub, Qərbi Azərbaycanın qədim Göyçə mahalında, doğulduğu kənddə onun xatirəsinə abidə ucaldılıb.




Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Aşıq Ələsgərin 200 illik yubileyinin keçirilməsi, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə aşıq sənətinin UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi Aşıq Ələsgər yaradıcılığının ümumbəşəri dəyər kimi əbədiləşdirilməsində əvəzsiz rol oynayıb".

Müraciətin davamında ürək ağrısı ilə qeyd edilir ki, Ermənistan hökuməti orada qalan Azərbaycan mədəni irsinin böyük hissəsi kimi Aşıq Ələsgərin abidəsini də dağıdıb:

–Bu gün biz – Ermənistandan qovulmuş azərbaycanlılar, yaradıcılığı ümumbəşəri sərvət kimi əziz tutulan Aşıq Ələsgərin Qərbi Azərbaycanda dağıdılmış mədəni irsimizi kədərlə anırıq. Biz Aşıq Ələsgərin məzarını və Ermənistanda qoyub getməli olduğumuz digər mədəni irsimizi, müqəddəs yerlərimizi, qəbiristanlıqlarımızı hələ də ziyarət edə bilmirik. Avropa İttifaqı Şurasının sədri Şarl Mişelə bu məsələ barədə göndərdiyimiz müraciətimizə hələ də cavab gözləyirik. Azərbaycan ictimaiyyətinin UNESCO-ya Azərbaycanın mədəni irsinin vəziyyətinin monitorinqi üçün Ermənistana missiya göndərilməsi ilə bağlı dəfələrlə etdiyi müraciətlər cavabsız qalıb.

Bəyanatın sonunda Ermənistan ərazisində azərbaycanlılara məxsus mədəni irsin vəziyyətinin dəyərləndirilməsini, o cümlədən, zərər vurulmuş və yer üzündən silinmiş mədəni irs nümunələrinin siyahısının hazırlanmasını və Ermənistan hökumətinin onları bərpa etmək və qorumaq öhdəliyini icra etməsini təmin etmək üçün icma UNESCO-ya çağırış edib.

***T.RÜSTƏMLİ,***
***"Xalq qəzetri"***

# Qərbi Azərbaycan İcmasının ABŞ rəhbərliyinə müraciəti

**Bugünlərdə Qərbi Azərbaycan İcması ABŞ-ın Dövlət katibi Antoni Blinkenə məktub yazaraq, Ermənistandan qovulmuş azərbaycanlıların öz vətənlərinə dinc, təhlükəsiz və ləyaqətlə qayıtmasına ABŞ-ın dəstək verməsini xahiş edib. Müraciətdə bildirilib ki, azərbaycanlıların yığcam yaşayan yerli əhali kimi mühüm mövcudluğa malik olduqları Ermənistandan qovulması 1991-ci ildə başa çatıb:**

–Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi misli görünməmiş etnik təmizləmə nəticəsində bu ölkədə bir nəfər də olsun azərbaycanlı qalmayıb. Ermənistan bu ölkədəki Azərbaycan mədəni irsini sistemli şəkildə məhv edib. Mədəni və dini obyektlərin, o cümlədən məscidlərin, qəbiristanlıqların və digər müqəddəs yerlərin məhv edilməsi azərbaycanlılara böyük ağrı və iztirab verməklə yanaşı, beynəlxalq humanitar hüququ və insan hüquqlarını kobud şəkildə pozur.

Bu ədalətsizlik Ermənistanın hakim dairələrində cəzasızlıq hissi yaradıb, onları ərazi iddiaları irəli sürməyə, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinə qarşı güc tətbiq etməyə, işğalçılığa, kütləvi etnik təmizləməyə və insanlığa qarşı digər cinayətlərə daha da həvəsləndirib. İstərdik ki, Ermənistanın bu haqsızlıqlarına son qoyulsun və onun nəticələri aradan qaldırılsın.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququna əsaslanaraq, İcma Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasını, eləcə də qayıtdıqdan sonra fərdi və kollektiv hüquqlarının həyata keçirilməsini təmin etməyə çalışır. Biz dinc, təhlükəsiz və ləyaqətli qayıdış konsepsiyamızı hazırlamış və dərc etmişik. Həmin sənəd BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədləri kimi yayılıb.

Məktubun sonunda bildirilir: "Biz ABŞ-dan xahiş edirik ki, müvafiq siyasi və təhlükəsizlik təşəbbüsləri, sosial-iqtisadi yardım proqramları həyata keçirməklə Ermənistandan qovulmuş azərbaycanlıların dinc, ləyaqətli və təhlükəsiz şəkildə öz vətənlərinə qayıtmasına kömək edərək insan hüquqlarımızı möhkəm və ardıcıl şəkildə qorusun".

***Hazırladı:***
***T.AYDINOĞLU,***
***"Xalq qəzeti"***

# Zəngəzur bayatılarında milli-etnik yaddaş

**Azərbaycan türkləri qədim təfəkkürdən qaynaqlanan mənəvi-əxlaqi dəyərlərini həmişə həm sözlü, həm də hərəkətli-göstərişli ifadə etməyi özlərinə şərəf və qürur bilmişlər. Xalq tamaşa və oyunları, qədim etnik mərasim faktlarını ifadə edən ayin-rituallar, xalq rəqsləri də xalqımıza məxsus qədim etnik düşüncəni aydın şəkildə əks etdirməkdədir.**



Azərbaycan türklərinin mənəvi və maddi mədəni dəyərləri hər zaman yadelli xalqları özünə cəlb etmişdir. Və bu dəyərlərdən sui-istfadə edib, özününküləşdirməyə çalışanlar da olmuşdur. Məhz erməni tayfalarının Azərbaycan xalqının köklü, qədim mədəni dəyərlərinə göz dikdiyi kimi.

XX əsrin əvvəllərində erməni musiqişünas Komitas Soqomonyan indiki Ermənistan ərazisində, İrəvanda azərbaycanlıların yaşadığı kəndləri gəzərək yüzlərlə türk mahnısını nota alıb. Ona görə də erməni xalq mahnıları və havalarının, ən azı, 90 faizi Azərbaycan xalq mahnı və rəqslərinə əsaslanır. Ermənilər qədim Azərbaycan nəğmələrini toplayaraq öz arxivlərinə əlavə ediblər. Məhz bu baxımdan Komitas erməni musiqisinin banisi yox, gələcəkdəki erməni plagiatının əsasını qoyub.

1925-ci ildə İrəvanda Elm və İncəsənət İnstitutu yanında xalq musiqisi və folklorunun toplanılması bölməsi yaradılıb. Buna Komitasın şagirdi Spiridon Məlikyan rəhbərlik edir. Bu qurumun işi Azərbaycan folklor örnəklərini toplayıb, onları erməni şifahi nümunəsi kimi təqdim etmək idi. Azərbaycan xalq yaradıcılığı örnəklərini toplayaraq öz örnəkləri kimi təqdim etməyə çalışan ermənilər bununla özlərinə qədim tarix və qədim soy-kök yaratmaq xülyasında olublar. Amma bu mümkün deyil. Ona görə ki, ruhu onu yaradan xalqa bağlı olan dəyərlər özgənin ola bilməz. Lakin təəssüflə qeyd etməliyik ki, ermənilərin mənimsədikləri və öz örnəkləri kimi təqdim etdikləri örnəklər də var. Aşağıdakı mətn erməni mənbəsindən tərcümədir:

***Can, gülüm!***
***Bülbül, sən mənim bağıma gəl,***
***Yarıma nəğmə oxu.***
***Öz nəğməndə mənim salamımı***
***Yarın evinə çatdır.***

***Sən, Araz, məni anla,***
***Danış, dilimi qəbul et.***
***Mehribanlıqla dua et: "Tezliklə***
***Sən məni öz evinə al!.***

Qeyd edək ki, "Can, gülüm", "Gülüm, hey" rədifli nəğmələr Azərbaycan türklərinin məişət və mövsüm mərasimi nəğmələrinə məxsusdur.

Ermənilərin dəyişərək özününküləşdirmək istədikləri, lakin pərakəndə bir mətn yaratdıqları bu nümunədəki sözlərin hansıların Azərbaycan dilinin lüğət tərkibinə aid sözlərin olduğu aydındır: bülbül, can, yar, Araz... Azərbaycanı iki yerə bölən Araz bayatılarımızda o zamandan etibarən giley-güzar obyekti kimi qəbul olunub, qarğış, hətta yeri gələndə nifrət obyekti də olub.

Yurddaşlarımızın öz tarixi torpaqlarından köçkün düşdükləri zamandan etibarən yaranmış sözlü yaradıcılıq örnəkləri isə milli ruhun əsl ifadəçisidir. Bu baxımdan bayatı örnəklərimiz daha önəmlidir:

***Mən aşığam, dam qaldı,***
***Damlar yeri nəm qaldı.***
***Qaşdı elim-obam,***
***Bir quruca dam qaldı.***

Bayatılar insanın yaranandan dünyadan köçdüyü zamanədək yaşadığı həyatının poetik ifadəçisidir. Qədim türk torpağı olan Qərbi Azərbaycan torpaqlarında yaşayan azərbaycanlılar da hər zaman milli təfəkkür və düşüncədən qaynaqlanan dünyagörüşlərindəki məqamları sözlü yaradıcılıq məhsulu olan poetik örnəklərdən ən aktivində – bayatılarda real xalq dili ilə daxili arzu və düşüncələrini, ağrı və acılarını, xiffət və nisgillərini aydınca ifadə etmişdilər.

Əgər müxtəlif zamanlarda yaranmış bayatı örnəklərində sevinc, sevgi və bu kimi xoşbəxt məqamlar öz ifadəsini tapırdısa, Qərbi Azərbaycandan, öz yurd-yuvalarından köçkün düşmüş həmvətənlərimiz yurd həsrətlərini və unudulmayacaq ağrılarını bayatılarla ifadə ediblər. Vətən həsrəti bu bayatıların əsasını təşkil edir. Vətənpərvərlik hisslərinin sözə çevrilməsi, poetikləşməsi bu örnəklərdə gerçəkləşir:

***Xoş gördük, dərə, səni***
***Xoşnişin dərə səni.***
***Xoş o kəsdərin halına ki, Zəngilan,***
***Bir də gələ, görə səni.***

Məlum məqamdır ki, bayatıların son üçüncü və dördüncü misraları əsas fikrin ifadəsini tam təmin edir. Və örnək verilən bayatıda da üçüncü və dördüncü misralardan aydınca görünməkdədir ki, bayatının yaradıcısı olan naməlum müəllif – xalq məhz həsrət obyekti olan Zəngilandan köçkün düşən ərəfədə bu bayatını ərsəyə gətirib, yaddaşlara ötürüb. Qərbi Azərbaycandan toplanmış örnəklərdə də bu məqam olduqca aydındır. Vətən həsrəti, el-oba yanğısı yurddaşlarımızın qəlbini hələ də göynətməkdədir:

***Gün getdi sarı qaldı,***
***Getdikcən sarı qaldı.***
***Vətən, sənə baxmaxdan,***
***Gözümdə sarı qaldı.***

"Bu qədər Vətən həsrəti çəkənə gərəkdir ki, Vətən ona öz qucağını geniş aça" – deyə düşünən soydaşımız bu ayrılıqda Vətəni də günahlandırır. Çünki məkrli nəfəsi müqəddəs Vətən torpağı gərək qəbul etməyə, düşmən nəfəsinə qənim kəsilə bu torpaq. Məhz belə düşüncələrlə öz ümidlərini ölməyə qoymayan soydaşımız Vətəndən də gileylidir:

***Bu dağ o dağa baxar,***
***Altınnan bulaq axar.***
***Heyf qaçqın gözlərim,***
***Bivəfa Vətənə baxar.***

Vətən torpağı ilə, eləcə də Zəngəzurla bağlı bayatı örnəklərini müşahidə edərkən bir daha aydın olur ki, vətən sevgisi, yurd həsrəti bu örnəklərin əsas mayasıdır. Onların ərsəyə gəlməsini məhz həmin müqəddəs duyğular şərtləndirir. Nə qədər yadelli bu örnəkləri mənimsəməyə çalışsa da alınmaz, çünki mayası xalq ruhundan yoğrulan bu örnəklər xalqın qədim tarixi ilə bərabər yaranıb və yaşamaqdadır. Bu örnəklər heç zaman yad dilinə, yad nəfəsinə uyğunlaşa bilməz!

***Aytən CƏFƏROVA,***
***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu folklorşünaslıq şöbəsinin müdiri, fəlsəfə doktoru, dosent***

*Türkiyə seçkilər qarşısında*

# 14 may seçimləri: Avropanın müəmmalı susqunluğu

**Türkiyədəki seçki kampaniyasının gedişatı və mümkün nəticələri bütün dünyanı düşündürür. Təbii ki, "Köhnə qitə" də bunun fərqindədir. Xüsusilə Almaniya və Hollandiya ənənəvi olaraq qardaş ölkənin siyasi həyatında baş verənləri daim diqqətdə saxlayır, yeri olduolmadı, haqqı çatdı-çatmadı, yersiz müdaxilələr etməyə cəhd edir.**



Amma bu dəfə gözlənildiyindən fərqli olaraq, nə Berlin, nə Amsterdam səsini çıxarır. Təkcə Almaniya və Hollandiya deyil, qitənin əksər dövlətlərinin yetkililəri bu il mayın 14-nə təyin olunan seçkilərə münasibətdə bir susqunluq nümayiş etdirirlər. Qəribədir, deyilmi?

Bu məqamda hörmətli oxucu haqlı olaraq soruşa bilər ki, bu "biganəlik" nədən qaynaqlanır? Bu suala konkret cavab verməzdən əvvəl, kollektiv Qərbin son onillər boyu Türkiyəyə qarşı sərgilədiyi münasibətin səciyyəvi cəhətlərinə qısa da olsa, nəzər yetirmək lazımdır.

Beləliklə, özlərini yeni sivilizasiyanın daşıyıcıları sayan avropalılar, demək olar ki, istisnasız olaraq Asiya və Afrikadakı xalqlara zahirən hiss olunmasa da, daxillərində yuxarıdan aşağı baxır, onları özlərinə borclu sayırlar.

Qərbin niyyəti bu zaman heç də yaxın-uzaq toplumlara insan haqları və demokratiya dərsi keçib, onları öz sıralarına qatmaq deyil. Bu missiya üçün vaxt və vəsait xərcləyib yüksək fədakarlıq göstərmək fikrində də deyillər. Son məqsəd, həmin ölkələrin sərvətlərini mənimsəməkdir. Bu, iki vur iki qədər hamı üçün bəllidir.

Belə yanlış yanaşma Avropada ilkin kapitalizmin təşəkkül tapdığı XVI-XVII əsrlərdə də, sonrakı yalançı "sosial kapitalizm" dönəmində də belə olub, hazırkı "Soros imperializmi" mərhələsində də belədir. Yəni Avropada Asiya, yaxud Afrikaya səmimi münasibət bəsləmir və bundan sonra bəsləməyəcəklər.

Belə çıxır ki, hər kəs öz başına çarə tapmalıdır. Çağdaş dünyanın ən xarizmatik liderlərindən olan Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə dövləti inkişaf və tərəqqinin yolunu tapıb və bu istiqamətdə öz yolu ilə inamla irəliləyir.

Bəli, XXI minilliyin əvvəllərinə kimi, Qərbin neokolonalizm torunda çapalayan Türkiyə bu gün regionun və dünyanın ən müstəqil dövlətlərindən biridir. Türklər dünəninə və bugününə hörmət bəsləyən millətdir. Onun inkişaf və tərəqqisi təsadüfi sayıla bilməz! Bu qardaş ölkənin inkişafının qızıl dövrüdür və bu xoşbəxtlik böyük dövlət adamı R.T.Ərdoğanın taleyinə yazılıb!

"Əzilənlərin gur səsi, susqun dünyanın hürr səsi olan" bu tarixi şəxsiyyət son iyirmi ildə ölkəsinin iqtisadi və hərbi sənayesini addım-addım irəli aparıb. Xüsusilə müdafiə sahəsində ölkə böyük uğurlar qazanıb. Türkiyə yeni innovasiyaslar və texnologiyalara da tamamilə açıqdır. Bütün bunlar təqdirə və alqışa layiqdir.

R.T.Ərdoğanın Türkiyə dövləti və xalqı qarşısında ən böyük xidməti isə odur ki, millətin ruhunu oyadaraq gücləndirib. Artıq dünya siyasətində özünə inanan, güvənən, haqqın yanında durmağı bacaran Türkiyə var! Biz bunun Şuşada, Qarabağda şahidi olmuşuq.

Bu gün Türkiyə dünyanın hərbi və "yumşaq" güc mərkəzlərindən biridir. Türk vətəndaşı bu şanlı ölkənin vətəndaşı olması ilə sonsuz qürur və fəxarət duyur. Bütün türk dünyası qüdrətli Türkiyə ilə fəxr edir, ondan ilham və güc alır. Dünya siyasətinin üfüqlərindən qüdrətli Turan boylanır!

R.T.Ərdoğanın "Yeni Türkiyə" vizionu Qərb dövlətlərini məmnun etmir. Kələfin ucu bundadır. Qərb görür ki, Ankara onun "demokratik idarəçilik siyasəti"nə ehtiyac duymur. Türkiyə "Böyük iyirmilər"dən ibarət "güclülərin klubu"na bərabər hüquqlu oyunçu kimi daxil olur. Onun çağdaş dünyanın ən böyük on dövlətindən biri olacağı gün də uzaqda deyil.

Yenidən yazının əvvəlində qaldırdığımız mövzuya qayıdaq. Türkiyədəki seçkilərlə bağlı Qərbin susqunluğuna aydınlıq gətirək. Əvvəlki seçkiqabağı kampaniyalar zamanı Almaniya və Niderlanddan prosesi pisləyən kəskin səslər eşidilirdi. Bu hay-küy hətta ölkənin özündə müxalifətin iqtidara qarşı qaldırdığı etiraz səslərini arxada qoyurdu.

Avropa mətbuatı R.T.Ərdoğan haqqında tonlarla hədyanlar yazırdı. İndi yazmırlar. Bəlkə, Türkiyə iqtidarına inam və rəğbətləri artıb. Xeyr! Başa düşüblər ki, Ərdoğanı çox tənqid etdikcə, ölkə daxilində Prezidenti dəstəkləyənlərin sıraları sıxlaşır. Avropa siyasətçiləri buna görə də indi səslərini çıxarmır, şüuraltı və strateji olaraq müxalifəti dəstəkləyirlər.

FETÖ tərəfdarları, gülənçilər hələ də Almaniya və ABŞ-da xeyli təsirə malikdirlər. Avropalılar kimi onlar da indi açıq şəkildə Ərdoğanı pisləmirlər. Lakin saman altından su yeridib hiyləgərcəsinə radikal müxalifətə maddi və mənəvi dəstək göstərirlər. Ürəklərində Ərdoğanın bu dəfə yıxılacağına ümid bəsləyirlər. Niyyətləri ürəklərində qalacaq!

Türk xalqı yolayrıcındadır. Ölkə vətəndaşları yenidən ya milli birlik və həmrəylik nümayiş etdirib sayın R.T.Ərdoğana səs verməli, ya da bundan 40-50 il əvvəl olduğu kimi, ölkənin milli maraqlarını Qərbə təslim etməlidirlər. Müdrik türk xalqının bu il mayın 14-də bütün çətinliklərə rəğmən doğru seçim edəcəyinə inanmaq istəyirəm…

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

## Makronun çıxışı Fransanı oda qaladı

**Bir gün əvvəl Fransa Prezidenti Emmanuel Makronun xalqa müraciətindən sonra müxtəlif şəhərlərdə minlərlə narazı insan küçələrə çıxıb. Makron öz çıxışında əhali tərəfindən böyük etirazla qarşılanmış pensiya islahatını müdafiə edib və 100 gündən sonra Fransanı ayaq üstə qaldıracağını vəd edib. Məlumatı "Euronews" verib.**



Prezident, eyni zamanda, ölkədə qiymətlərin bahalaşması və iş yerlərinin ixtisarı, bunun nəticəsində əhalinin xeyli hissəsinin yaxşı yaşaya bilməməsi ilə bağlı insanların qəzəbini başa düşdüyünü etiraf edib: "Pensiyanın hər kəsə çatması və millətimizin rifahının yaxşılaşması üçün dəyişikliklər labüd idi. Buna işləyənlər üçün pensiyaların azaldılması, yaxud sosial müavinətlərin artırılması ilə cavab vermədik. Biz həm də heç bir tədbir görmədən davam edə bilmədik, çünki kəsir və gələcək nəsillərin borcu arta bilərdi".

Ancaq onun fikirləri əhalini sakitləşdirə və həmkarları tətilləri dayandırmağa vadar edə bilməyib. Bir çox şəhərlərdə, o cümlədən Parisdə dərhal küçələrə axışan narazı insanlar boş qazanları taqqıldadıb, zibil qablarına od vurub, polislə toqquşmaya qədər gediblər. Sosial sorğular da göstərib ki, fransızların əksəriyyəti pensiya islahatından narazıdır.

Həmkarlar mayın 1-nə yeni kütləvi etiraz aksiyası təyin edib.

## Blinken Sudan generalları ilə danışıb

**ABŞ-ın Dövlət katibi Entoni Blinken Sudan Silahlı Qüvvələrinin komandanı Əbdül Fəttah əl-Burhan və xüsusi təyinatlı qüvvələrin rəhbəri Məhəmməd Həmdan Daqalo ilə ayrı-ayrılıqda söhbət aparıb. Məlumatı "İzvestiya.ru" verib.**



Məlumata görə, Blinken hərbi əməliyyatlar nəticəsində çoxlu sayda dinc sakinin ölümü və yaralanması ilə bağlı ciddi narahat olduğunu, zərər çəkmiş əhaliyə humanitar yardımın çatdırılması üçün atəşkəsin vacibliyini bildirib.

Dövlət katibi söhbət əsnasında hər iki generala vətəndaşların, diplomatik nümayəndəliklərin və humanitar təşkilatların təhlükəsizliyinin təmin olunması ilə bağlı öhdəliklərini xatırladıb.

Bundan sonra xüsusi təyinatlı qüvvələr 24 saatlıq humanitar fasilə elan etməyə hazır olduğunu bəyan edib. Bir qədər sonra ordu da 24 saatlıq atəşkəsə razılıq verib.

Xatırladaq ki, Sudan ordusunun komandanı Əbdül Fəttah əl-Burhanla xüsusi təyinatlı qüvvələrin rəhbəri Məhəmməd Həmdan Daqalo arasında fikir ayrılığı ölkədə vəziyyətin gərginləşməsinə səbəb olub. Aprelin 15-də Merove şəhərində və paytaxt Xartumda iki güc strukturu arasında ağır silahlardan da istifadə edilməklə toqquşmalar başlayıb.

Son məlumatlara görə, Sudanda döyüşlər nəticəsində 270 insan həlak olub, 2600 nəfər isə yaralanıb.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

# Qərb Rusiyanın çökməsini gözləyirdi – yüksəlişmi başlanır?

## *"Həyəcan təbili"nin çalınmasını zəruriləşdirən səbəblər*

**"Anti-Rusiya sanksiyaları Qərbin müasir tarixdəki ən böyük yanlışlığına çevrildi. Çünki Rusiya iqtisadiyyatı sanksiyalarla üzləşdikcə çiçəklənir. Sanksiyalar, deyəsən, "yatmış divi" oyadıb, tezliklə ABŞ və Avropa bunun nəticələri ilə üzləşəcək..." Diqqətə çatdırdığımız bu fikirlər Birləşmiş Ştatların nüfuzlu "American Thinker" nəşrindəki analitik məqalədə yer alıb.**



Məqalədə bildirilir ki, Qərbin Ukrayna ilə əlaqədar sanksiyaları, çoxlarının proqnozlaşdırdığı kimi, Rusiya iqtisadiyyatını diz çökdürməyib. Əksinə, ilk növbədə, Qərb ölkələrinin iqtisadiyyatları əziyyət çəkir və onların iqtisadi artımı praktiki olaraq dayanıb, bir çoxu həm yüksək inflyasiya, həm də enerji çatışmazlığı ilə üzləşir. Moskva isə təkcə durumun öhdəsindən gəlmir, eyni zamanda, inkişaf edir. O, Asiya, Afrika və Cənubi Amerikada Sovet İttifaqının dağılmasından sonra heç vaxt olmadığı qədər böyük nüfuz sahibidir. Yeri gəlmişkən, dünən Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun Cənubi Amerika turnesinə çıxdığı ilə bağlı xəbərlər yayılıb.

Məqalədə Beynəlxalq Valyuta Fondunun proqnozlarına istinad edilərək, bildirilir ki, bu il Rusiya iqtisadiyyatı Almaniya və Böyük Britaniya iqtisadiyyatlarından daha sürətli inkişaf edəcək. Gələn il isə ölkə ABŞ, Yaponiya, İtaliya və bir çox digər Qərb ölkələrinin iqtisadiyyatlarından da sürətli artıma nail olacaq: "Rusiyada adambaşına düşən ümumdaxili məhsulun artımı qabaqcıl iqtisadiyyatları geridə qoyacaq və Moskva G20 ölkələri arasında dövlət borcunun ÜDM-ə nisbətinin ən aşağı səviyyəsinə nail olacaq. Rusiyada işsizlik 3,5 faiz təşkil edir ki, bu da Sovet İttifaqının dağılmasından hazırkı dövrədək olan müddətdə ən aşağı səviyyədir.

Rusiyanın iqtisadi göstəricilərini nüfuzlu S&P Global da təsdiqləyir. Şirkət ölkədə özəl sektora inam səviyyəsində ciddi artımın yarandığı qənaətindədir. Hazırda Rusiyanın Qərbin birləşmiş hərbi arsenalına qarşı baha başa gələn döyüşdə iştirakını nəzərə alsaq, bu, daha çox diqqətəlayiqdir".

Bu ilin fevralında NATO-nun baş katibi Yens Stoltenberq ABŞ Dövlət Departamentində çıxışı zamanı bildirmişdi ki, Qərb Ukraynaya görünməmiş dəstək verib, ümumilikdə 120 milyard dollarlıq hərbi, humanitar və maliyyə yardımı göstərib. Ukraynaya o qədər Qərb silahı göndərilib ki, artıq bir çox NATO ölkələrinin arsenalları tükənib. Həmin vaxt vəziyyət belə idi ki, Almaniyanın gərgin döyüşlər üçün yalnız iki gün davam edəcək silah-sursatı qalmışdı və ölkənin özünü müdafiə edə bilmədiyi vurğulanırdı. Eyni vəziyyət Böyük Britaniya üçün də xarakterikdir. Ciddi sursat çatışmazlığı ilə üzləşənlərdən biri də Fransadır. ABŞ-ın hərbi liderləri də artıq özlərinin döyüş qabiliyyətlərini qorumaq barədə düşünürlər. Onlar Ukraynanın təchizatına davam etmək imkanlarını şübhə altına alırlar. Məqalədə NATO baş katibinin bununla bağlı diqqətə çatdırdığımız fikirlərinə yer verilib və bildirilib ki, Ukraynada sursat istehlakının hazırkı tempi istehsal tempindən dəfələrlə çoxdur.

Təhlili məqalədə o da vurğulanıb ki, hazırda Rusiya öz hərbi istehsalının sürətini ciddi şəkildə artırıb. Ölkənin artilleriyası Ukraynanın artilleriyasından qat-qat güclüdür. Moskva hər gün 40-50 min, Kiyev isə cəmi 5-6 min mərmi atır. Rusiyada silah istehsalı güclü templə həyata keçirilir və Qərb bununla ayaqlaşa bilmir. Digər tərəfdən, Birləşmiş Ştatların Ukraynaya silah tədarükünə önəm verməsi onun Çin ekspansiyasının qarşısını almaq və başqa regionlarda dəyişən şərtlərə cavab verməyə hazır olmaq kimi strateji məqsədlərinə maneçilik törədir.

Dünyanın ən böyük nüvə arsenalına malik olduğunu və hazırda Çinlə sıx əməkdaşlığını inkişaf etdirdiyini nəzərə alsaq, Rusiyanın hərbi qüdrətini nəzərə almamaq düzgün deyil. "Rusiya-Çin oxu"nun yüksəlişi və Qərbin tənəzzülə uğradığına dair fikirlər digər ölkələrin hərbçilərini qalib tərəfə yaxınlaşdırır. Sentyabrda Hindistan, Laos, Monqolustan, Nikaraqua və müxtəlif keçmiş sosialist respublikaları Moskva və Pekinlə birlikdə, Yapon dənizi və Rusiyanın Uzaq Şərqində hərbi təlimlərə qoşuldular. Fevralda isə Cənubi Afrikada Moskvanın və Pekinin iştirakı ilə 10 günlük dəniz təlimi keçirildi", – deyə məqalədə "həyəcan təbili" çalınıb.

Amerikalı analitiklər Rusiyanın diplomatik nüfuzunun artmasına da diqqət yetirirlər. Onların yazdıqlarına görə, ABŞ Qərb ölkələrini Moskvaya qarşı sanksiyalar tətbiq etməyə razı sala bilsə də, Amerikanın, bəzən açıq zorakılıq yolu ilə, digər regionlardakı iddialı davranışı əks nəticə verməkdədir. Asiyada həm Çin, həm də Hindistan Rusiya ilə əlaqələrini əhəmiyyətli dərəcədə dərinləşdiriblər. Cənubi Amerikada Rusiya, köhnə mühafizəkar hökumətlər tərəfindən dəstəkləndiyi kimi, qitənin ən böyük iqtisadiyyatına malik Braziliyanın yeni sosialist hökuməti onlara qoşulur: "İndi çoxlarının ABŞ-a etimad göstərmədiyi Yaxın Şərqdə Rusiya İsraillə, eləcə də bütün əsas müsəlman ölkələri – sünnilər və şiələrlə, ərəblər və türklərlə yaxşı münasibətlər saxlayır. Afrikada Rusiyaya rəğbət böyükdür. Nəticədə qətiyyətlə demək olar ki, Fransa Afrikasının dövrü bitib".

Məqalədə, həmçinin bildirilir ki, Qərb Rusiyadan üz döndərsə də, Moskvanın aparıcı rol oynadığı regional ittifaqlar var. Həmin ittifaqlarda keçmiş Sovet respublikaları təmsil olunurlar. Bundan başqa, Hindistanın və Pakistanın daxil olduğu Çin və Rusiyanın rəhbərlik etdiyi Şanxay Əməkdaşlıq Təşkilatı və BRİCS qrupu (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika) mövcuddur. Səudiyyə Ərəbistanı, Türkiyə, İran, Misir, İndoneziya və Meksika kimi iri regional güclər, təxminən, iyirmi ölkə Rusiyanın iqtisadi və təhlükəsizlik ittifaqlarına qoşulmaqda maraqlı olduqlarını açıqlayıblar.

Məqalədə iddia edildiyinə görə, Rusiyanın yüksəlişi onilliklər boyu ölkənin demonizasiyasının qurbanı olmuş və Ukraynadakı münaqişənin ilk günlərindən onun tənəzzülü ilə bağlı hekayələrlə qidalanan Qərb auditoriyasına böyük şok yaşadacaq. Yazı müəlliflərinin fikrincə, tarixin ən sərt sanksiyaları Rusiyaya "təcavüz yaxşılığa aparmır" dərsi verməli idi. Lakin əks effekt müşahidə olundu. Moskva tam əmin oldu ki, Qərb onu məhv etmək əzmindədir, ona görə öz xilası üçün dişinə qədər silahlanmalı və buna son qoymalıdır. Bu isə ümumən Qərbdən asılılığa son deməkdir.

***Ə.RÜSTƏMOV,***
***"Xalq qəzeti"***

# Mavi vətənin ən güclü qazma gəmisi "Abdülhamid Han"ın KARETTA imzası

**"ASELSAN", milli mühəndislik gücü ilə GNSS siqnalına müdaxilənin qarşısını alacaq, içərisində bir çox yüksək texnologiyanı ehtiva edən, yerli və milli istehsal olan KARETTA-nı dünyanın ən təchizatlı beş qazma gəmisindən biri sayılan "Abdülhamid Han" qazma gəmisinə inteqrasiya etdi.**






KARETTA siqnal qarışdırıcıya dayanıqlı GNSS sistemi vasitəsilə "Abdülhamid Han" gəmisinin qazma qurğusu və naviqasiya sistemi qəbuledicisinə qazma işləri zamanı müdaxilədən təsirlənməməsi üçün inteqrasiya edilmiş və məhsulun müvəffəqiyyətlə yerləşdirilməsi "ASELSAN" tərəfindən hazırlanan siqnal qarışdırıcı sistem İHASAVAR ilə təsdiq olunmuşdur. Bu araşdırma ilə "Abdülhamid Han" qazma gəmisi KARETTA, siqnal qarışdırıcıya dayanıqlı GNSS sistemi ilə mövqe məlumatlarını itirmədən elektron qarışdırma mühitində fəaliyyət göstərəcək və Şərqi Aralıq dənizində karbohidrogen kəşfiyyat fəaliyyətlərini daha təhlükəsiz şəkildə həyata keçirəcəkdir.

Bu fəaliyyətlə KARETTA siqnal qarışdırmaya dayanıqlı GNSS sistemi vasitəsilə bütün Türkiyə Neft Şirkətinin qazma və seysmik tədqiqat gəmilərinə inteqrasiya oluna bilər. "ASELSAN" KARETTA məhsulu ilə Türkiyənin xarici enerjidən asılılığını azaldacaq bütün platformalar, qarışdırma fəaliyyətlərindən təsirlənmədən vəzifələrini yerinə yetirə bilmələri üçün fasiləsiz işləməyə davam edəcəkdir.

# "Mənəm, mən..." tamaşası YUĞ-un səhnəsində

**YUĞ Dövlət Teatrının səhnəsində yazıçı İlqar Fəhminin əsəri əsasında hazırlanmış "Mənəm, mən..." tamaşası yenidən səhnəyə qoyulub.**



Səhnə əsərində əsas rolu canlandıran Seyid Əli ustadına və onun simasında Allaha, İslam dininə bağlı bir şəxs kimi təsvir edilir. Lakin onun Tanrıya, dinə olan bu bağlılığının kor-koranə olması hər kəsə məlumdur. Əsas məqsədi hürufiləri dinsiz kafir hesab edərək onlara divan tutmaq və bütün Şərqdə onların kökünü kəsməkdir. Səhnənin əvvəlində ustadı ona hürufilərdən kimin həqiqi Nəsimi olduğunu axtarmağı tapşırır.

Seyid Əli əmrə müntəzir olaraq həqiqi Nəsiminin axtarışına çıxır. Axtardığı adamlar "Nəsimi mənəm" deməklə, hürufizmin insanı ucaltdığı ali mərtəbədən danışırlar. Bütün hürufi aşiqlərini danışdırdıqdan sonra hər birini fərqli yolla edam cəzasına məhkum edən Seyid Əli hər hürufi ilə görüşündə ona naməlum olan bəzi dini və elmi həqiqətləri anlayıb dərk etməyə başlayır.



Onun görüşdüyü ilk məhkum hürufi alim olur. Alim ona ərəb əlifbasındakı 28 hərf, həmin hərflərin İslamda və Quranda da əks olunması barədə maraqlı söhbət edir. Sonra bir-birinin ardınca səhnəyə çıxan aşiq, xəttat, şair, övliya obrazları - hər biri göstərdiyi səhnələrdə hürufizmi təbliğ edən fəlsəfi fikirlər səsləndirərək, Seyid Əlini düzgün yola çəkməyə çalışırlar.

Bütün bu obrazlar hürufizmi yaradan halqanın hissələri kimi zəncirvari formada bir-birinə elə sıx bağlanır ki, bir müddət keçəndən sonra hamısı birləşərək bütöv bir şəxsiyyətə – Nəsimi obrazına çevrilir. Sonda Seyid Əli anlayır ki, özünün də daxilində bir Nəsimi var. Ustadı Şeyx Əzəm onu hürufiləri edam etməkdə günahlandırır və layiq olduğu ən böyük cəza – ölüm cəzası verir.

Yazıçı əsərində Nəsimi şəxsiyyətini yalnız şair və filosof olaraq deyil, dərviş, sufi, aşiq, alim, insan olaraq kompleks şəkildə canlandırmağı bacarıb. Mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illiyinə həsr edilmiş tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, quruluşçu rəssamı Vüsal Rəhim, bəstəkarı Xalq artisti Aygün Səmədzadədir.

Rolları Xalq artisti Məmmədsəfa Qasımov, Əməkdar artist Qasım Nağı, aktyorlar Ziya Ağa, Əbdülqəni Əliyev, Vüqar Hacıyev, Elgün Həmidov, Amid Qasımov və Elşən Əsgərov ifa edirlər.

***Fidan HÜQUQQIZI,***
***"Xalq qəzeti"***

*Ənvər Məmmədov – 100*

# SSRİ telejurnalistikasının azərbaycanlı əfsanəsi

## *O, həm də Avropanın aparıcı dillərini bilən kamil diplomatdır*

**Ənvər Nazim oğlu Məmmədov haqqında ilk dəfə Azərbaycan Televiziyası yarandığı gündən orada çalışmış Tofiq Axundovdan hələ 1989-cu ildə eşitmişdim: "Bakılı balasıdır. Ancaq Moskvanın bütün televiziya və informasiya mütəxəssisləri hər şeyi onunla məsləhətləşir, ondan öyrənirlər. 10 il qabaq Bakıya gələndə birinci katib Heydər Əliyev onu şəxsən qəbul eləmişdi".**

Tofiq müəllimlə hər söhbət ensiklopediyanı vərəqləmək kimi idi. Danışırdı ki, Ənvər Məmmədov 1923-cü il avqustun 15-də Bakıda anadan olub. Həmin dövrün siyasi prosesləri onun həyatında da çox dərin izlər buraxmışdı. Atası Nazim Məmmədov repressiya qurbanı olub, ölümündən sonra bəraət qazanıb. Balaca Ənvərin tərbiyəsi ilə ana nənəsi Sofya Andreyevna məşğul olub. Deyirlər ki, onun Lev Tolstoyun həyat yoldaşına qohumluğu çatırdı.

Sonra Azərbaycan "Bilik" Cəmiyyətinin sədri Elşad Quliyevin bir xatirəsini eşitmişdim: " Ənvər Nazimoviç beş dildə sərbəst danışan jurnalist, diplomat, hüquqşünas və ictimai xadimdir. SSRİ rəhbərliyində onu tanımayan yoxdur. Buna baxmayaraq, SSRİ informasiya məkanında, bəlkə də ondan sadə adam yoxdur".

Elşad müəllim haradansa oxuduğu bir fakt barədə də iki-üç dəfə danışmışdı. Deyirdi ki, Stalinqradda məğlub olub əsir düşmüş feldmarşal Paulsun Moskvadan Nürnberq Hərbi Tribunalına gətirilməsi zərurəti yarana biləcəyini nəzərə alaraq, sovet nümayəndəliyi əvvəlcədən feldmarşalı təyyarə ilə Almaniyaya aparmışdı. Onun gizlin yolla Amerika zonasından keçirilməsini Ənvər Məmmədovla hərbi kəşfiyat idarəsinin bir zabiti təşkil etmişdi. Bütün bu xidmətlərinə görə Ənvər Məmmədov yeddi orden və onlarca medal ilə təltif olunmuşdu.

Daha sonra mərhum Aqşin Babayevin bu məzmunlu çox söhbətini eşitmişdim. Aqşin müəllim Ali Sovetin mətbuat xidmətinin rəhbəri olanda biz jurnalistər hansısa tədbirə bir az tez gedir, onun söhbətlərinə qulaq asırdıq. Marağımızı nəzərə alaraq, həvəslə danışırdı. Danışırdı ki, mən 70-ci illərin ortalarında Azərbaycan Beynəlxalq radiosuna rəhbər təyin ediləndən sonra bu radionun fəaliyyətini tamamilə yenidən qurduq. Çünki ölkə rəhbəri Heydər Əliyevin tələbləri belə idi. Axırda məlum oldu ki, bizim radio verilişlərin həcminə görə Moskva və Daşkənd Beynəlxalq radiolarından sonra üçüncü yerə çıxıbmış.

Elə ona görə də həmin illərdə SSRİ tarixində ilk dəfə keçirilən Beynəlxalq radioya həsr olunmuş simpoziuma evsahibliyi etməyi Bakıya həvalə etmişdilər. Bu təvbirdə Moskvanı Ənvər Məmmədov təmsil edirdi. Bolqarıstandan, Rumıniyadan, Macarıstandan da qonaqlar gəlmişdilər. Ənvər müəllim sonralar Moskvadakı bəzi söhbətlərində Azərbaycan radiosunun fəaliyyətini yüksək qiymətləndirmişdi.

Bu sətirləri qələmə almaq istəyərkən rusdilli elektron resurslara da baxdım. Mixail Lomonosov adına Moskva Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Televiziya Məktəbinin saytında Ənvər Məmmədov haqqında verilmiş materialı oxuyanda, sözün həqiqi mənasında, qürur duydum.

"msu.ru" adlı həmin internet resursundakı qiymətləndirməyə fikir verin: "Onun , başqa kiminsə qazanmadığı qiymətə layiq görülmək hüququ var idi. Ordudakı xidməti 1941 -42-ci illərin ən dəhşətli vaxtına düşmüşdü. Pencəyinin fərdi göstəricisində yığcam şəkildə yazılmışdı "cəbhəçi". Müharibədən sonra Nürnberq prosesində iştirak etmişdi. Tərcüməçi idi. Ancaq bu, hamısı deyil. Məhz onun təşəbbüsü ilə qurulmuş xüsusi əməliyyat nəticəsində feldmarşal Pauls məhkəmə zalına gətirilmiş və Almaniyanın guya Sovet İttifaqına qabaqlayıcı tədbir olaraq hücuma keçmək versiyasını məhv etmişdir".

Yaxud, "ria.ru" saytı yazır ki, "Molotovun etirazına baxmayaraq, Ənvər Məmmədov diplomatik xidmətə qəbul olunmuşdu". Bu sətirləri hazırlayanda daha bir neçə maraqlı məqamla da rastlaşdım. Rast gəldiyim on məqalənin səkkizində onu "Televiziyanın əfsanəsi" adlandırırlar. Həmin məqalələrin, demək olar ki, hamısında mənim 25-30 il əvvəl yuxarıda adını çəkdiyim ziyalılarımızdan eşitdiyim faktlar da vardı. Bu isə o deməkdir ki, Ənvər Məmmədov zirvəsi daim üzdə olmuş və onun yaradıcılığı hamı tərəfindən izlənilmişdir.

Bir materialda oxuyuruq ki, bu qeyri-adi istedada malik insanın qabiliyyətinə şübhə edənlər olsa da, fakt bütün maneələrin qarşısının alınmasını təmin edib. Məsələn, 1943-cü ildə yaralandığına görə cəbhədən qayıtmış 21 yaşlı Ənvər Məmmədovu Moskvaya SSRİ Xarici işlər xalq komissarlığına çağırırlar. Xarici işlər xalq komissarı Molotov Ənvəri ona təqdim edənlərə deyir ki, bu tatar balasını Avropaya göndərməyin nə mənası var? Sonra həmin gəncin bir neçə Avropa dilində mükəmməl danışmağını, bacarığını nəzərə alaraq onu Xarici İşlər Xalq Komissarlığında işə götürür, sonra SSRİ-nin İtaliyadakı səfirliyinə attaşe göndərir.

Bildirilir ki, xeyli müddət diplomatik sahələrdə çalışan Ənvər Məmmədov sonralar "Sovetski Soyuz" jurnalının baş redaktoru olur. Daha bir neçə il ötür, onu Moskva Beynəlxalq radiosunun Amerika, Kanada və Latın Amerikası redaksiyasının baş redaktoru vəzifəsinə təyin edirlər. Qısa müddətdən sonra həmin radioya rəhbərlik edir. 1962-ci ildə SSRİ Televiziya və Radio Verilişləri Komitəsinin sədr müavini vəzifəsinə təyin olunur. O, "Mayak" informasiya və musiqi radiostansiyası yaratmaq ideyasını irəli sürəndə Kremldə bu təklifi müsbət qarşılamırlar. Aleksandr Yakovlevin dəstəyi ilə bu ideyanın həyata keçməsinə nail olur.



1970-ci ildə isə Ənvər Məmmədov SSRİ Dövlət Televiziya və Radio Verilişləri Komitəsində televiziya üzrə birinci müavini vəsifəsinə irəli çəkilir. Həmin illəri xatırlayan həmkarları yazırlar ki, Ənvər Nazimoviç Mərkəzi Komitənin məsul işçiləri ilə, hətta Siyasi Büronun üzvləri ilə də telefonda çox sərbəst danışır, heç vaxt sıxıntı keçirmirdi. Qürurunu gözləyirdi, vüqarını qoruyurdu. O da vurğulanır ki, Valentin Zorin, Vladimir Dunayev, Aleksandr Bovin, İqor Fesunenko kimi məşhur jurnalistlər, beynəlxalq miqyasda yaxşı tanınan nüfuzlu siyasi icmalçılar Ənvər Məmmədovun rəhbərliyi altında işləyirdilər.

Bəli, Azərbaycan xalqının intellektual səviyyəsini, istedad və qabiliyyətini, yaradıcılıq və idarəetmədəki nailiyyətlərini bütün dünyaya, xüsusən, türkofobiya və Azərbacanofobiyadan əziyyət çəkən bədxahlarımıza göstərən Kərim Kərimov, Lütfizadə və Ənvər Məmmədov kimi tarixi şəxsiyyətlərimizin qiymətini zaman verir. Onların yoluna kötük diyirləndirənlər olanda belə, zaman həmin maneələri götürüb kənara atır. Sovet diplomatiyasında və teleməkanında sırf özünəməxsus mövqeyi olan Ənvər Məmmədov 50 milyonluq Azərbaycan xalqının iftixar duyduğu şəxsiyyətlərdən biridir.

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***

# Süni intellekt fotomüsabiqənin qalibi olub

**Süni intellektin sürətli inkişafı incəsənət və fotoqrafiya sahəsində də əks-səda verib. Belə ki, alman rəssam Boris Eldaqsenin süni intellektlə hazırladığı şəkil "Sony World Photography Awards" mükafatını qazanıb. Bu barədə "bbc.com" saytı məlumat yayıb.**



B.Eldaqsen müsabiqəyə süni intellektin hazırladığı "The Electrician" adlı fotoşəkillə qatılıb. Şəkildə XX əsrin əvvəllərindəki "ruh fotoqrafiyasını" xatırladan iki qadın təsvir edilib. Bu şəkil Ümumdünya Fotoqrafiya Təşkilatı tərəfindən təşkil edilən yarışın qaliblərindən biri olub. Lakin fotonun yaradıcısı mükafatı qəbul etməyib.

Alman rəssam yarışma haqqında deyib: "Əsərimi seçdikləri üçün münsiflər heyətinə təşəkkür edirəm. Məqsədim fotoqrafiyanın gələcəyi ilə bağlı müzakirə mühiti yaratmaq idi. Rəsmin süni intellekt tərəfindən hazırlandığını heç kəs başa düşmədi. Hazırda bu cür faktları aşkar etmək üçün inkişaf etmiş sistem də yoxdur. Bununla belə, bir çox şirkətlər bu məsələ üzərində işləyir və ən azından müsabiqələr fonunda bənzər problemlərin aradan qaldırılacağına ümid edirəm. Belə yarışmalarda süni intellektlə əsl fotoqraflar bir-biri ilə rəqabət aparmamalıdır. Süni intellekt fotoqrafiya deyil. Ona görə də mükafatdan imtina edirəm".

***Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"***

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
kafedralarda vakant vəzifələri tutmaq üçün
MÜSABİQƏ ELAN EDİR

Akademik rəngkarlıq və kompozisiya - 1ştat professor-1 yer, 1 ştat baş müəllim -1 yer, 1 ştat dosent -1 yer.
Bədii toxuculuq və xalça sənəti - 1ştat professor-1 yer.
Geyim dizaynı - 1 ştat müəllim - 2 yer.
Bədii keramika, şüşə və metal – 1 ştat baş müəllim - 1yer.
Memarlıq – 1 ştat baş müəllim - 1 yer.
İncəsənət tarixi – 1 ştat dosent -1yer, 1 ştat baş müəllim – 2 yer.
Humanitar və ictimai fənlər- 1 ştat baş müəllim - 1yer.
Müsabiqə müddəti bu elan dərc edildikdən sonra bir ay keçənədəkdir.
Sənədlər təlimata uyğun olaraq aşağıdakı ünvana göndərilməlidir.
Ünvan- Bakı şəhəri, H.Əliyev prospekti 58.

Rektorluq

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
tələb olunan diyircəkli yastıqların satın alınması məqsədilə
MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il aprelin 26-sı saat 17.00-dəkdir. Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu-(012) 404-37-00, daxili: 1242.
Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

*Sosial şəbəkələrdən seçmələr*

# Milli və dini dəyərlərimizə etinasız yanaşmayaq

**Günümüzdə sosial şəbəkələrin böyük rol oynadığını, hesab edirəm ki, heç kim inkar etməz. Bəzən bu auditoriyadan inqilablar törəndiyinin də şahidi olmuşuq. “Rəngli inqilablar” da yadımızdan hələ çıxmayıb. Amma istənilən istifadəçi sosial şəbəkədən özü üçün kifayət qədər tərbiyəvi paylaşımlar da tapa bilər. Bunlar gündəlik həyat tərzimizlə, milli adət-ənənələrimizlə, yaxud dini, əxlaqi dəyərlərimizlə bağlı olur. Aşağıdakı paylaşım da bəzilərimizin gündəlik davranışda yol verdiyi etinasızlıqla bağlıdır. Zənn edirəm ki, bu hadisə hər birimizə tərbiyəvi təsir etmək gücündədir.**

Professor – doktor Saffet Solak “fasebook”da nəql edir:

“Amerikada təcrübə keçdiyim universitetin yemək zalı açıq bufet şəklindəydi. Hamı bəyəndiyi yeməkdən istədiyi qədər ala bilərdi. Yeməkxananın qapısında belə yazılmışdı: “Take what you need. Eat what you take”. Yəni, “Yeyəcəyin qədər al. Nə aldınsa ye”.

Bir gün eyni masada yemək yediyimiz çinli bir dostun boşqabında qalan son düyü dənəsini götürməyə çalışdığını gördüm. Ona dedim:

– Bir düyü dənəsi üçün niyə bu qədər səy göstərirsən? Qoy boşqabda qalsın.

Çinli dostumun verdiyi cavab çox düşündürücü oldu:

– Hər çinli bir düyü dənəsi israf etsə, çin əhalisinin sayına vur, gör neçə ton düyü edər. Biz əhalisi sıx bir ölkəyik. İsraf etmək şansımız yoxdur.

Mən dedim:

– Amma indi sən Çində deyil, Amerikadasan. Boşqabında qalan düyü dənəsi Çinə deyil, Amerikaya zərər vuracaq.

Dostum bu sözlərimin qarşısında güldü və belə dedi:

– Yaşadığım ölkə olan Amerikanı bu şəkildə zərərə salmaq qürurlu bir davranış olmazdı.



Çinli dostumu bu qürurlu hərəkətinə görə təbrik etdim və özümün düşüncələrimi ona belə söylədim: İslam dini bu mövzuda “Yeyin, için, amma israf etməyin. Çünki Allah israf edənləri sevməz” buyurub.

Elə bu əsnada ərəb ölkələrindən bir müsəlman yoldaş boşqabındakı yeməyin artığını zibil yeşiyinə boşaltdı. Bunu görən çinli dostum onu göstərərək:

– O, müsəlman deyilmi? – deyə soruşdu.

Mən həmin anda o qədər üzüldüm ki, nə deyəcəyimi bilmədim”.

İbrətamiz deyilmi?! Gəlin etiraf edək ki, elə bizim özümüz də bəzən dinimizin tələblərinə etinasız yanaşaraq bu cür israfçılığa yol veririk. Amma Çin vətəndaşı təkcə öz ölkəsində deyil, başqa ölkədə də qənaətcil olmağa çalışır. Bəlkə son illərdə böyük sosial-iqtisadi uğurlara imza atmış Çinin nəhəng sıçrayışlarının bir səbəbi də elə budur!..

**P.BABAKƏRLİ,**
**“Xalq qəzeti”**

# Formula 1: Bakıya 100-dən çox ölkədən azarkeş gələcək

**Əzəmətli Bakı trası Formula 1 həyəcanını yaşamaq istəyənlər üçün yeni və təkrarsız yarış həftəsi keçirməyə hazırdır. “Gözlənilməzə hazır ol” şüarı altında keçirilən növbəti Formula 1 Azərbaycan Qran-Prisində yeni rekordların qeydə alınmasının davam etməsi yarışın daha da möhtəşəm olacağına əsaslı zəmin yaradır.**

Ötən illərdə keçirdiyimiz altı yarışla müqayisədə Azərbaycan Qran-Prisi tarixində ilk dəfədir ki, bilet satışı ən yüksək səviyyəyə çatır. Digər yenilik isə ondan ibarətdir ki, dünyanın 100-dən çox ölkəsindən azarkeşlər ölkəmizi ziyarət edəcəklər. Bu rəqəm Bakı yarışı tarixində qeydə alınmış ən yüksək göstəricidir. Bu rekord beynəlxalq arenada 2023 Formula 1 Azərbaycan Qran-Prisinə olan böyük marağın və diqqətin ən bariz nümunəsidir. Üçüncü yüksək göstərici isə son altı illə müqayisədə Azərbaycana Qran-Prini izləməyə gələn əcnəbi azarkeşlərin sayında qeydə alınıb. Azarkeşlərin Bakı trasında keçiriləcək yarışa olan böyük marağı nəticəsində Sahil, Abşeron “B” sektoru, Filarmoniya tribunalarından sonra Muğam və Bulvar tribunalarına olan biletlər də tamamilə satılıb. Beləliklə, adıçəkilən bu tribunalara biletlərin 90 faizi sahibini tapıb.

**Bakı Şəhər Halqasının (BŞH) mətbuat katibi Turab Teymurov** həyəcanın maksimum həddə olacağı bu yarışda tamaşaçılara yerlərini əvvəlcədən tutmağa səsləyib: “Bilet satışı sürətlə davam edir. Formula 1 Azərbaycan Qran-Prisi gözlənilməz və maraqlı hadisələrlə dolu bir yarışdır və görürük ki, Bakı yarışının bu xüsusiyyəti bilet satışında da öz əksini tapır. Bütün F1 azarkeşlərini yenidən Bakıda salamlamağı səbirsizliklə gözləyirik”.

Azarkeşlərin sevimli şəhər yarışı olan Formula 1 Azərbaycan Qran-Prisi həm trekdə, həm də trekdən kənarda onlara fasiləsiz adrenalin və bol əyləncə yaşatmağı vəd edir. Onu da vurğulayaq ki, cari mövsümün ilk sprint yarışı məhz Bakıda keçiriləcək və avtoidman həvəskarları dünya ulduzları DJ Don Diablo və Hardwell tərəfindən baş tutacaq əsas konsertlərdən zövq ala biləcəklər.

Dünən BŞH KİV nümayəndələri üçün media mərkəzinin fəaliyyəti, iş qrafiki, akkreditasiya prosesi, jurnalist və fotoqrafların iş prinsipləri barədə seminar da təşkil edib. Seminarda yarış barədə ümumi məlumat verilib, ölkəyə gələcək komandaların heyəti, yarış təqvimi haqqında danışılıb.

Qeyd olunub ki, ümumilikdə 90-a yaxın yerli media nümayəndəsinin akkreditasiya üçün müraciəti qeydə alınıb.

Bakının yeddinci dəfə evsahibliyi edəcəyi Formula 1 Azərbaycan Qran-Prisi aprelin 28-30-da keçiriləcək.

***L.AZAD,***
***“Xalq qəzeti”***

# Saçlarına gül düzüm...



**Bir neçə gün əvvəl rəfiqəmlə birlikdə dənizkənarı bulvara gəzintiyə çıxmışdım. Düşündüm ki, yazın gəlişi ilə bağlı bir şey yazsam, yerinə düşər. Bu an xatırladım ki, “Xalq qəzeti”ndə ilk yazım bu ünvanla bağlı idi. O zaman bulvarın payız ovqatından söz açmışdım.**

Bulvar bu yaz günləri, həqiqətən, çox gözəldir. Burada ağac və gül kollarının çoxu artıq yaşıl libasını geyinib. Gül açmış ağaclar çox füsunkar görünür. Ləklərdəki rəngbərəng güllərə baxmaqdan doymaq olmur.

Buraların gözəlliyi, təbii ki, uşaqlardır. Onlar ayaqlarına diyircəkli kirşələr geyərək ətrafda usanmadan fırlanırdılar. Doğmaları onlara həyəcanla göz gəzdirir, bəzən yıxılacaqlarını düşünüb narahat olur, bəzən də cəld hərəkətlərinə çox sevinirdilər. Uşaqlar əyləndikcə onlar da xoşbəxt olurdular.

Rəfiqəmlə gəzə-gəzə biraz da irəli getdik. Dalda bir oturacaqda gənc bir oğlan qızla xısın-xısın danışırdı. Birdən oğlan ayağa durub yaxınlıqdakı ləkdən bir neçə gül dərdi və qızın saçlarına taxdı. Qızın çöhrəsində dərhal isti bir təbəssüm yarandı.

Sanki, o çiçək də qızın saçlarına düzüldüyündən “xoşbəxt” idi. Gül, bəlkə də, həyatının ilk sevgisini yaşayan bir qızın üzündə gülüşə səbəb olmuşdu.

Rəfiqəmin də o gənclərə diqqətlə baxdığını gördüm. Ona tərəf dönüb “kaş elə sənin də saçlarına gül düzən biri qarşına çıxsın” – dedim.

Rəfiqəmin gözləri parıldadı.

Təsadüfə bir bax! Bu an kafelərdən birində tanış bir melodiya eşidildi:

***Saçlarına gül düzüm,***
***Mənim günüm, gündüzüm!***
***Sənsiz mən necə dözüm,***
***Bilmirəm özüm…***

Qoy bütün qızların saçlarına gül düzən, onlara həqiqi sevgini yaşadan biri olsun...

***Leyla HADİ,***
***tələbə-jurnalist,***
***Elşən AĞALAR (foto)***

# 62 yoluxma faktı qeydə alınıb

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 62 yoluxma faktı qeydə alınıb, 55 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 830 min 918 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 820 min 216 nəfər müalicə olunaraq sağalıb, 10 min 217 nəfər vəfat edib. Aktiv xəstə sayı 485 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1321, bu günə qədər isə ümumilikdə 7 milyon 578 min 265 test icra olunub.

***“Xalq qəzeti”***

# Süni ağıl ən yaxın dostumuz olacaq

**Süni intellekt (AI) təbii intellektdən fərqli olaraq, xüsusi maşınlar tərəfindən nümayiş etdirilən zəka növüdür.**



Süni ağıl insanlara məqsədlərinə çatmaqda kömək etmək üçün onların işlərini asanlaşdıran cihaz qurğudur. Danışıq dilində “süni intellekt” termini çox vaxt “öyrənmə” və “problemin həlli” kimi “idrak” funksiyalarını təqlid edən maşınları təsvir etmək üçün istifadə olunur.

Bunlar bir neçə qrupa bölünür:

**1. Reaktiv maşınlar** - stimullara reaksiya verən süni intellekt növüdür. Onlar keçmiş təcrübələrini təhlil edərək nəticə çıxarır və ani stimullara reaksiya verir. Maşın öyrənməsi adlanan sistem süni intellektin ən böyük hissəsini təşkil edir. Buna “Dip Blu” adlı süni intellektin 1997-ci ildə şahmat üzrə dünya çempionu Kasparovu məğlub etdiyini misal çəkə bilərik.

**2. Məhdud yaddaşlı maşınlar** - məlumatları qısa müddətdə məhv edən proqram növüdür. Bu maşın növünə işıqforlar və onlayn mesajlaşma proqramlarını nümunə gətirmək olar.

**3. Ağıl nəzəriyyəsinə əsaslanan maşınlar** - cəmiyyətin qorxu ilə yanaşdığı bu proqramlar, adətən, insanların həyatını asanlaşdırmaq üçün böyük işlər görə bilir. Belə ki, bu maşın növü insanlarla ünsiyyət qura, hisslərinizi və düşüncələrinizi müəyyənləşdirə və buna uyğun reaksiya verə bilir. Onlardan hətta tibb sahəsində sosial qarşılıqlı əlaqə quraraq pasiyentlərin müalicəsində də istifadə olunur.

**Süni intellektin gələcəyimiz üçün hansı müsbət təsirləri ola bilər?**

1. Bu cihazlar nüvə fəlakətlərinin və yol qəzalarının qarşısını ala, zəlzələ, yanğın və digər təbii fəlakətlər zamanı zərərçəkmiş insanların həyatını xilas edə biləcəklər.

2. İnsanlar daha ağır yükləri qaldırmaq və daşımaq üçün süni intellektə malik avtonom maşınlardan istifadə etmək şansı əldə edəcəklər.

3. Onlar dünyanın ən yaxşı cərrahlarından da yaxşı əməliyyat edə bilmək xüsusiyyətinə malik olacaqlar.

4. Kosmosun tədqiqində ən böyük silahımız süni intellekt olacaq. Bundan əlavə, okeanın dərin sularında da süni intellektlər yerləşdiriləcək.

5. İnsan münasibətləri dəyişəcək. Gələcəkdə insanlar bir-biri ilə ünsiyyət qurmaq əvəzinə, süni intellekt vasitəsilə dostlaşacaqlar.

6. Bu günün ev heyvanları gələcəyin mehriban robotları olacaq.

7. Süni intellekt gündəlik və darıxdırıcı işləri öz üzərinə götürəcəyi üçün insanların daha çox istirahət etməyə boş vaxtı olacaq.

***F.SALMANOVA,***
***“Xalq qəzeti”***

# Migrendən xilas yolu – botoks?!

**Xroniki baş ağrılarının insanların gündəlik həyat tərzinə və fəaliyyətlərinə mənfi təsir etməsinə və insanların sosial həyatdan uzaqlaşmasına səbəb olduğunu bilirik. Bu vəziyyət zaman keçdikcə insanda psixiatrik əlamətlərin inkişafına səbəb olur.**



Miqren botoksunun təsir mexanizmi nədir?

Qeyd edək ki, botoksun miqren xəstələrində effektivliyi təsadufən kəşf edilmişdir. Bildiyimiz kimi, botoks daha çox kosmetologiyada məşhurlaşmış bir vasitədir. Lakin tibbdə uzun zamandır bir çox xəstəliklərdə: blefarospazm, əyri boyunluluq, spastik ifliclər, həddindən artıq tərləmə, sidik qaçırmaları zamanı və s. geniş istifadə olunur. Kosmetik məqsədlə edilən botoks zamanı xəstələrdə miqren ağrılarının tədricən azalması müşahidə olunmuşdir. Bununla da botoksu miqrenin müalicəsində də tətbiq etməyə başlamışlar.

Botoksun miqren xəstəliyinin müalicəsində təsir mexanizmi sinirləri sıxan əzələlərin boşalmasına və bununla da sinirin rahatlamasına əsaslanır.

Son olaraq qeyd edək ki, botoksun baş ağrısının müalicəsində təsiri bəzi xəstələrdə ilk dozadan sonra, bəzi xəstələrdə isə 12 həftə sonra özünü büruzə verməyə başlayır. Bundan başqa, müalicədən faydalanan xəstələrdə effektiv nəticə üçün ildə 3 və ya 4 seans tətbiq edilməsi məsləhət görülür. Sonrakı dövrdə prosedur xəstənin ehtiyaclarına uyğun olaraq 6 ay və ya daha uzun fasilələrlə təkrarlana bilər.

Migren botoksu zamanı xəstələrdə hər hansı fəsadların olması müşahidə edilməyib. Tətbiq olunan nahiyələrdə keçici ağrı, qızartı, müvəqqəti bel və baş ağrıları hiss oluna bilər.

Amerika Qida və Dərman Admistrasiyası (FDA) botoksun miqrenin müalicəsində effektivliyini təsdiq etmişdir. Botoks miqren xəstələri üçün digər dərman müalicələri ilə müqayisədə ən az yan təsiri olan və ən effektiv üsullardan biridir.

***Səadət RZAYEVA,***
***“Xalq qəzeti”***

## HAVA PROQNOZU

✓ ***Aprelin 19-da***

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, yağmursuz keçəcəyi gözlənilir. Əsasən səhər və axşam bəzi yerlərdə duman olacağı ehtimalı var. Mülayim cənub küləyi əsəcək, günün birinci yarısında arabir güclənəcək. Gecə 8-12°, gündüz 13-18°, bəzi yerlərdə 20° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 761 mm civə sütununa enəcək, nisbi rütubət 65-75 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə az yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək Gecə 6-10, gündüz 19-24° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə az yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək Gecə 0-5°, gündüz 7-12°, bəzi yerlərdə 15° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yüksək dağlıq ərazilərdə az yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 0-5°, gündüz 7-12°, bəzi yerlərdə 16° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə az yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 6-10°i, gündüz 18-23° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Gecə 5-10°, gündüz 13-18°, bəzi yerlərdə 21°dək, dağlarda gecə 0-5°, gündüz 8-13° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 6-11°, gündüz 17-22°, bəzi yerlərdə 25°-dək isti

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə az yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 7-11°, gündüz 14-19°, bəzi yerlərdə 22°-dək, dağlarda gecə 6-8°, gündüz 10-15° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN

Əlillərə və Aztəminatlı Ailələrə İctimai Dəstək Fondunun rəhbəri Gülbəniz Bayramova və fondun kollektivi Azərbaycan Sahibkarlıq, Elm, Elmi – İstehsalat Müəssisələri İşçiləri Həmkarlar İttifaqları Respublika Komitəsinin sədri

**MƏHƏMMƏDƏLİ SALMANOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5007
SİFARİŞ 968
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00